AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MEMARLIQ VƏ İNCƏSƏNƏT İNSTİTUTU

AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
INSTITUTE OF ARCHITECTURE AND ART

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ АРХИТЕКТУРЫ И ИСКУССТВА

# İncəsənət və mədəniyyət problemləri

*Beynəlxalq Elmi Jurnal N 2 (44)*

# Problems of Arts and Culture

*International scientific journal*

# Проблемы искусства и культуры

*Международный научный журнал*

Bakı - 2013

**Baş redaktor:** ƏRTEGİN SALAMZADƏ, sənətşünaslıq doktoru, professor (Azərbaycan)
**Baş redaktorun müavini:** GULNARA ABDRASİLOVA, memarlıq doktoru, professor (Qazaxıstan)
**Məsul katib:** PƏRZAD ABDİNOVA, sənətşünaslıq üzrə fəlsəfə doktoru (Azərbaycan)

**Redaksiya heyətinin üzvləri:**
ŞAMİL FƏTULLAYEV – AMEA-nın müxbir üzvü (Azərbaycan)
ZEMFİRA SƏFƏROVA – AMEA-nın müxbir üzvü (Azərbaycan)
RƏNA MƏMMƏDOVA – AMEA-nın müxbir üzvü (Azərbaycan)
RƏNA ABDULLAYEVA – sənətşünaslıq doktoru (Azərbaycan)
SEVİL FƏRHADOVA – sənətşünaslıq doktoru (Azərbaycan)
VLADİMİR PETROV – fəlsəfə elmləri doktoru, professor (Rusiya)
KAMOLA AKİLOVA – sənətşünaslıq doktoru, professor (Özbəkistan)
MEYSER KAYA – fəlsəfə doktoru (Türkiyə)

---

**Editor-in-chief:** ERTEGIN SALAMZADE, Prof., Dr. (Azerbaijan)
**Deputy editor:** GULNARA ABDRASSILOVA, Prof., Dr. (Kazakhstan)
**Executive secretary:** PARZAD ABDINOVA, Phd (Azerbaijan)

**Members to editorial board:**
SHAMIL FATULLAYEV – corresponding-member of ANAS (Azerbaijan)
ZEMFIRA SAFAROVA – corresponding-member of ANAS (Azerbaijan)
RANA MAMMADOVA – corresponding-member of ANAS (Azerbaijan)
RANA ABDULLAYEVA – Prof., Dr. (Azerbaijan)
SEVIL FARHADOVA – Prof., Dr. (Azerbaijan)
VLADIMIR PETROV – Prof., Dr. (Russia)
KAMOLA AKILOVA – Prof., Dr. (Uzbekistan)
MEYSER KAYA – Ph.D. (Turkey)

---

**Главный редактор:** ЭРТЕГИН САЛАМЗАДЕ, доктор искусствоведения, профессор (Азербайджан)
**Зам. главного редактора:** ГУЛЬНАРА АБДРАСИЛОВА, доктор архитектуры, профессор (Казахстан)
**Ответственный секретарь:** ПАРЗАД АБДИНОВА, кандидат искусствоведения (Азербайджан)

**Члены редакционной коллегии:**
ШАМИЛЬ ФАТУЛЛАЕВ – член-корреспондент НАНА (Азербайджан)
ЗЕМФИРА САФАРОВА – член-корреспондент НАНА (Азербайджан)
РЕНА МАМЕДОВА – член-корреспондент НАНА (Азербайджан)
РЕНА АБДУЛЛАЕВА – доктор искусствоведения (Азербайджан)
СЕВИЛЬ ФАРХАДОВА – доктор искусствоведения (Азербайджан)
ВЛАДИМИР ПЕТРОВ – доктор философских наук, профессор (Россия)
КАМОЛА АКИЛОВА – доктор искусствоведения (Узбекистан)
МЕЙСЕР КАЯ – кандидат искусствоведения (Турция)

Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.
N 3756. 07.06.2013-cü il.

Redaksiyanın ünvanı: Bakı, AZ 1143.
H.Cavid prospekti, 31
Tel.: +99412/539 35 39
E-mail:mii_inter@yahoo.com
www.mii.az

*UOT 7.067: 316.37*

***Ərtegin Salamzadə***
***sənətşünaslıq doktoru, professor***
***(Azərbaycan)***

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN İNCƏSƏNƏTİ

Bu il Azərbaycan dövləti, bütün Azərbaycan xalqı, ziyalılar, elm, mədəniyyət və incəsənət xadimləri ulu öndərimizin anadan olmasının 90 illiyini təntənə ilə qeyd edir. Dövlətmimizin memarı olan Heydər Əliyevin mədəniyyət və incəsənət sahəsində fəaliyyəti nəinki Azərbaycan, bütün keçmiş sovet məkanını əhatə edir. Ümumilli liderin dünyanın tərk edilməsindən sonra 10 ilə yaxın zaman keçib.

İllər keçdikcə hər bir tarixi hadisə, mədəniyyətin hər bir fenomeni cəmiyyət tərəfindən hərtərəfli dərk olunur, daha da dərin təhlil edilib obyektiv qiymətləndirilir. Doğrudan da ictimai və bədii proseslərin obyektiv işıqlandırılması üçün müəyyən zaman kəsiyinin keçməsi gərəkdir. Tarixi və mədəni hadisələrdən məsafəcə uzaqlaşdıqca müşahidəçi, tədqiqatçı alim onların arasından ən vaciblərini seçib, dövrün əsas inkişaf təmayülü kimi araşdırır, ümumiləşdirir. XX-XXI əsrlərin kəsişməsində Azərbaycan cəmiyyəti, Azərbaycan mədəniyyəti tarixində Heydər Əliyevin taleyüklü rolu məhz bu baxımdan işıqlandırılmaq üçün alimlərə hərtərəfli əsas verir. Onun incəsənət inkişafına göstərdiyi səylər ulu öndərimizin dövlət başçısı kimi fəaliyyətinin ayrılmaz hissəsini təşkil edir. Heydər Əliyev incəsənət və mədəniyyətin inkişaf proseslərinin istedadlı təşkilatçısı, incəsənət xadimlərinin yaxın dostu, yüksək zövqlü məsləhətçisi, həm də Vətəndən kənarda Azərbaycan incəsənətinin ən fəal təbliğatçısıdır.

Bu gün hər kəs inkar edə bilməz ki, 1970-1990-cı illər Azərbaycan bədii mədəniyyətinin, bütün incəsənət növlərinin inkişafında həqiqətən də yüksəliş dövrü olmuşdur. Memarlıq və şəhərsalma, monumental incəsənət, təsviri sənət, musiqi, teatr və kino sahəsində milli bədii məktəblər təşəkkül tapmış, mühüm incəsənət əsərləri yaradılmış, bütün bu sahələri əhatə edən milli bədii təhsil sistemi bərqərar olmuş, Azərbaycan incəsənətinin parlaq nailiyyətləri dünyanın bir çox ölkələrində yüksək peşəkar səviyyədə təmsil olunmuşdur.

Bu dövrdə Azərbaycanın şəhərlərində böyük yaşayış kompleksləri, müxtəlif tipli ictimai binalar, sənaye və nəqliyyat obyektləri tikilişi xüsusilə nəzə-

rə çarpırdı. Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri məhz bu illərdə paytaxt tipli böyük şəhərə çevrilmişdir. Bakının ən görkəmli yerlərində gözəl memarlıq ansamblları yaradılmış, şəhərin simasını müəyyən edən müasir ictimai binalar ucaldılmışdır. Bunların tam əksəriyyəti H.Əliyevin şəxsi təşəbbüsü ilə və fəal nəzarəti altında layihələndirilib tikilmişdir.

Bakının gözəl guşələrinin birində yerləşən xarici ölkələrin dövlət başçıları üçün tikilmiş iqamətgahın müəllifi memar Rasim Əliyev xatırlayır ki, burada aparılan işlər zamanı Heydər Əliyev tikintiyə azı həftədə iki dəfə gəlib, tikintinin problem və çətinlikləri ilə şəxsən tanış olurdu. Hələ işin layihə mərhələsində o, binanın memarlıq planında otaqların beynəlxalq diplomatik fəaliyyətin tələblərinə uyğun olaraq yerləşdirilməsi məqsədilə memarlara əsaslı göstərişlər verirdi.Bina üçün zəruri olan müxtəlif tikinti materiallarının Bakıya xarici ölkələrdən yollanması yalnız Heydər Əliyevin qayğıları və təşkilatçılıq qabiliyyəti sayəsində mümkün olmuşdur. Binanın ətrafında salınmış park zonası üçün H.Əliyev hətta ağac növlərini özü seçmişdir. Bir sözlə iqamətgahın yaradılmasında Heydər Əliyevin memarlıq istedadı və beynəlxalq siyasi təcrübəsi üzvi sintez halında təzahür etmişdir.

Çəkdiyimiz misal çox səciyyəvi olsa da, Heydər Əliyevin memarlıqla bağlı geniş fəaliyyətinin yalnız az bir hissəsi haqqında təsəvvür verir. Məlum olduğu kimi, H.Əliyev hələ II Dünya müharibəsindən öncə o zaman İndustrial İnstitutunun tərkibində olan «Memarlıq» fakültəsinə daxil olmuşdur. Təkcə onu qeyd edək ki, nəzərdən keçirdiyimiz dövrdə Bakının təsdiq edilmiş baş planının hazırlanmasında H.Əliyevin xidməti əvəzsizdir. O, həqiqətən, paytaxtımızın çağdaş şəhərsalma tələblərinə cavab vermək baxımından gələcək taleyin böyük uzaqgörənliklə həll etmişdir. Bakıda və onun yaxınlığında tikilmiş bir sıra sənaye müəssisələri, bu dövrdə yaradılmış infrastruktur və nəqliyyat sistemi Azərbaycanın bu günkü müstəqilliyi və iqtisadi yüksəlişi üçün əsaslı zəmin yaratmışdır.

1970-90-cı illərdə Bakıda və Azərbaycanın digər şəhərlərində Vətənimizin dövlət, mədəniyyət və incəsənət xadimlərinin xatirəsini əbədiləşdirmək məqsədilə bir sıra gözəl heykəltəraşlıq abidələri ucaldılmışdır. Onların əksəriyyəti Heydər Əliyevin şəxsi təşəbbüsü ilə yaradılmışdır. İ.Nəsimi, C.Cabbarlı, S.Vurğun, M.Hüseynzadə və başqalarının şərəfinə ucaldılmış heykəllər buna gözəl nümunələrdir. Monumental incəsənət ilə yanaşı H.Əliyev cənabları incəsənətin inkişafını istiqamətləndirən direktiv sənədlərdə, çıxışlarında, bədii ictimaiyyətin nümayəndələri ilə görüşlərində təsviri sənətə və klassik bədii irsimizə, miniatür sənətinə də həmişə böyük diqqət yetirmişdir. Onun təsviri sənət haqqında

söylədiyi fikirlər, ayrı-ayrı sənət ustalarının ünvanına göndərdiyi məktublar müasir estetik fikrimizin mühüm sənədləri və XX əsr Azərbaycan incəsənəti tarixinin öyrənilməsi üçün dəyərli mənbələr kimi əhəmiyyətə malikdir.

Heydər Əliyev cənablarının məruzə və çıxışlarında Azərbaycan incəsənətinin, onun inkişafının ən mürəkkəb problemləri öz əksini tapmışdır. O, xüsusən XX əsr Azərbaycan incəsənətinin təşəkkülü, yaradıcılıq potensialı, yeni növ və janrlarının formalaşması problemlərini peşəkar sənətşünas səviyyəsində təhlil edir. H.Əliyevin tərcümeyi-halından və çıxışlarından yaxşı məlumdur ki, hələ məktəbdə oxuyarkən o, rəssamlığa böyük həvəs göstərmiş, orta məktəbi bitirdikdən sonra isə yuxarıda qeyd etdiyimiz kimi memarlıq ixtisası üzə ali məktəbdə oxumuşdur. Lakin memarlıq təhsilini bitirmək ona qismət olmadı. Əvəzinə isə H.Əliyev bütün Azərbaycan dövlətinin memarı taleyini yaşamışdır. Ona görə də H.Əliyevin incəsənət mövzusuna və Azərbaycan incəsənətinin inkişaf problemlərinə daimi marağı təbiidir. Onun anadangəlmə istedadı illər keçdikcə professional sənətşünaslıq təhlil üslubuna malik olmasını təmin etmişdir.

Qeyd etdiyimiz xüsusiyyət yalnız memarlıq və təsviri sənət sahəsində deyil, musiqi, teatr və kino sahələrində də özünü aşkar təzahür etdirir.

Yaxşı məlumdur ki, H.Əliyev öz çıxışlarında Azərbaycan bəstəkarlıq məktəbinin inkişaf etdirilməsinə böyük əhəmiyyət vermişdir. Musiqinin başqa janrları arasında simfonik əsərlərin xüsusi əhəmiyyətini Heydər Əliyev yüksək qiymətləndirmişdir: «Azərbaycan simfonizminin ən yaxşı nümunələri müasir dünya musiqi sənəti səviyyəsinə yüksəlmiş, Azərbaycanda özünəməxsus bitkin simfonik məktəb yaranmışdır» [1].

Azərbaycan incəsənətinin yüksək nailiyyətlərini təbliğ etmək və inkişaf etdirmək sahəsində Heydər Əliyevin təşəbbüsü ilə keçirilmiş görkəmli rəssam, bəstəkar, teatr və kino xadimlərinin yubiley tədbirlərin və gecələrinin əhəmiyyəti olduqca böyükdür. Hər hansı bir sahəyə aid bu cür tədbirlərin keçirilməsi həmişə həmin sənət növünün inkişafında yeni bir mərhələ olaraq onun tədqiqi üçün yeni imkanlar açmışdır.

1970-1990-cı illərdə Azərbaycan bədii mədəniyyətinin bütün sahələrinin inkişafı, bu prosesdə Heydər Əliyevin bilavasitə iştirakı Azərbaycan sənətşünaslıq elminin inkişafı üçün də əlverişli şərait yaratmışdır. Məhz bu dövrdə şəhərsalma, memarlıq, təsviri və dekorativ-tətbiqi sənətlər, musiqi, teatr və kino sənətlərini əhatə edən qiymətli sənətşünaslıq əsərləri nəşr edilmişdir. 1973-cü ildə sənətşünaslığımızın tarixində ilk dəfə olaraq «Azərbaycan incəsənəti ta-

rixi» adlı üç cildlik fundamental əsər üzərində iş başlamış, 1980-cı illərin ortalarında Azərbaycan incəsənətinin bütün inkişaf mərhələlərini əhatə edən tarixi yaradılmışdır.

1990-cı illərin mühüm siyasi və ictimai hadisələri, Azərbaycan Respublikasında müstəqillik və dövlət suverinliyinin əldə edilməsi cəmiyyət qarşısında keyfiyyətcə yeni olan məqsəd və vəzifələr qoymuşdur. Azərbaycanda milli ideologiyanın və cəmiyyətin yeni inkişaf modellərinin qurulması və digər bu kimi sosial problemlər hümanitar elmlərin öncül tədqiqat istiqamətlərinə çevrilmişdir. Qarşıda duran problemlərin uğurla həll edilməsi üçün elmi və elmi-təşkilatı tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbacyan elminin inkişafında aparılacaq islahatlar barədə 1997-ci ilin 31 yanvarında Azərbaycan Prezidentinin Elmlər Akademiyasının rəhbərliyi və aparıcı alimləri ilə görüşündə ətraflı və dərin məzmunlu söhbət aparılmışdır. Görüşdə Heydər Əliyev cənabları xüsusilə vurğulamışdır ki, humanitar elmlər sahəsində ən mühüm problem – yeni tarixi həqiqətləri nəzərə alaraq XIX-XX əsərlərin Azərbaycan tarixini yaratmaqdır. «Tarix» anlayışını geniş mənada işlədən H.Əliyev öz nitqində elmi vəzifələri daha da dəqiqləşdirərək demişdir ki, bizə «elm, mədəniyyət, ədəbiyyat tarixi də lazımdır» [2].

Ulu öndərin bədii təhsilin inkişafında rolu xüsusi əhəmiyyətə malikdir. Hələ 1972-1980-cı illərdə onun təşəbbüsü ilə 5 ali məktəb yaradılmışdır. Onlardan biri o zaman İnşaat Mühəndisləri adlanan indiki Memarlıq və İnşaaat Universitetidir. Nəzərə almaq lazımdır ki, sovet dövründə hər bir ali məktəbin yaradılması, onun maddi-texniki bazasının təşkili və professor-müəllim heyətinin formalaşması mərkəzi idarə orqanların, yəni Moskvanın razılığı ilə həyata keçə bilərdi. Belə şəraitdə Azərbaycan ali təhsil sisteminin inkişafı üzrə miqyaslı planlar yalnız Heydər Əliyevin siyasi iradəsi, yüksək nüfuzu və təşkilatçılıq qabiliyyəti sayəsində gerçəkləşdi.

1970-1980-cı illərin əvvəli ən layiqli Azəbaycan gənclərinin Moskva, Peterburq, Kiyev və başqa şəhərlərin nüfuzlu ali məktəblərə göndərilməsi gələcək Azərbaycan intellektual potensialın yaradılması işinin ayrılmaz hissəsidir. Ulu öndər bu prosesi şəxsi nəzarət altında saxlayır, hər il Azərbaycanı təmsil edəcək abituriyentlərlə ənənəvi görüşlər keçirirdi. Son günlər ümummilli liderin 90 illik yubileyi ilə bağlı AzTV kanalında nümayiş etdirilən verlişlərin birində bununla bağlı çox maraqlı epizod göstərilmişdir. 1987-ci ildə M.Qorbaçovun göstərişi ilə siyasi burodan kənarlaşdırılmış Heydər Əliyev Moskvadakı xidməti mənzili qısa müddətdə təhlil verilməli idi.

Evində olan şəxsi əşaylardan o, ilk növbədə həmin abituriyentlərin siyahısı ilə dəftəri götürmüşdür. Necə deyərlər, kommentariyalara ehtiyac yoxdur.

Ulu öndərin fəaliyyətinin bu istiqaməti müstəqillik illərində də ardıcıl olaraq davam etdirirdi. Yenə də rəqəmlərə müraciət edək. Onun Fərmanı ilə 2000-ci ildə Azərbaycanda 6 yeni ali məktəb təşkil olunmuşdur. Onlardan 3 – bədii ali məktəblərdir: Rəssamlıq Akademiyası, Bakı Musiqi Akademiyası və Milli Konservatoriya.

İncəsənət və mədəniyyət sahəsində Heydər Əliyev dərsi, onun bizə qalan vəsiyyəti nədən ibarətdir? Bu vəsiyyət yalnız qədim bədii ənənələrinin qorunması və müasir mədəniyyətin inkişaf etdirilməsindən ibarət deyil. Onun əhəmiyyəti, mənası daha da geniş, daha da dərindir. Bu günki qlobal dünyada milli mədəniyyətlər əhalinin sayına, ölkələrin ərazilərinə, hətta dövlətlərin hərbi gücünə görə təmsil olunmur. Millətlər beynəlxalq məkanda istehsal etdikləri informasiya məhsulların həcminə görə təmsil olunurlar. İncəsənət və mədəniyyət ən güclü informasiya mənbəyidir.

**ƏDƏBİYYAT**

1. Высокое искусство музыки. Газета «Бакинский рабочий». 1982, 12 июня.
2. Heydər Əliyevin Azərbaycan EA rəhbərliyi və aparıcı alimləri ilə görüşündə nitqi. «Azərbaycan» qəzeti, 1997, 5 fevral.

**Açar sözlər:** H.Əliyev, Azərbaycan incəsənəti, mədəni siyasət, memarlıq, bədii təhsil.

*Эртегин Саламзаде (Азербайджан)*

**Гейдар Алиев и искусство Азербайджана**

В статье освещается культурная политика общенационального лидера Гейдара Алиева в период 1970-1990-х годов. Анализируются его инициативы в сфере развития архитектуры, изобразительного, декоративно-прикладного и народного искусства, музыки и театра Азербайджана. Особо отмечается роль Г.Алиева в деле пропаганды культурного наследия Азербайджана за рубежом.

**Ключевые слова:** Г.Алиев, Азербайджанское искусство, культурная политика, архитектура, художественное образование.

*Artegin Salamzade (Azerbaijan)*

**Heydar Aliyev and Azerbaijan art**

In the article is depicted the cultural policy of national leader Heydar Aliyev in the period of 1970-1990-s. His events in the sphere of developing of Azerbaijan architecture, fine arts, handicrafts, music and theatre are analyzed. The role of H.Aliyev in the propaganda of Azerbaijan cultural heritage abroad is especially noted.

**Keywords:** H.Aliyev, Azerbaijan art, cultural policy, architecture, art education.

*UOT 351.85*

***Vüqar Kərimli***
***kulturologiya üzrə fəlsəfə doktoru, dosent***
***(Azərbaycan)***

# HEYDƏR ƏLİYEVİN MƏDƏNİ SİYASƏTİ

Mədəniyyət hər bir xalqın mənəvi dünyasının, milli mövcudluğunun əsas göstəricilərindən biridir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra hər sahədə olduğu kimi, mədəniyyət sahəsində də böyük dəyişiliklər olmuşdur. Mədəni irsimizin qorunub saxlanmasında, inkişaf etdirilməsində, onun geniş təbliğində, dünya miqyasında şöhrət tapmasında böyük şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur.

Tarix uzaqlaşdıqca biz Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü daha aydın dərk edirik. "Heydər Əliyev Azərbaycanı azərbaycanlılara qaytardı" fikrinin bir şaxəsi də məhz mədəniyyətlə bağlıdır. Ötən əsrin sonlarında cəmiyyətdə baş verən aşınmalar yaddaşlardan silinməyib. Dağılan təkcə iqtisadiyyat deyildi, mənəvi potensialımız da sıradan çıxmışdı. Məhz Heydər Əliyevin səyi nəticəsində səhmanı pozulmuş həyatımızın bütün sahələrində olduğu kimi, mədəniyyətimizdə də nizamlanma aparıldı. Heydər Əliyev mədəniyyətə sadəcə qayğı göstərməklə kifayətlənmirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə böyük məhəbbət duyğularıyla yanaşan ümummilli lider həm də bu dəyərlərin qoruyucusu idi. Ulu öndər yaxşı bilirdi ki, milli dövlətçilik dəyərlərinin əsasını sağlam düşüncəli mədəniyyət təşkil edir. Sabahkı uğurlara yeganə təminat isə sağlam cəmiyyət quruculuğuna diqqət artırmaq, köklü mənəvi dəyərləri yeni nəslə və bütün cəmiyyətə daha dərindən və əzmlə çatdırmaqdır.

Hələ ötən əsrin yetmişinci illərində görkəmli dövlət xadimi, müdrik şəxsiyyət kimi o, yaxşı bilirdi ki, aydın və dərk olunmuş milli ideologiya hər bir xalqın irəliyə doğru inkişafının yolgöstərəni və bələdçisidir. Milli dövlətçilik və milli-mənəvi dəyərlər sıx daxili vəhdətdədir. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bitkin inkişaf proqramı ola bilər. Heydər Əliyev nəinki bu proqramı yaratdı, həm də onu qəbul etdirdi. "Mən fəxr edirəm ki azərbaycanlıyam"- deyən ulu öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu (3). Hələ

sovetlər dönəmində tariximizin qədimliyi və zənginliyinin mühüm göstəricisi olan tarixi abidə və eksponatların qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədilə Azərbaycanın bütün bölgələrində tarix - diyarşünaslıq muzeylərinin yaradılması haqqında sərancam imzaladı. Bunlarla yanaşı vaxtilə dahi şəxsiyyətlərin ev muzeylərinin yaradılmasının təşəbbüskarı məhs ulu öndər olmuşdur. Azərbaycan folklorunun daha dərindən araşdırılması, aşıq sənətinin inkişafı, milli mərasimlərimizin təbliği istiqamətində ciddi tədbirlər həyata keçirdi. İti fəhmi ilə gələcək müstəqilliyi duyub-hiss edən Heydər Əliyev o illərdə milli-mənəvi intibah üçün zəmin hazırlayırdı.

Vaxtilə qadağalara məruz qalan, yasaq olunan milli və dini bayramlar, adət və mərasimlər xalqa qaytarıldı. Heydər Əliyev bu tədbirləri təkcə Azərbaycanda yox, bütün türk dünyası miqyasında həyata keçirirdi. Ortaq türk mədəniyyəti və mənəviyyatının öyrənilib təbliğ edilməsi, keçmişdən gələcəyə ötürülməsi yönündə müstəsna xidmətlər göstərirdi. "Dədə Qorqud"-dastanının min üç yüz illik yubleyinin keçirilməsi də Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə olmuşdur. Bu tədbirin keçirilməsi müstəsna əhəmiyyət daşıyırdı.

Heydər Əliyevin xidmətləri nəticəsində Azərbaycan mədəniyyəti, sözün həqiqi mənasında, yüksəliş dövrü keçdi. Azərbaycan incəsənətinin inkişafına nail olmaq üçün Heydər Əliyev görkəmli bəstəkarların, rəssamların, kino və teatr xadimlərinin yubileylərinin dövlət səviyyəsində keçirilməsinə böyük əhəmiyyət verirdi. Ümummilli liderimizin sözləridir: "Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını, dünyaya nümayiş etdirirlər".

Heydər Əliyev mədəniyyətin ictimai həyatda rolunu, mahiyyətini həmişə dəyərləndirir, mədəniyyət xadimlərini, musiqiçiləri yeni yaradıcılıq axtarışlarına ruhlandırmaq üçün onların əməyini yüksək qiymətləndirirdi (2).

Heydər Əliyevin unudulmaz xidmətlərindən biri də budur ki, müdrik insan müasir musiqinin yeni janrlarının yaradılması ilə bərabər, milli musiqimizin də unudulmamasına çalışırdı. Xüsusilə də Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin əsərlərinin gənc nəsil tərəfindən öyrənilməsinə, tamaşaya qoyulmasına çox diqqət göstərirdi. Ümummilli liderin Üzeyir Hacıbəyov sənətinin ictimai əhəmiyyətini açıqlayan müdrik fikirlərindən: "Əgər nəzərə alsaq ki, əsrimizin əvvəllərində xalqımızın əksəriyyəti savadsız idi, kitab oxuya bilmirdi və kitablar da az idi, kino, televiziya və başqa vasitələr yox idi, təsəvvür edin, Ü.Hacıbəyov öz operası vasitəsilə M.Füzulinin sözlərini "Arşın mal alan", "O olmasın bu olsun" və başqa operettaları vasitəsilə istədiyi fikirləri

insanlara çatdırmaqla xalqımızın mənəvi və mədəni inkişafında nə qədər böyük xidmətlər göstəribdir”. Ulu öndər öz çıxışlarının birində belə demişdir: “Mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də, mahnının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz. Azərbaycan yüz ildən artıqdır ki, dünyaya neft verir, amma biz bununla özümüzü tanıda bilmədik. Ancaq bir nəfər, bir insan-Rəşid Behbudov öz mahnıları və musiqisi ilə Azərbaycanı bütün dünyaya tanıtdı”. Onun bir amalı vardı: “Qazanılan gəlir birinci növbədə mədəniyyətə sərf olunmalıdır. Çünki mədəniyyət hər şeydən üstündür” (4).

Heydər Əliyev xalqı dünyada tanıtmaq, milli varlığımızı geniş təbliğ etmək baxımından kinonun imkanlarını yüksək qiymətləndirirdi. O, istər ədəbiyyatda, istərsə də kino sənətində tarixi mövzulara üstünlük verirdi. Lakin o, bu fikirdə idi ki, tariximizin taleyini hər yazıçıya, hər rejissora tapşırmaq olmaz. Tarixdən yazan yazıçı həm də tədqiqatçı olmalı, tarixi dərindən bilməli, tarixdən yazmaq səlahiyyəti qazanmalıdır. Bu baxımdan o, “Nəsimi”, “Babək”, “Dədə Qorqud” filmlərini tarixə konseptual yanaşmalara görə yüksək dəyərləndirirdi. “Bizim tarixi mövzulara aid olan filmlər çox dəyərlidir. Ola bilər ki, bədii cəhətdən birinin bir, digərinin başqa çatışmazlığı var, bunlar o qədər əhəmiyyətli deyildir. Əhəmiyyətli cəhət ondan ibarətdir ki, biz tariximizi salnaməyə salmışıq, kino sənətinə salmışıq”.

Heydər Əliyevin hələ DTK-də çalışdığı dövrdə “Uzaq sahillərdə” filmi ilə bağlı gördüyü işlər bu dahi şəxsiyyətin kino sənətimizə qayğıkeş münasibətinin parlaq təzahürüdür. Kino sənətimizin tarixində özünəməxsus yer tutan “İstintaq” filmi bilavasitə Heydər Əliyevin güclü himayəsi ilə çəkilmişdir. Ulu öndər belə söyləyirdi: “İstintaq” filmi xatirimizdədir. Filmin nə cür çətinliklərlə yarandığını bilirsiniz, ona mane olanlar vardı. Mən filmin çəkilməsinə nəinki kömək, həm də himayədarlıq etdim. Çünki o, 1969-cu ildən respublikanın rəhbəri kimi, siyasi xadim kimi apardığım siyasi işin, xəttin kinoda əksi idi”.

Heydər Əliyevin mədəniyyətimizlə bağlı gördüyü işləri sayıb qurtarmaq çətindir. Qeyd etmək istərdim ki, YUNESKO-nun dünya irs siyahısına Azərbaycanın bir neçə sərvəti artıq daxil edilmişdir. Qobustan qaya rəsmləri, Azərbaycan muğamları, Azərbaycan aşıq sənəti, Azərbaycan xalçaları, “Kitabi-Dədə Qorqud” dastanları və bir neçə Azərbaycan klassikləri. Azərbaycanın mədəniyyət nümunələri, bütün dəyərli irs xəzinələri, xalqımızın milli-mənəvi sərvəti də dünyada tanınmağa başladı. Şübhəsiz ki bu faktlar

görülən işlərin hamısı deyil, bu istiqamətdə ardıcıl siyasət davam etdirilir və bunun çox böyük nəticələri olacaqdır.

Heydər Əliyevin milli mədəniyyətə, mənəvi irsə göstərdiyi hörmət, verdiyi dəyər onun toxunduğu hər bir sahədə özünü göstərmişdir. O, hətta siyasəti də böyük mədəniyyətlə aparmağın lazım olduğunu tövsiyə edirdi.

Onun təkcə müstəqillik illərində mədəniyyət sahəsilə bağlı imzaladığı fərman və sərəncamları yada salsaq, mədəniyyətmizin inkişafı və tərəqqisi tarixinə təsir göstərmiş böyük bir sənədlər toplusu yaratmış olarıq. Ulu öndər Azərbaycanın mədəniyyət siyasətinin əsas prioritetlərini özündə əks etdirən çoxsaylı qərar və qanunların müəllifidir. “Mədəniyyət haqqında qanun”un təsdiq edilməsi haqqında sərəncam, mədəniyyət aləminin müxtəlif sahələrinin fəaliyyətini tənzimləyən digər qanunların təsdiq edilməsi, eləcə də hüquqi dövlət quruculuğu prosesində mədəniyyət siyasətinə önəm verilməsi böyük əhəmiyyət kəsb edirdi. Bu sahənin daha təkmil üsullarla inkişafının sürətləndirilməsi məqsədi ilə xüsusi dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi artıq özünün uğurlu bəhrələrini verməkdədir. Burada da dövlət siyasəti olan üç prinsipi qeyd etmək istərdim. Birincisi, Azərbaycanın tarixən yaranmış mədəniyyəti mühafizə olunur. Tarixi abidələrin, çoxlu sayda muzeylərin bərpası, ölkənin qədim mənəvi mədəniyyətinin mühafizə olunması istiqamətində çox böyük işlər görülür. Eyni zamanda, biz bu mədəniyyətimizi dünyaya çatdırırıq, eləcə də dünyanın böyük mədəniyyətini mənimsəyirik. Yəni vaxtilə yaradılmış nə varsa, bu gün onlar qorunur. İkincisi odur ki, tədricən mədəniyyət və incəsənət müasir şəraitə uyğunlaşdırılır. Belə ki, mədəniyyətin, incəsənətin yaradılması prosesi, həm də onun istehlakı prosesi müasir standartlara uyğunlaşdırılır. Üçüncü prinsip ondan ibarətdir ki, ölkədə mədəniyyət və incəsənət xadimlərinə xüsusi qayğı göstərilir. Yəni, mədəniyyəti və incəsənəti yaradan ayrı-ayrı böyük istedadlardır və bu istedadlara qayğı göstərilməlidir. Bu məqsədlə, böyük sənətkarların yubileyləri qeyd olunur, onlara maddi köməklik göstərilir və digər dövlət mükafatları təqdim edilir.

Azərbaycan Respublikası mədəniyyət siyasətini intellektual, mənəvi, bədii mədəniyyətlə yanaşı, şəxsiyyət, ailə və cəmiyyət mədəniyyəti, tibb və ekologiya, məişət və ünsiyyət, siyasət və ictimai münasibətlər, insan hüquqları və mədəniyyət hüquqları, sülh mədəniyyəti, gender mədəniyyəti, demokratiya və vətəndaş cəmiyyəti mədəniyyəti, istehlak və istehsalat, mədəni münaqişələrin aradan qaldırılması mədəniyyətinin inkişafı problemlərini daima diqqət mərkəzində saxlamalıdır. Mədəniyyət siyasətinin həyata keçirilməsini təmin edən

mədəni inkişafın idarəolunması bu sahədə mövcud olan mütəxəssislərin olması və onların fəaliyyətinin nəticələrilə bağlıdır (7). Müdrik şəxsiyyət həmişə söylədiyi -“yüksək mədəniyyətə malik olan xalq həmişə inkişaf edəcək”- fikri hamının dilinin əzbəri və əməli fəaliyyətinin əsas xətti olmuşdur. Bu səbəbdən də Azərbaycan mədəniyyətinin son illərdəki tarixi inkişaf yolu məhz Heydər Əliyevin himayəsi və nəzarəti altında davam etmişdir.

Bu məsələdən bəhs edən ulu öndər belə deyirdi: “Biz öz mədəniyyətimizlə, milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik” (1). Bu gün də ümummilli liderin ideyaları yaşayır və həyata keçirilir. Bizim nəsil xoşbəxtdir ki, Heydər Əliyevlə bir dövrdə yaşamaq bizə nəsib oldu və ulu öndərin mədəniyyətimizə, incəsənətimizə göstərdiyi böyük qayğının şahidi olduq.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. “Ədəbiyyat qəzeti”, 13 avqust 2001-ci il
2. Abbasov N. Mədəniyyət siyasəti və mənəvi dəyərlər. Bakı, 2009, 444 səh.
3. Dunya azərbaycanlılarının I qurultayında “Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi” (9 noyabr 2001-ci il) // “Azərbaycan”
4. Heydər Əliyev mədəni irsimizin keşiyində. II kitab. Bakı: “Bakı”, 2001, 547s.
5. Sabaha doğru. H.Əliyev irsinin araşdırma mərkəzi, Bakı 2009, 710 s.
6. Məmmədov F.T. İdarəetmə mədəniyyəti. B., “Apostrof” 2013, 672 s.

**Açar sözlər:** Heydər Əliyev, mədəniyyət, milli-mənəvi dəyərlər, adət-ənənələr, mədəni-siyasət.

***Вугар Керимли (Азербайджан)***

**Культурная политика Гейдара Алиева**

В статье автор показывает роль Гейдара Алиева в культурной политике Азербайджана за последние 40 лет. Здесь отмечается подъем, обогащение и развитие азербайджанской культуры в годы правления общенационального лидера.

**Ключевые слова:** Гейдара Алиев, культура, национально-духовные ценности, традиции, культурная политика.

***Vugar Karimli (Azerbaijan)***

**Heydar Aliyev`s cultural policy**

In the article the author shows the role of Heydar Aliyev in the cultural policy of Azerbaijan for the last 40 years. Here is noted the ascent, the rise, the enrichment and the development of Azerbaijan culture owing to national leader in the course of the period of his leadership.

**Keywords:** Heydar Aliyev, culture, national-spiritual values, traditions, cultural policy.

*UOT 351.85*

***Рена Абдуллаева***
***доктор искусствоведения***
***(Азербайджан)***

# ИЛЬХАМ АЛИЕВ - ПРЕЕМНИК КУЛЬТУРНОЙ ПОЛИТИКИ Г.А.АЛИЕВА

В области культурной политики Президент И.Алиев является последовательным продолжателем, истинным преемником общенационального лидера Гейдара Алиева, который в своей речи на торжественной церемонии, посвященной 10-й годовщине государственной независимости Азербайджанской Республики, отмечал: «… что за короткий в историческом масштабе срок практически было построено и задействовано демократическое, правовое, светское государство. Многочисленные законы, принятые за это время, позволили обеспечить его жизнедеятельность, самостоятельность и безопасность, провести реформы во всех областях общественной жизни и получить их конкретные результаты.

Впервые за многовековую историю нашего народа, Азербайджан занял достойное место в мире, представлен во всех авторитетных международных организациях, установил тесное взаимовыгодное сотрудничество со многими государствами на всех континентах планеты» (1).

Традиция приоритетного развития культуры и искусства, всемерной государственной поддержки деятелей культуры и искусства, заложенная Гейдаром Алиевым, получила не только дальнейшее продвижение, но и качественно новое содержание в период пребывания Ильхама Алиева на высоком посту главы Азербайджанского государства. Можно сказать, что в этой сфере в нашей стране сложилась уникальная ситуация, когда два поколения верховной власти последовательно проводят единый курс системного преобразования и модернизации всех институтов культуры. Вместе с тем, культурную политику и общенационального лидера, и Президента И.Алиева отличает неразрывная связь с вековыми традициями азербайджанского народа, опора на духовные и эстетические ценности азербайджанской нации. Прямая эстафета культурной политики Гейдара Алиева и Ильхама Алиева наполнена удивительным созвучием, многими неслучайными, знаковыми событиями, закономерными совпадениями.

Уважение к государственным символам Азербайджанской Республики – флагу, гербу и гимну – было заложено в годы правления Гейдара Алиева. Сегодня это отношение к символам государственности поднято на новую высоту. Указом Президента И.Алиева учрежден день Государственного Флага – 9 ноября, создан Музей Государственного Флага. В столице появился уникальный объект городской среды: над зданием музея возвышается флагшток с развевающимся трехцветным полотнищем, не имеющим по своим размерам аналогов в мире.

Современная градостроительная структура Баку начала складываться на рубеже 1960-1970-х годов, когда общенациональный лидер Гейдар Алиев в первый раз возглавил Республику. Тогда сформировались основные архитектурные ансамбли столицы, выросли многочисленные жилые массивы, были заложены сады и парки, интенсивное развитие получила транспортная инфраструктура города. Несмотря на то, что, когда в 1993 году Гейдар Алиев вновь возглавил страну, Азербайджан находился в экономическом кризисе, процесс обновления облика столицы и других городов Азербайджана продолжился. В результате заключения в 1994 году нефтяного контракта века и стабилизации экономики в Азербайджане возник настоящий строительный бум.

После вступления Ильхама Алиева в должность президента страны в развитии архитектуры и градостроительства Азербайджана начинается качественно новый этап. Облик Баку и многих других городов нашей страны неузнаваемо преобразился. В панораму столицы органично вписались ультрасовременные здания, и по внешнему виду, и по внутреннему оборудованию отвечающие новейшим тенденциям мирового архитектурного дизайна. Это выполненные из стекла и металлоконструкций гостиничные, выставочные, офисные сооружения, расставившие неожиданные акценты в силуэте города.

Одна из характерных примет сверхнового образа столицы – три башни огня, виднеющиеся с разных точек города, реставрация и реконструкция жилых и общественных зданий, общественных пространств центра Баку. С большим воодушевлением бакинцы встретили реконструкцию самого сердца города – площади Фонтанов – излюбленного места прогулок жителей столицы. За последние несколько лет полностью преобразился Приморский бульвар, которому присвоен статус национального парка: здесь созданы все условия для отдыха и развлечения горожан.

Эта эстетическая береговая доминанта нашего города действительно излюбленное и красивейшее место отдыха бакинцев и гостей столицы.

Распоряжение Президента Ильхама Алиева от 18 августа 2006 года «О реставрации и охране историко-архитектурных памятников в столице Азербайджанской Республики городе Баку» создало коренной перелом в этой области. Особое внимание было уделено сохранению их оригинального вида.

Шесть лет назад 2 апреля 2007 года Президент подписывает распоряжение «О памятниках монументальной скульптуры, мемориальных и архитектурных комплексах в Азербайджанской Республике». Президент Ильхам Алиев выступил инициатором создания скульптурных памятников целому ряду деятелей искусства и культуры и лично присутствовал на открытии многих из них. Это относится к памятнику выдающемуся поэту Мирзе Алекперу Сабиру, установленному недалеко от города Шемаха, памятнику певцу и композитору Муслиму Магомаеву на его могиле в Аллее почетного захоронения, выдающемуся композитору Фикрету Амирову на одноименной улице в Баку, гениальному певцу Бюль-Бюлю на одноименном проспекте. Вместе с президентом Австрии Хайнцем Фишером И.Алиев принял участие в открытии памятника гениальному композитору Моцарту, а с Президентом Сербии – великому сербскому учёному Николе Тесле в Баку.

Летом 2011 года Президент И.Алиев побывал в Наримановском районе Баку, где был заложен историко-этнографический комплекс «Мир Деде Горгуда» и будет установлен памятник этому герою национального эпоса. По распоряжению Президент был установлен в Баку памятник народному герою Кероглу.

20 марта 2009 года в Баку был открыт Музей современного искусства, ставший визитной картой азербайджанского авангардного искусства и дизайна. В музее собраны свыше 800 работ азербайджанских художников и скульпторов, в основном работающих в модернистском стиле. В музее выставляются работы таких мастеров как Саттар Бахлулзаде, Беюкага Мирзазаде, Эльмира Шахтахтинская, Таир Салахов, Омар Эльдаров, Надир Абдурахманов. Автором дизайна музея является известный художник Алтай Садыхзаде. На церемонии открытия присутствовал президент Азербайджана Ильхам Алиев, первая леди Азербайджана Посол Доброй Воли ЮНЕСКО Мехрибан Алиева и генеральный директор ЮНЕСКО Коиширо Мацуура.

Согласно распоряжению Президента Ильхама Алиева, изданному несколько лет назад, помимо музея современного искусства, в столице страны должны появиться музей Независимости и музей Нефти. Все мы ждем открытия нового музея ковра и декоративно-прикладного искусства.

Необходимо особо подчеркнуть огромную роль в претворении в жизнь глобальных гуманитарных проектов главы Азербайджанской Республики И.Г.Алиева деятельность Президента Фонда Гейдара Алиева, Посла Доброй Воли ЮНЕСКО и ИСЕСКО, депутата Милли Меджлиса, Первой леди страны Мехрибан ханум Алиевой. В формате деятельности Фонда Гейдара Алиева всемерно поддерживается и всемирно популяризируется музыкальное искусства Азербайджана и его жемчужина – мугам, а также азербайджанский ковер, вошедшие в список нематериального наследия ЮНЕСКО.

При активном участии Первой леди страны на постоянной основе во многих странах Европы и мира проводятся выставки азербайджанского искусства, претворены в жизнь ряд культурных проектов, в результате которых огромное количество людей реально узнали, а возможно и полюбили наше великое культурное наследие, классическое и современное музыкальное, декоративно-прикладное и изобразительное искусство. Буквально сейчас проходит выставка «Культурные ценности Азербайджана – жемчужины Кавказа», представляющая все грани национального художественного наследия и современности в крупных городах Франции.

Президент Ильхам Алиев постановил реорганизовать деятельность музеев сообразно с «мировыми стандартами на основе современных принципов музейного дела» и привести экспозиции «в соответствие с идеологией азербайджанства».

Кроме музейных зданий, в последние годы развернулись масштабные работы по реконструкции концертных залов и театров. Полностью преобразован облик главного концертного зала страны – дворца имени Гейдара Алиева. Реконструированы здания Азербайджанского Государственного драматического театра, Театра оперы и балета, Театра юного зрителя, Театра музыкальной комедии. Созданы и новые концертные и театральные сооружения – театр «Унс», Мугамный центр. Особо хочется отметить центр Гейдара Алиева, автором которого является всемирно известный дизайнер Захи Хадид.

Деятельность Президента в сфере культуры настолько обширна и многогранна, что в 2008 году по инициативе Министерства культуры и туризма Азербайджана вышел в свет двухтомник «Президент Ильхам Алиев и культура». В последние годы Баку становится центром не только национальной культуры. В Азербайджане по инициативе и при личном участии И.Алиева проводятся многочисленные мероприятия не только регионального, но и международного масштаба. Среди них Международный фестиваль «Мир мугама» (2009, 2011, 2012), «Бакинский гуманитарный форум: надежды и вызовы» (2011, 2012), Международный форум по межкультурному диалогу (2011, 2012) и многие другие. Все мы были свидетелями грандиозного праздника песни – «Евровидение – 2012», прошедший в Баку.

Авторитет Президента и страны вырос настолько, что в 2009 году Баку становится столицей исламской культуры. В своём выступлении на церемонии открытия года «Баку - столица исламской культуры - 2009» Президент Азербайджана Ильхам Алиев отметил, что подобные культурные инициативы играют значительную роль в объединении исламских стран и решении глобальных проблем. «Я благодарен ИСЕСКО и Организации исламской конференции, сыгравшим значительную роль в том, что Баку стал столицей исламской культуры. Для Азербайджана это очень важное мероприятие. Я бы сказал, это гордость для Баку» (2). Ильхам Алиев также отметил, что Азербайджан – это страна, которая имеет свою определенную культурную среду, доказательством чему являются азербайджанские исторические памятники и достопримечательности, искусство и литература. В своем выступлении президент страны коснулся и проблемы вокруг Нагорного Карабаха и планомерного разрушения «армянскими вандалами» азербайджанских исторических и архитектурных памятников на оккупированных сепаратистами территориях.

Объявление Баку столицей исламской культуры стало очень значительным событием для Азербайджана. Об этом говорит цикл прошедших мероприятий – открытие международного фестиваля молодых архитекторов «Традиционное исламское зодчество», празднование Новруза, детские конкурсы и фестивали, Дни культуры Кыргызстана, Исламской Республики Иран, Королевства Марокко и многих других мусульманских стран.

Бесценна роль Президента нашей страны в деле сохранения, упрочения и пропаганды азербайджанской культуры. Выступая на многочисленных форумах, встречах на высшем уровне, он всегда информирует аудиторию об истории и современных достижениях культуры Азербайджана. По его инициативе наше культурное наследие представлено практически во всех международных институтах, оно прочно интегрировалось в современное мировое информационное пространство.

**ЛИТЕРАТУРА**

1. Г.А.Алиев. Речь Президента Азербайджана. Dirçəliş XXI əsr. 2001-ci il, oktyabr, № 44, s. 203-204.
2. И.Г.Алиев. Речь на церемонии открытия года «Баку – столица исламской культуры – 2009».

**Ключевые слова:** культурная политика, Фонд Гейдара Алиева, гуманитарные проекты, искусство, художественное наследие.

***Rəna Abdullayeva (Azərbaycan)***

**İlham Əliyev Heydər Əliyevin mədəni siyasətinin varisidir**

Məqalədə Prezident İ.Əliyevin, ümummillilider H.Əliyevin əsaslarını qoyduğu mədəni siyasət sahəsində fəaliyyəti göstərilmişdir. Ardıcıl surətdə aparılan sistemli dəyişikliklərin vahid kursu və bütün mədəniyyət institutlarının təkmilləşdirilməsi sayəsində Azərbaycan bütün nüfuzlu beynəlxalq təşkilatlarda təmsil olunmuşdur. Memarlıq və musiqi, təsviri sənət və landşaft dizaynı, abidələrin mühafizəsi və yeni muzeylərin tikilməsi – Prezident İlham Əliyevin fəaliyyətinin qlobal humanitar layihələrdə natamam siyahısı budur.

**Açar sözlər:** mədəni siyasət, Heydər Əliyev Fondu, humanitar layihələr, incəsənət, bədii irs.

***Rena Abdullayeva (Azerbaijan)***

**İlham Aliyev is successor of Heydar Aliyev's cultural policy**

In the article there is shown President İ.Aliyev's activity in the sphere of cultural policy, bases of which were grounded by the national leader H.Aliyev.

Azerbaijan is presented in all authoritative international organizations owing to successive general course of systematic transformations and modernization of all institutes of culture. Architecture and music, fine arts and landscape design, preservation of monuments and building of new museums is incomplete list of activity of Azerbaijan President İlham Aliyev in global humanitarian projects.

**Keywords:** cultural policy, Heydar Aliyev Foundation, humanitarian projects, art, artistic heritage.

*UOT 7.067:316.37*

***Rəna Məmmədova***
***AMEA müxbir üzvü, sənətşünaslıq doktoru, professor***
***(Azərbaycan)***

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN İNCƏSƏNƏTİNİN İNKİŞAFINDA ROLU

Müasir Azərbaycan incəsənətinin qazandığı ən böyük nailiyyətləri nəhəng tarixi şəxsiyyət, böyük sərkərdə, dünya şöhrətli siyasi xadim, vətəndaş, ümummilli lider Heydər Əliyevin titanik əməyi nəticəsində əldə olunmuşdur. Bütün mənalı ömrünü Azərbaycanın inkişafına, dövlətçiliyin möhkəmlənməsinə, müstəqilliyimizin qorunmasına, xalqının əminamanlığına həsr edən bu dahi insan Azərbaycan incəsənətinin çiçəklənməsi üçün də daim fəaliyyət göstərmişdir.

Məlumdur ki, incəsənət ölkə üçün çox vacib olan bir sahədir. Müstəqilliyimizin ilk illərindən ölkəçmizin ciddi iqtisadi çətinliklərlə üzləşməsinə baxmayaraq, Azərbaycan dövləti və onun Prezidenti ulu öndər Heydər Əliyev bu sahəyə xüsusi diqqət göstərilməsini birinci dərəcəli vəzifə kimi qarşısına qoymuşdur. Məhz onun uzaqgörən siyasəti nəticəsində bütün çətinliklər tez bir zamanda aradan qaldırılmış, bütün sahələrdə olduğu kimi, incəsənətdə də nəzərəçarpacaq dərəcədə irəliləyişlər baş vermişdir.

Bu gün tam əminliklə demək olar ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrü incəsənətimizin tarixində yeni «intibah dövrü» adlandırmaq olar. Məhz ensiklopedik biliyə, dərin erudisiyaya malik bir şəxsiyyətin Azərbaycan mədəni irsinə və incəsənətinə dərin hörmət və qayğı ilə yaşaması onun böyük ziyalılığından irəli gəlirdi.

Sözün əsl mənasında Heydər Əliyev Azərbaycan incəsənətinin hamisi olmuşdur. Ulu öndərin teatr sənətinə, təsviri incəsənətə, musiqiyə, kinomotoqrafa olan hədsiz dərəcədə marağı onun Azərbaycana rəhbərlik etdiyi otuz ildən artıq bir dövr ərzində daim müşahidə olunmuşdur. Ümummilli liderin incəsənətə və sənətkara olan atalıq qayğısı və dəstəyi Azərbaycan incəsənətinin yeni-yeni uğurlarını təmin etmiş və sənət adamlarını daha yüksək nailiyyət qazanmasına ruhlandırmışdır. «Xalqımızın incəsənət, mədəniyyət sahəsində nailiyyətləri vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Mən bununla daim fəxr edirəm» - deyən Heydər Əliyev, həqiqətən Azərbaycan incəsənətinin hər bir uğuruna, dünya arenasında öz la-

yiqli yerini tutmasına ürəkdən sevinmiş və bu işdə yaxından iştirak etməyi ən ümdə vəzifə saymışdır.

Diqqətəlayiq haldır ki, incəsənət sahəsində yaranan bütün problemlərin tezliklə həllinə çalışan ümummilli lider hər zaman dövlətçilik və azərbaycançılıq mövqeyini öndə tutmuşdur. «Azərbaycançılıq – Azərbaycanı yüksəltmək, dünyada tanıtmaq və onun əbədiliyini qorumaqdır ki, Heydər Əliyev bütün ömrünü bu müqəddəs və ali məqsədə həsr etmişdir».[1]

Həqiqətən, ulu öndərin milli teatr, kino, musiqi, təsviri sənətin tarixinə və inkişafına dair nəzəri fikirlərinin əsasında azərbaycançılıq konsepsiyası dururdu. Bu konsepsiyada tarixilik və müasirliyin vəhdəti başlıca şərt kimi özünü göstərirdi. Ona görə də bütün sənət sahələrinə dahi rəhbər tarixilik və müasirlik aspektindən yanaşırdı ki, bu da onun incəsənət nəzəriyyəsinin əsas mahiyyətini təşkil edirdi. Bu nəzəriyyənin özülündə isə milli ənənələrin, mənəvi dəyərlərin qorunub saxlanılması başlıca şərt idi.

Onun məhz bu konsepsiyadan çıxış etməsi nəticəsində Azərbaycan incəsənətinin bütün sahələri dünya incəsənətinə inteqrasiya edərək tanınmış və əbədi olaraq həyat vəsiqəsi qazanmışdır. Bu baxımdan ümummilli lider Heydər Əliyevin incəsənətə dair nəzəri irsi bu gün də çox qiymətli və dəyərlidir. Belə ki, onun incəsənət sahəsindəki nəzəri ideyaları ümumdövlət işinin ayrılmaz tərkib hissəsi kimi konseptual əhəmiyyət kəsb edir.

Heydər Əliyevin incəsənətə qayğısı və himayədarlığı təkcə verdiyi dövlət sərəncamları və qərarları ilə məhdudlaşmamışdır. Ulu öndər özü bilavasitə teatr, kino və konsert salonlarında, müxtəlif sərgilərdə, yaradıcılıq tədbirlərində fəal iştirak etməklə sənət adamlarının gündəlik probleləri, onları narahat edən məsələlərlə yaxından tanış olurdu. Hər bir problemin daxilinə varmaq, onu dərindən öyrənmək və sonra da həll etmək bacarığı dahi şəxsiyyət Heydər Əliyevi səciyyələndirən parlaq xüsusiyyət idi. Bu Dahi insanın sənətkarlara olan qayğısı onların yubileylərinin keçirilməsində, bütün ehtiyaclarının ödənilməsində, əsərlərinin nümayiş etdirilməsində özünü aydın göstərirdi. Onu da qeyd edək ki, kamil yaradıcılıq zirvəsinə çatmış sənətkarlarla yanaşı, sənətə yeni addımlarını atan gənc istedadların da ulu öndərin diqqət mərkəzində olması «Azərbaycanda gənc istedadlara dövlət qayğısı» fərmanının imzalanması və «Gənc istedadlar fondu»nun yaradılması ilə yadda qalmışdır.

Müstəqilliyimizin ilk illərindən incəsənət xadimlərinin əməyini yüksək dəyərləndirən ümummilli liderin Prezident təqaüdünü təsis etməsini yüz-

1 - Şəmsizadə N. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. B., 2009, s.244.

lərlə sənət adamına göstərilən qayğı və dəstəyin ən yüksək həddi kimi qiymətləndirmək olar. Bundan əlavə, görkəmli incəsənət xadimlərinin məhz ulu öndərin təsis etdiyi «Şöhrət» ordeni ilə təltif olunması, müxtəlif fəxri adlara layiq görülməsi sənət adamlarına olan qayğıkeş münasibəti daha qabarıq nümayiş etdirirdi.

Belə bir münasibətin vacibliyini ümummilli lider bir neçə faktorla izah edirdi, bir tərəfdən, Azərbaycanın dəyərli incəsənət xadimlərinin – istər aktyor, rejissor, rəssam, istərsə də heykəltaraş, musiqiçi, ifaçı olsun, fərq etməz, hər bir istedad sahibinin dövlət, xalq qarşısında xidmətlərini yüksək qiymətləndirmək, digər tərəfdən, onların yaradıcılığının gələcək nəsil üçün örnək, nümunə kimi mövcudluğunu göstərmək, yetişən gəncliyin tərbiyəsində rolunu nümayiş etdirmək məqsədi güdürdü. Ulu öndər incəsənət xadimlərinin zəngin irsinin qorunmasında, təbliğində, gələcək nəslə çatdırılmasında və öyrənilməsində onların ev muzeylərinin yaradılmasının böyük rol oynamasına da xüsusi önəm verirdi. Məhz onun səyi və təşəbbüsü ilə görkəmli sənət adamlarının xatirəsini əbədiləşdirmək məqsədilə neçə-neçə ev-muzeylər açılmış, onların adlarının mədəniyyət ocaqlarına, küçə və məktəblərə verilməsi həyata keçirilmişdir.

Bu məqsədlə baş verən tədbirlərdən ən çox yadda qalanı dahi bəstəkar Ü.Hacıbəylinin 110 illik illiyinə həsr edilən yığıncaqda Ulu öndərin çıxışı olmuşdur. Çıxışında Heydər Əliyev Ü.Hacıbəylinin yaradıcılığını yüksək qiymətləndirmiş və bəstəkarın bütün əsərlərinin mədəniyyətimizin inkişaf etməsinə xidmət etdiyini göstərmişdir. Bu xidmətlərin unudulmaz və əvəzsiz olduğunu xüsusi olaraq vurğulayan ulu öndər Ü.Hacıbəylinin doğum günü tarixini hər il milli musiqi günü kimi bayram edilməsi təklifini irəli sürmüşdür. Bununla bağlı H.Əliyevin maraqlı bir fakta fikir verməsi diqqəti cəlb edir. O göstərir ki: «XX əsrin əvvəllərində Azərbaycan milli musiqisinin dünya pofessional musiqi sənəti ilə qovuşması yoluna misilsiz xidmət göstərmiş dahi Azərbaycan bəstəkarının nə dərəcədə uzaqgörən, onun sənət aləmində seçdiyi yolun nə dərəcədə doğru olduğunun əsrin sonunda bir daha şahidi oluruq. Bu, Üzeyir dühasının təntənəsidir. Bu günlərdə biz müstəqil Azərbaycan Respublikasının öz neft sərvətlərindən səmərəli istifadə edilməsi yolunda müstəsna əhəmiyyəti olan «əsrin müqaviləsi»nin imzalanmasının beşinci ildönümünü də təntənəli surətdə qeyd edirik. Bu iki hadisənin bir-birilə rəmzi bağlılığı vardır. Azərbaycanda XX əsrin əvvəllərində neft sənayesinin sürətlə inkişaf etməsi bütün sahələrdə olduğu kimi, musiqi mədəniyyəti sahəsində

də böyük irəliləyişə səbəb olmuşdur. Əslində ilk nəzərdə bir-birilə əlaqəsi olmayan «neft» və «Musiqi» məfhumlarının belə qarşılıqlı təsiri ölkəmizin iqtisadi, elmi və mədəni inkişafında böyük rol oynamışdır». Həqiqətən, 1999-cu ildə məhz Heydər Əliyevin xeyir-duası ilə Bakıda keçirilən «Musiqinin böyük İpək yolu» başlıqlı I klassik musiqi Festivalının «Üzeyir günlərinə» təsadüf etməsi də bir ənənə halını alaraq Azərbaycan mədəniyyətini əlamətdar hadisələrlə zənginləşdirmişdir.

Gərgin və ciddi iş rejiminə baxmayaraq, ulu öndər ölkənin mədəni həyatında daima fəal iştirak etmiş və bu işdən həm özü zövq almış, həm də incəsənət xadimlərini ruhlandırmışdır.

Ən maraqlısı isə ondan ibarətdir ki, Heydər Əliyev bütün bu tədbirlərdə fenomenal biliyə malik bir sənətşünas alim kimi çıxış etmiş və hər bir incəsənət əsəri haqqında qiymətli fikirlərini, düşüncələrini bildirmişdir. Bu mənada Ulu öndər görkəmli ictimai xadim, böyük siyasətçi olmaqla yanaşı, həm də incəsənəti dərindən duyan və bilən bir şəxsiyyət kimi tarixə düşmüşdür. Onun bütün çıxışlarında incəsənətimizin gələcəyini müəyyənləşdirən, proqram xarakterli göstərişləri təkcə sənət adamlarının yaradıcılığı üçün deyil, həm də sənətşünaslıq üzrə elmi istiqamətlərin müəyyənləşdirilməsində bir stimula çevrilmişdir.

Məhz Heydər Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan incəsənəti bu gün dünya miqyasında layiqincə təmsil olunur. Azərbaycan incəsənətinin müxtəlif xarici ölkələrdə tanınması məqsədilə mədəniyyət günlərinin keçirilməsi onun daima diqqət mərkəzində durmuşdur. Dünyanın bir çox ölkələrində Azərbaycan mədəniyyəti və incəsənəti günlərinin keçirilməsi artıq bir ənənəyə çevrilmişdir. Həmçinin, respublikada müxtəlif beynəlxalq festivalların, müsabiqələrin keçirilməsi Azərbaycanın böyük nüfuza malik olmasından xəbər verir. Belə tədbirlərə mühüm siyasi əhəmiyyət verən ulu öndər ölkələr arasında dostluq və əməkdaşlığın daha da möhkəmlənməsində incəsənətin mühüm rolunu xüsusilə vurğulayırdı. «İncəsənət bizi yaxınlaşdırır, incəsənət bizi birləşdirir, incəsənət bizi dostlaşdırır» - deyən Heydər Əliyev bu tezisi öz mədəniyyət siyasətinin əsas prinsipi kimi ardıcıl surətdə həyata keçirirdi.

Bu siyasətin bariz nümunəsi dünya şöhrətli sənətkar həmyerlimiz M.Rostropoviçin ölkəmizə cəlb olunması idi. Belə məşhur musiqiçinin öz doğma vətəninə - Bakıya gəlməsi respublikanın mədəni həyatında əlamətdar hadisəyə çevrildi. Görkəmli musiqiçinin 1997-ci ildə 70 illik yubileyinin Bakıda təntənəli surətdə qeyd olunması bütün dünyanın diqqətini özünə cəlb etdi.

Məhz dahi dövlət başçısı Heydər Əliyevin şəxsi dəvəti və təşəbbüsü ilə baş verən bu hadisə Azərbaycan musiqi tarixinə qızıl hərflərlə həkk olunmuşdur. Maestronun Bakıya ənənəvi səfərləri, onun masterklasları, konsertləri, yəni sırf musiqi fəaliyyəti ilə yanaşı, həm də xeyriyyəçiliyi, azadlığın və demokratiyanın müdafiəçisi kimi çıxışları Heydər Əliyev tərəfindən yüksək dəyərləndirilmiş və o, Azərbaycanın yüksək dövlət mükafatı olan «Şöhrət» ordeni ilə təltif edilmişdir. Artıq hər il Azərbaycanda keçirilən Rostropoviç festivalları mədəniyyətimizdə silinməz izlər buraxmış və zəmanəmizin böyük musiqiçisinin xatirəsini əbədiləşdirmişdir.

Heydər Əliyevin Azərbaycan incəsənətinin dünyaya inteqrasiyası istiqamətində apardığı dövlət fəaliyyətinin prioritetlərindən biri türk dünyası ilə əlaqələrin daha da dərinləşməsi və güclənməsində idi. Həqiqətən, müasir dövrdə Azərbaycan və Türkiyə Respublikası, eləcə də digər türkdilli dövlətlər arasında getdikcə möhkəmlənən və genişlənən mədəni, iqtisadi, elmi əlaqələrin əsasında Ulu öndərin böyük əməyi durur. Bununla bağlı Heydər Əliyevin sözləri yada düşür: «Türkiyə və Azərbaycan arasında əlaqələr qədim və zəngin tarixə malikdir, bu əlaqələr – dostluq, qardaşlıq əlaqələridir. Onların mənbəyi - bizim birgə tarixi kökümüz, bizim vahid kökə mənsub olmağımız, vahid dilimiz, dinimiz, ənənəmizdir». Ona görə də Ulu öndər dəfələrlə öz çıxışlarında «Azərbaycan və Türkiyənin - bir millət, iki dövlət» olduğunu iftixarla söyləmişdir. Məhz dahi rəhbərin belə bir siyasi mövqeyi Azərbaycan və Türkiyə, eləcə də digər türkdilli dövlətlər arasında qarşılıqlı əlaqələrin yarasında böyük rol oynamışdır. Bu əlaqələr təkcə incəsənət günlərinin keçirilməsi və ya incəsənət ustalarının çıxışları ilə nəticələnmir, həmçinin, elmdə, o cümlədən, Azərbaycan sənətşünaslığında bir sıra maraqlı və vacib sahələrin meydana çıxmasını şərtləndirir. Bunlardan biri, Azərbaycan musiqişünaslığında yeni istiqamət olan «musiqi türkologiyası»nı göstərmək istərdim. AMEA-nın İncəsənət və Memarlıq institutunun «İncəsənətin qarşılıqlı əlaqələri» şöbəsində işlənilən bu istiqamətin əsas məqsədi milli musiqi mədəniyyətinin türk mənbələrinin öyrənilməsindən ibarətdir.

Məlumdur ki, müasir mərhələdə Azərbaycan sənətşünaslığının ən aktual məsələlərindən biri milli mədəniyyətin soy köklərinin öyrənilməsi problemidir. Bu baxımdan ümumtürk köklərin dərindən araşdırılması Azərbaycan mədəniyyətinin və incəsənətinin milli özünəməxsusluğunun aşkarlanması yolunda da böyük əhəmiyyət kəsb edir. Bütün bu araşdırmalar müqayisəli sənətşünaslıq aspektindən aparılır. Belə ki, məhz muqayisəli təhlil əsasında

Azərbaycan incəsənətinin həm milli özünəməxsusluğunun, həm də universal xüsusiyyətlərinin aşkarlanmasına imkan yaranır. Ümumiyyətlə, sənətşünaslıqda etnoloji tədqiqatların genişləndirilməsi bütövlükdə azərbaycanşünaslığın aktual problemləri ilə çıx bağlıdır. Şübhəsiz, elmdə bu problemlərin tədqiqinə Heydər Əliyevin fəaliyyətindəki əsas konseptual istiqamətlər xüsusi təkan vermişdir.

Ümummilli liderin ölməz ideyaları bu gün də incəsənətimizin inkişafına xidmət edir, incəsənətimizin hər bir sahəsində onun dərin zəkası öz bəhrəsini göstərir. Azərbaycana Prezident seçildiyi 2003-cü ildən bu günədək cənab İlham Əliyev Ulu öndərin yolunu, bütün sahələrdə olduğu kimi, incəsənət sahəsində də ardıcıl surətdə davam etdirərək öz əhdinə sadiqliyini nümayiş etdirir. Bunu Prezident tərəfindən düşünülmüş proqramların qəbul edilməsi və onların uğurla həyata keçirilməsi də təsdiqləyir.

Prezident İlham Əliyevin sərəncamı ilə «Azərbaycan teatrı 2009-2019-cu illərdə» Dövlət Proqramının təsdiqi nəticəsində Respublikada bir sıra tədbirlərin planı hazırlanmış, onun icrası ilə bağlı mühüm işlər həyata keçirilmişdir. Ən öncə teatr binalarının əsaslı təmiri və yenidən qurulması üzrə planların həyata keçirilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi mühüm layihələrdən biri kimi xüsusi əhəmiyyət kəsb edir. Qəbul olunan Dövlət Proqramı çərçivəsində 2010-cu ildə Milli teatr festivalının, Beynəlxalq Teatr Konfransının keçirilməsi də Prezidentin göstəriş və sərəncamları əsasında reallaşan tədbirlər sırasındadır.

Teatrlarla yanaşı muzeylərin də yenidən qurulması, bərpası, genişləndirilməsi, memorial komplekslərin, memorial muzeylərin təşkil edilməsi Dövlət proqramına daxil olan layihələrdəndir. Prezidentin «Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında» 2007-ci il Sərəncamı, 2009-cu ildə «Azərbaycan regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı» haqqında Sərəncamına uyğun olaraq əhəmiyyətli işlər görülmüşdür. Bütün bunlar maddi mədəniyyət abidələrinin dünya standartlarına cavab verən səviyyədə nümayiş etdirilməsinə şərait yaradan amillərdəndir.

Prezident İlham Əliyevin 2008-ci ildə təsdiq etdiyi «Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı» haqqında sərəncamından sonra isə uzun zaman durğunluq dövrü yaşayan milli kinonun bütün sahələri üzrə fəaliyyətin fəallaşması müşahidə olunmuş, bu sahədə sanki bir canlanma yaranmışdır. Kino istehsalı üzrə dövlət studiyaları və müstəqil

prodüser mərkəzlərində filmlərin çəkilişi genişlənmişdir. Bu fəallığın nəticəsi kimi ənənəvi xarakter qazanmış «Şərq-Qərb» Bakı Beynəlxalq kinofestivalının keçirilməsi mümkün olmuşdur.

Bu gün Azərbaycan dünyanın iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkələrindən biridir. Mədəniyyət və incəsənətin inkişafı, şübhəsiz ki, ölkə üçün prioritetdir. Ölkənin gələcəyini təmin edəcək amil təbii resurslar deyil, məhz mədəniyyət, incəsənət, elm və təhsildir. Bu sahədə çalışan yaradıcı sənətkarların fəaliyyəti də daima Prezidentin diqqət mərkəzindədir. Bununla bağlı mütəmadi olaraq yaradıcılıq gecələrinin, tədbirlərin, konfransların keçirilməsi, musiqi, teatr, kino, rəngkarlıq sahəsində görkəmli sənət adamlarının yaradıcılığının və əsərlərinin təbliği istiqamətində mühüm işlərin yerinə yetirilməsi Cənab Prezident İlham Əliyevin Ulu öndərin ənənəsinə sadiqliyini və onun yolunu uğurla davam etdirməsini bir daha göstərir.

Azərbaycan incəsənəti dünya sivilizasiyasına durmadan inteqrasiya edir. Bunu ölkədə keçirilən müxtəlif beynəlxalq festivalların keçirilməsi əyani sübut edir. Təkcə musiqi sahəsində keçirilən belə tədbirlərdən böyük əks-sədaya səbəb olmuş Qəbələ Beynəlxaln Musiqi Festivalını, Bakı Caz Festivalını, Vokalçıların Bülbül adına Beynəlxalq müsabiqəsini, Beynəlxalq Muğam Festivalını, hər il sentyabrın 18-də Ü.Hacıbəylinin doğum günü ilə əlaqədar Musiqi günü kimi qeyd olunan və artıq ənənəyə çevrilmiş bayrama təsadüf edən Beynəlxalq Musiqi Festivalını, Mstislav Rostropoviç Festivalını və s. göstərsək kifayət edər. Xüsusi olaraq, sonuncu öz əhəmiyyətinə görə maraqlı mədəniyyət layihələrindən biri kimi diqqətəlayiqdir. Bu festivallar proqramlarının rəngarəngliyinə, müxtəlifliyinə, həm də nüfuzlu xarici ifaçıların iştirakına görə böyük rezonansa səbəb olmuşdur. 2012-ci ildə Bakıda keçirilən Avroviziya mahnı müsabiqəsinin uğurları isə Azərbaycanı dünyaya bir daha yüksək səviyyədə təqdim etdi, məhz Heydər Əliyevin apardığı düzgün siyasət nəticəsində onun qısa bir vaxt ərzində qazandığı nailiyyətlərini göstərdi.

Azərbaycan incəsənətinin bu günkü uğurlarından danışdıqda bu işdə böyük rolu olan Heydər Əliyev Fondunun fəaliyyətini mütləq vurğulamaq lazımdır. Belə ki, Azərbaycanın mədəni həyatında baş verən bir çox layihələrin yerinə yetirilməsində bu fondun müstəsna rolu diqqətəlayiqdir.

Son zamanlar Azərbaycan xalqının qeyri-maddi irsinin qorunması istiqamətində Azərbaycan Prezidenti İlham Əliyevin və Respublikanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoş məramlı səfiri, Millət vəkili Mehriban xanım Əliyevanın ardıcıl fəaliyyəti

sayəsində titanik işlər görülür. Bütün bu işlər Azərbaycan milli mədəniyyətinin və incəsənətinin dünyada tanıdılmasına, inteqrasiyasına, milli irsimizin, dəyər və sərvətlərimizin qorunub saxlanılmasına, inkişaf etdirilməsinə və gələcək nəsillərə çatdırılmasına yönəldilmişdir.

Ümumiyyətlə, milli irsin mühafizəsi problemi XXI əsrin əsas leytmotivinə çevrilmişdir. Belə ki, dünyada qloballaşma proseslərinin genişləndiyi bir zamanda milli mədəni irsin qorunması məsələsi əon dərəcə aktuallaşmışdır. Xüsusilə də, Azərbaycanın dünya mədəni birliyinə fəal inteqrasiya etdiyi bir dövrdə milli ənənələrin qorunması milli identifikasiya probleminin həllində mühüm addımdır. Məhz Heydər Əliyev Fondunun və Mehriban xanım Əliyevanın səyləri nəticəsində Azərbaycan muğamı, aşıq sənəti Azərbaycanın milli qeyri-maddi irsi kimi identifikasiya edilmişdir. Onun mədəni siyasəti nəticəsində incəsənətimiz artıq dünya mədəniyyətinin sərvətinə çevrilmişdir. Heydər Əliyev Fondunun xətti ilə dünyanın müxtəlif ölkələrində konfranslar, simpoziumlar keçirilir. 2009-cu ildən başlayaraq Bakıda hər iki ildən bir «Muğam aləmi» Beynəlxalq muğam Festivalının və bu çərçivədə Beynəlxalq simpoziumların keçirilməsi də Heydər Əliyev Fondunun dəstəyi ilə mümkün olmuşdur. Bu gün bütün dünya bizim muğamları dinləyir, bizim bəstəkarları, rəssamları tanıyır, bizim xalçalardan zövq alır. Heydər Əliyev Fondunun mədəniyyət prioritetləri təkcə bununla məhdudlaşmır. Fondun işində maarifçilik Azərbaycan mədəniyyətinin inkişafında tarixi prioritet kimi də əhəmiyyətlidir. Bundan əlavə, müxtəlif xeyriyyəçilik formaları vasitəsilə ifaçılıq mədəniyyətinin inkişafında da Fondun rolu əvəzsizdir. Azərbaycan incəsənətinin və mədəniyyətinin inkişafında mədəni dialoqun formalaşması, mədəniyyətlərin qarşılıqlı əlaqəsinin təmin edilməsi Heydər Əliyev Fondunun fəaliyyəti qarşısında duran vacib məsələlərdəndir. Şübhəsiz ki, bütün bunlara nail olmaq üçün Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsləri və Fondun fəaliyyəti xüsusi olaraq dəyərləndirilməlidir.

İnamla deyə bilərik ki, bu gün Azərbaycan incəsənətinin və mədəniyyətinin inkişafı yolunda əldə etdiyi nailiyyətlər ümummilli lider Heydər Əliyevin başladığı yolun uğurlu davamının nəticəsidir. Əminik ki, bu yol düzgün, mütərəqqi və proqresə aparacaq istiqamətdədir.

**Açar sözlər:** incəsənət, mədəniyyət, tarix, H.Əliyev, inkişaf.

*Рена Мамедова (Азербайджан)*

**Роль общенационального лидера Гейдара Алиева в развитии азербайджанского искусства**

В данной статье показана роль и значение общенационального лидера азербайджанского народа Г.А.Алиева. Подчеркивается титаническая многосторонняя деятельность Г.Алиева в развитии и расцвете азербайджанской культуры.

**Ключевые слова:** искусство, культура, история, Г.Алиев, развитие.

*Rena Mamedova (Azerbaijan)*

**The role of the national leader H.Aliyev in the development of Azerbaijan art**

In the given article there is shown the role and significance of the national leader H.A.Aliyev. H.Aliyev's titanic activity in the development and flourishing of Azerbaijan culture is accentuated.

**Keywords:** art, culture, history, H.Aliyev, development.

*UOT 351.85*

***İlqar Hüseynov***
***kulturologiya elmləri doktoru, professor***
***(Azərbaycan)***

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA ROLU

Tarixdə xalqına, onun mədəniyyətinə, maarifinə xidmət edən rəhbərlər az olmayıb. Amma onların milli dəyərlərdə təcəssüm tapmasına nadir hallarda təsadüf olunur. Heydər Əliyev məhz belə rəhbər və dövlət xadimi idi. Azərbaycan xalqının tarixi, mədəni-kulturoloji ənənələrinin qorunmasında və inkişaf etdirilməsində ümummilli lider, mədəniyyətimizin zəkası Heydər Əliyevin misilsiz xidmətləri vardır. Tarixin dərsləri öyrədir ki, tarixlər ərzində çox xalqlara və ölkələrə çox şəxsiyyətlər başçılıq ediblər, lakin onların heç də hamısı tarixi şəxsiyyətə, xalqının liderinə, dövlət qurucusuna çevrilə bilməyiblər, öz xalqının qəlbində və vətəninin tarixində əbədi heykəllərini yaratmağa nail ola bilməyiblər. Bu mənada Azərbaycan xalqı xoşbəxt xalqdır ki, tanrı və tale onun müasir tarixinə Heydər Əliyev kimi qurucu, yaradıcı, millətini sevən, bütün ömrünü xalqına və vətəninə həsr edən dahi dövlət xadimi, qurucu dövlət rəhbəri, böyük şəxsiyyət və milli lider bəxş etmişdir.

Çağdaş Azərbaycan mədəniyyəti hazırda özünün əsl inkişaf dövrünü yaşayır. Təbii ki, bu ilk növbədə onun özündən əvvəlki irsə əsaslanması ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinin inkişafında xidmətləri əvəzsizdir. Ulu Öndərin həyatımızın bütün sahələrində olduğu kimi zəngin milli mədəniyyətimizin uğurlarında, yaradıcı insanların həyatında, milli mənəvi-əxlaqi dəyərlərimizin qorunmasında, dilimizin inkişafında, Azərbaycanın mədəni imicinin formalaşmasında ölçüyəgəlməz dərəcədə böyük rolu və xidmətləri olmuşdur.

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı zəngin tarixə, maddi mədəniyyət abidələrinə, ədəbiyyata, incəsənətə və musiqi mədəniyyətinə malikdir. Azərbaycanın gözəl təbiəti, iqlimi, təbii sərvətlərinin zənginliyi xalqın bədii təfəkkür və yaradıcılığına böyük təsir göstərmişdir. Ayrı-ayrılıqda uzun və mürəkkəb inkişaf yolu keçmiş müxtəlif sənət növlərinin hər biri Azərbaycan mədəniyyət və incəsənəti haqqında tam təsəvvür yaratmağa ge-

niş imkan verir. Azərbaycan mədəniyyət və incəsənəti ölkəmizin təbiəti kimi rəngarəng, dolğun və zəngindir.

Ötən əsrin 70-ci illərində, habelə müstəqillik dövründə Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev mədəni və ədəbi irsimizə, təsviri sənətə, balet və teatra misilsiz dərəcədə qayğı göstərirdi. Heydər Əliyevin bilavasitə himayədarlığı və gərgin səyləri nəticəsində Azərbaycan incəsənəti və təsviri sənəti bütün dünya miqyasında tanınmışdı. Hər bir xalqın mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərlər mühüm rol oynayır. Hər bir xalqın milli-mənəvi dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir. Hər hansı bir ölkədə xalqın milli-mənəvi dəyərlərinin qorunması və mədəniyyətinin inkişaf etdirilməsi vətəndaşların milli birliyinin təmin olunmasına xidmət edir.

Müstəqillik illərində Azərbaycan dilinin beynəlxalq nüfuzu görünməmiş bir səviyyəyə qalxmış, Azərbaycan dili dünyanın böyük siyasət, mədəniyyət, elm mərkəzlərində ən yüksək tribunalarından səslənmiş, ümummilli liderimiz Heydər Əliyev və Azərbaycan prezidenti İlham Əliyev öz şəxsi fəaliyyətləri ilə yalnız ölkə daxilində deyil, ölkəmizdən çox-çox uzaqlarda, həmin yüksək tribunalardan dönə-dönə sübut etmişlər ki, Azərbaycan dili müasir dünya düşüncəsinin səviyyəsinə qalxmağa layiq, geniş ifadə imkanlarına malik bir dildir. “Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qurur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq” [2]. “Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz” [3]. Bu gün qloballaşma və mədəni inteqrasiya proseslərinin dünyada geniş vüsət aldığı bir zamanda Azərbaycan cəmiyyətində milli-mənəvi dəyərlərin, o cümlədən ana dilimizin mühafizəsi, inkişaf etdirilməsinin olduqca çox böyük sosial-kulturoloji əhəmiyyəti vardır.

Heydər Əliyev qeyd edirdi ki, hər bir gənc Azərbaycanın müstəqilliyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, dilimizi sevməlidir, milli ənənələrimizi sevməlidir.

Heydər Əliyev istər 70-ci illərdə, istərsə də müstəqillik dövründə hakimiy-

yətdə olduğu illərdə Azərbaycanın mənəvi irsini yaşatmaq üçün silsilə tədbirlər həyata keçirmiş, əhəmiyyətli qərarlar vermişdir. Heydər Əliyev mədəni irsi yaşatmaqla bərabər, müasir mədəniyyətin inkişafına da xüsusi diqqət yetirmişdir. Məhz onun qayğısı sayəsində mədəniyyətin bir çox sahələrində böyük uğurlar əldə edilmişdir.

Təbiətcə musiqinin vurğunu olan, incə və həssas musiqi duyumuna, musiqi zövqünə malik olan, Azərbaycan və dünya mədəniyyətinin bədii nümunələrini həvəslə dinləyən, şəxsi həyatında da, ailəsində də musiqidən ayrılmayan, musiqi və musiqiçilər haqqında peşəkar musiqi tənqidçisi kimi çox dəyərli rəy və fikirlər söyləyən, musiqişünaslığın elmi fikir və ideyalar dairəsini zənginləşdirən, daim musiqiçilərlə dostluq edən Heydər Əliyevin həyat və fəaliyyətini musiqi incəsənətindən ayrı təsəvvür etmək çətindir. O, musiqiyə dərindən bağlı bir şəxsiyyət kimi bu sənətə, onun yaradıcılarına, problemlərinə daim böyük diqqət, hörmət və ehtiramla yanaşmışdır. Musiqi mədəniyyətinin çağdaş və aktual məsələləri, bəstəkar və ifaçıların, dirijor və musiqişünasların yaradıcılığı, problemləri, fikir və təklifləri, uğurları onu daim maraqlandırmışdır.

Musiqinin beşiyi İtaliya hesab edilsə də, Azərbaycanın musiqisi öz zənginliyinə görə öncül yerlərdə durur. Bu zənginliyi və bununla da Azərbaycan xalqının malik olduğu “xəzinəni” beynəlxalq səviyyədə göstərmək, dünya musiqisi sıralarında layiqli yerini tutması üçün musiqinin hər bir sahəsinin (istər muğam, istərsə də söz və s.) Heydər Əliyev eyni səviyyədə inkişaf etdirilməsinə böyük səy göstərmişdir. Eyni zamanda Heydər Əliyev musiqinin inkişafında əhəmiyyətli rol oynayan insanların yaradıcılığına da çox böyük qiymət vermiş, bununla da onların əməyini yüksək qiymətləndirmiş və musiqinin inkişafına təkan vermiş olurdu.

Heydər Əliyev Azərbaycan musiqi korifeyləri olan Ü.Hacıbəyovun, Q.Qarayevin, F. Əmirovun, A.Zeynallının və b. adlarının əbədiləşdirilməsinə qayğı ilə yanaşmışdır. Heydər Əliyevin mədəniyyət işçilərinə xüsusi münasibət bəsləyirdi. Prezident səhnələşdirilmiş əsərlərin premyera tamaşasına getməyi unutmur, teatr truppalarını mütəmadi qəbul edir, sənətkarlara yaradıcılıq uğurları arzulayır, bəstəkarların, rəssamların, görkəmli muğam ustadlarının yaradıcılıq gecələrinin, yubileylərinin keçirilməsini diqqət mərkəzində saxlayırdı. Heydər Əliyev yaşlı nəslin yaradıcılığına qayğı göstərməklə yanaşı gənc nəslin qarşısında yaradıcılıq imkanlarının açılmasına da xüsusi diqqət yetirirdi.

Heydər Əliyev bəstəkar Q.Qarayevə yüksək mükafat təqdim edəndə nitqində demişdir: “Öz yaradıcılıq fəaliyyətinin qırx ili ərzində böyük qabi-

liyyətə və parlaq istedada malik olan Qara Qarayev tükənməz əzmkarlığı, fədakarlığı, əməksevərliyi sayəsində böyük və şanlı yol keçmişdir. Onun formaca milli yaradıcılığı respublikamızın hüdudlarından çox-çox kənara çıxmışdır. Dərin beynəlmiləlçilik ruhu ilə aşılanmış bu yaradıcılıq bütün sovet xalqının sərvətinə çevrilmişdir. Bu gün Qara Qarayev görkəmli bəstəkarlar arasında haqlı olaraq layiqli yer tutur…

Əsası böyük Üzeyir Hacıbəyov tərəfindən qoyulmuş Azərbaycan professional musiqisinin gözəl ənənələrini bəstəkar müvəffəqiyyətlə davam və inkişaf etdirir. Xalqın yaratdığı nə varsa, hamısından bacarıqla istifadə edən, öz yaradıcılığını rus və dünya klassik musiqisinin nailiyyətləri ilə zənginləşdirən Qara Qarayev özünəməxsus bəstəkarlıq məktəbi, təkcə Azərbaycan musiqi mədəniyyətinin deyil, həm də bütün sovet musiqi mədəniyyətinin inciləri sayılan gözəl əsərlər yaratmışdır, musiqi yaradıcılığını elmi tədqiqat işi ilə əlaqələndirən Qara Qarayev musiqişünaslığın nəzəri problemlərinin işlənməsinə böyük xidmət göstərmişdir.

Böyük ictimai xadim olan Qara Qarayev beynəlxalq meydanda dövlətimizi ləyaqətlə təmsil edir. İndi Qara Qarayev yaradıcılıq qüvvələrinin çiçəkləndiyi bir dövrü keçirir və o, şübhəsiz, hərarətli qəlbi və parlaq zəkası ilə öz xalqına gözəl əsərlər bəxş etmək üçün hələ çox iş görəcəkdir.

Heydər Əliyev Azərbaycan xalqının gələcəyi olan yaradıcı gənc nəslin yetişməsinə hərtərəfli qayğı göstərməyə, şərait yaratmağa çalışırdı. Heydər Əliyevin böyük səyi nəticəsində külli sayda uşaq ansamblları, rəqs kollektivlərin yaradılmış, müsabiqələrin keçirilməsi ənənəvi hal almışdı. “Öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam, saf və əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik” [4].

Heydər Əliyev dönə-dönə istedadları üzə çıxarılmağı, onları himayə etməyi, xüsusi qayğı və kömək göstərməyi tövsiyə edirdi. Belə kollektivlər, istedadlar xarici ölkələrdə Azərbaycanı uğurla təmsil edir, dövlətimizin adını, bayrağını ucaldırlar.

Öz dövrünün böyük mütəfəkkiri və ziyalısı olan Heydər Əliyev azərbaycançılıq fəlsəfi ideyalarını respublikada təbliğ etməklə yanaşı fəlsəfi fikirlərini, düşüncələrini bütün dünya azərbaycanlılarına çatdırmaq kimi məsul vəzifəni öz üzərinə götürmüş, onları milli dövlətçiliyimizin ətrafında sıx birləşməyə, həmrəy olmağa çağırmışdı. Heydər Əliyev azərbaycançılığın əsas ideyasını səciyyələndirərək qeyd

edirdi: “azərbaycançılıq milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir” [1].

Ulu Öndər yazıçı və sənət adamları ilə görüşlərində elmi-ədəbi üslubda danışmağa üstünlük verir, ana dilinin ifadə çalarları imkanlarından parlaq şəkildə, məharətlə istifadə edirdi. Ümummilli liderin gözəl nitqi yazıçıları, ədəbiyyatçı alimləri, illərlə mühazirələr oxuyan professorları heyran qoyurdu. Heydər Əliyev gənc yaşlarından dövlət təhlükəsizlik orqanlarında işləmişdi, belə qurumlarda ana dilində danışmağa imkan vermirdilər. Lakin Heydər Əliyev bu dilin parlaq daşıyıcısı olan sadə azərbaycanlı ailəsində boy atmış, Azərbaycan dilinə dərin sevgi bəslənən bir mühitdə formalaşmışdı.

Heydər Əliyev 1978-ci ildə Konstitusiya qəbul olunanda Azərbaycan dilinin dövlət dili kimi təsdiq edilməsi uğrunda mübarizə aparmışdı. Həmin dövrdə təhlükəli bir nəzəriyyə ortaya atılmışdı. İddia olunurdu ki, guya sovet dövlətində yaşayan bütün insanlar vahid bir millətə - sovet xalqına çevriliblər. Bu, milli dillərə, mədəniyyətlərə qarşı yönəlmiş nəzəriyyə idi. Belə vaxtda Heydər Əliyev Elmlər Akademiyasında böyük alimlərin iştirakı ilə Konstitusiya layihəsinin müzakirəsini təşkil etdi. Rəhbərin irəli sürdüyü qeyri-rəsmi istiqamət nəticəsində yığıncaqda Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi barədə təklif verildi. Moskva hakimiyyəti milli ziyalılar təbəqəsinin bu təklifini qulaqardına vura bilmədi. Bu qərardan sonra ana dilini inkişaf etdirmək, ana dilində elmi və bədii yaradıcılığı genişləndirmək, televiziya, mətbuat, kino, teatr quruculuğunda milli dilin tətbiqini gücləndirmək daha asan oldu. Moskva kinematoqrafiya kimi mühüm sahədə Bakıdan gələn ssenariləri belə rus dilində tələb edirdi. Azərbaycan kinostudiyasına qeyri millətlərdən olan kadrlar ağalıq edirdilər. Ulu Öndər kinostudiyaya ana dilinə, xalqa bağlı kadrlar cəlb etdi. Heydər Əliyevin dövründə, onun bilavasitə himayəsi ilə “Nəsimi”, “Babək”, “Dəli Kür” kimi xalqımızın tarixi qəhrəmanlıq keçmişini əks etdirən filmlər çəkildi. Belə filmlər gəncliyin milli ruhda tərbiyəsində və sonralar kütləvi surətdə müstəqillik hərəkatına qoşulmasında böyük rol oynadı. Heydər Əliyevin 1969-cü ildə hakimiyyətə gəlməsi ədəbiyyat və incəsənətimizdə milli cərəyanın yüksəlməsinə səbəb oldu. Ulu Öndər Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, İsa Hüseynov, Anar, Əkrəm Əylisli kimi milli zəminə bağlı və istedadlı sənətkarları daim himayə edirdi. Görkəmli sənətkarlar ədəbiyyatın milli varlığımız, dəyərlərimizlə bağlı mövzularını uğurla işləyib inkişaf etdirirdilər.

Heydər Əliyev xalqımızın görkəmli şair və mütəfəkkirlərinin, sənət adamlarının, alimlərimizin yaradıcılığına qiymət vermiş, yubileylərinin keçirilməsinə, adlarının bağçalara, küçələrə verilməsinə, yaşadıqları binaların üzərinə xatirə lövhələrinin vurulmasına, xatirələrinin əbədiləşdirilməsinə diqqət yetirmişdir.

Heydər Əliyev dünya poeziyasının dühası, böyük filosof Məhəmməd Füzulinin 500 illiyinə, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr edilmiş dünya miqyaslı yubileylərin və b. tədbirlərin keçirilməsinin təşəbbüskarı olmuş, dünya dövlətlərinin, o cümlədən türkdilli ölkələrin görkəmli elm və incəsənət xadimlərini bu möhtəşəm tədbirlərə dəvət etmişdir.

Heydər Əliyev deyirdi: "Kitabi-Dədə Qorqud" dastanının yubileyinin keçirilməsi ən böyük siyasi, mənəvi xarakter daşıyır və mədəniyyətimizə, ədəbiyyatımıza olan qayğını və münasibəti göstərir. Biz son onilliklərdə Azərbaycanda tariximizin görkəmli səhifələrini yad etmək, tariximizi bugünkü və gələcək nəsillərə daha da geniş anlatmaq, xalqımızın, millətimizin tarixini dünyaya nümayiş etdirmək məqsədi ilə bir çox yubiley mərasimləri keçirmişik. Bunların hər birinin çox böyük faydası olubdur. Bu faydanı nə faizlə, nə miqdarla, nə də ki, çəki ilə ölçmək olar. Ancaq əgər bir ölçü olsaydı, demək olar ki, ən böyük ölçüyə malik faydalardır.

Ulu Öndər Heydər Əliyev yazırdı: "Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir". O, hər bir sənət adamına, hər bir sənətkara, hər bir rəssama yüksək qiymət verməyi heç bir zaman unutmamışdır. Azərbaycanın keçmişini, dünənini, bugününü və sabahını xalça üzərində özünəməxsus şəkildə əks etdirən Lətif Kərimovun, rənglərin dili ilə təbiəti insanlara dərk etdirən Səttar Bəhlulzadənin əməyini dərindən məhz Heydər Əliyev qiymətləndirmişdir. Şəxsiyyətin böyüklüyünü, əzəmətini onun həyat və fəaliyyətinin çoxsahəli olması sübut edir. Ümummilli lider Heydər Əliyev demişdir: "Ümumi çətinlik nə qədər çox olsa da biz elmə, təhsilə daim qayğı göstərməliyik". Bu məqsədlə o, Azərbaycanın işıqlı gələcəyi, dünya miqyasında tanınması və layiqli yerini tutması yolunda böyük səy göstərmişdir.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi otuz ildən artıq tarixi dövrdə mədəniyyətə və incəsənətə sistemli və kompleks yanaşmış, Azərbaycan milli mədəniyyətinin dünənini, gələcəyini, inkişaf imkanlarını məhz ümummədəni kontekstdə qiymətləndirmiş, dövlət mədəniyyət siyasətinin əsas prioritetlərini müəyyənləşdirmişdi. "Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında və yaşayışında formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət, həqiqi xalq ola bilməz. Azərbaycan xalqı cürbəcür hökmdarların əlində

olubdur, tarix boyu nə qədər əziyyətlər çəkibdir. Ancaq dilini də, öz mənəvi əxlaqi mentalitetini də saxlayıbdır. Bu xalqımızın nə qədər dərin köklərə malik olduğunu bir daha təsdiqləyir" [5].

Heydər Əliyev mədəniyyət və incəsənətin inkişafına respublikanın iqtisadiyyat, sosial, elm, təhsil sahələrindəki əsaslı inkişafı ilə bilavasitə əlaqəli şəkildə yanaşırdı. Belə bir yanaşma, Heydər Əliyevin siyasətçi və dövlət xadimi kimi müdrikliyindən, idarəçilik istedadından, xalqının gələcəyini düşünən ağıllı və uzaqgörən siyasətçi olmasından irəli gəlirdi. "İqtisadiyyatı güclü olan xalq hər şeyə qadirdir" - deyən Heydər Əliyev bu fikrini həyata keçirərək mədəniyyətin tərəqqisi üçün də ciddi və zəruri iqtisadi baza, güclü maddi-texniki stimul yaradırdı. Respublikada hər bir sahədə yeniliklərin, islahatların aparılmasına, ətrafda baş verən bütün demokratik və tərəqqi proseslərinin respublikanın inkişafında əks olunmasına, respublikanın yeni iqtisadi və sənaye potensialının tam gücü ilə qurulmasına, hərtərəfli iqtisadi inkişafın və yüksəlişin hər bir sahəyə, o cümlədən mədəniyyət və incəsənətin yüksəlişinə müsbət təsir göstərməsinə nail olan Heydər Əliyev məhz həyata keçirdiyi inkişaf siyasətinin uğurlu nəticələri kimi tezliklə bütün respublikanı böyük bir tikinti, abadlaşdırma meydanına çevirdi. Heydər Əliyev milli-mədəni dəyər, milli sərvət kimi yüksək qiymətləndirdiyi muğamlara, xalq musiqisinə milli ruhda tərbiyənin, milli zəmində bədii-estetik tərbiyənin vacib amili kimi yanaşır, buna görə də onların qorunması və yaşaması üçün, istedadlı xanəndə, ifaçı və müğənnilərə hər cür dövlət qayğısı göstərilməsi üçün əlindən gələni əsirgəmirdi. O, muğamların, xalq musiqisinin, xalq rəqslərinin yalnız ənənəvi yolla deyil, eyni zamanda peşəkar bəstəkar yaradıcılığı vasitəsilə yaşamasına da böyük əhəmiyyət verirdi. Heydər Əliyevin fikrincə, xalq musiqisi, muğamlar bəstəkarlar tərəfindən daha çox işlənilərsə, bəstəkar yaradıcılığına, peşəkar ifaçıların yaradıcılığına daha çox yol taparsa, onların dünya ictimaiyyətinə çatdırılması imkanları da genişlənər və biz müasir dünyaya qədim musiqi dəyərlərimizi bəstəkarlar vasitəsilə yeni texniki və bədii üsullarla da tanıtdıra bilərik.

Heydər Əliyev xalq musiqisinin, klassik və müasir musiqinin Azərbaycan ictimaiyyətinin bütün təbəqələrində dinlənilməsi, qavranılması, respublikada əhalinin musiqi-estetik zövqünün, musiqi sevgisinin inkişafı üçün müəyyən konkret addımlar atmış, bir çox real tədbirlər həyata keçirmişdir.

Heydər Əliyevin mədəniyyət siyasətinin əsas məqsədlərindən biri Azərbaycan gənclərinin, məktəblilərin və yeniyetmələrin musiqi-estetik tərbiyəsi, musiqi dünyagörüşü, dünya musiqi incəsənətinə marağının artması, Azərbay-

canın peşəkar musiqi xadimlərinin əsərlərinə, yaradıcılığına bələd olması idi. Azərbaycan gəncliyini həmişə müasir, təhsilli, bilikli, geniş dünyagörüşünə malik, milli ruhlu, vətəndaş mövqeli görmək istəyən ümummilli lider bu böyük amala çatmaq üçün hələ sovet illərində gənclərin təhsilinə, təlim-tərbiyəsinə, ümummədəni səviyyəsinə, onların gələcəkdə vətən və xalq üçün ixtisaslı kadr, layiqli vətəndaş kimi yetişməsinə xüsusi diqqətlə yanaşmış, müxtəlif sahələrdə çalışan istedadlı gənclərlə daim səmimi ünsiyyətdə olmuş, hər zaman onların problemlərinin həllinə çalışmış, onlara yol göstərmiş, uğurları ilə fəxr etmişdir.

Heydər Əliyev tərəfindən əsası qoyulan və uğurla həyata keçirilən dövlət mədəniyyət siyasətində musiqi mədəniyyəti və incəsənətinə, onun tərəqqisi və inkişafına, musiqidə yaradıcı şəxslərin yaradıcılıq imkanlarının genişlənməsinə, musiqi əsərlərinin xarici ölkələrdə yayımlanmasına, Azərbaycan musiqisinin dünyada layiqli və yüksək səviyyədə təbliğinə, musiqi təhsilinin inkişafına, musiqi tərbiyəsinə, musiqi elminin və musiqi əlaqələrinin möhkəmlənməsinə xüsusi önəm verilir.

"Heydər Əliyev və Azərbaycan mədəniyyəti" mövzusu geniş, əhatəli araşdırmalar tələb edən aktual elmi-tədqiqat mövzusudur. Heydər Əliyevin bu sahədəki əhatəli, geniş miqyaslı fəaliyyətinə uyğun olaraq həmin mövzunun müxtəlif aspektlərdən öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Ulu Öndər Heydər Əliyevin mədəniyyətimizin inkişafında bir siyasətçi və milli lidər kimi misilsiz rolunu və xidmətlərini ciddi elmi zəmində araşdırmaqla, ümummilli liderin obrazını, ömür yolunu, mübarizələrini və qələbələrini musiqi dili ilə ifadə edən və ona həsr olunan əsərləri təhlil etməklə, bu sahədə müəyyən nəticələrə gəlmək olar. "Azərbaycan peşəkar incəsənətinin istər XX əsr sovet dönəmində, istərsə də yeni əsrin müstəqillik dövründə inkişaf mərhələlərini, tərəqqi yollarını və nailiyyətlərini, qazandığı mükafatlarını və təltiflərini, beynəlxalq səhnəyə çıxarılan sənət əsərlərinin qiymətləndirilməsini Heydər Əliyev şəxsiyyətindən, onun mədəniyyət siyasətindən və xidmətlərindən, musiqi incəsənətinə və sənətkarlara diqqət və qayğısından. Himayəsindən, bu sahədə həyata keçirdiyi milli lider və siyasi rəhbər missiyasından, onun azərbaycançılıq məfkurəsindən ayrılıqda tədqiq və təhlil etmək qeyri-mümkündür [6].

Zaman Azərbaycan xalqından – müstəqil Azərbaycanın müasir vətəndaşlarından israrla tələb edir ki, Heydər Əliyevi Azərbaycan dövlətçiliyinin banisi kimi dərk etsin və qiymətləndirsin. Ümummilli lider Heydər Əliyev realist və praqmatik yanaşma çərçivəsində ümumi azərbaycançılıq ruhunun birləşdirdiyi yekdil millətin keşiyində dayanaraq fəaliyyət qabiliyyətli

dövlət yaratmaqla taleyüklü uğurlara nail olub, ölkənin uzunmüddətli perspektiv inkişafının Azərbaycanın gələcəyi üçün əhəmiyyət kəsb edən strateji istiqamətlərini müəyyən etmişdir. Heydər Əliyev dünya miqyaslı siyasi lider istedadına malik idi. Bu istedad xalqın inkişaf yollarını aydın görməkdə və qarşıya qoyulmuş məqsədlərə ardıcıl nail olmaqda parlaq şəkildə təzahür edib. O, Azərbaycanın modernləşməyə əsaslanan milli inkişaf strategiyasının – azərbaycançılıq, milli birlik, sosial ədalət, əhalinin iqtisadi firavanlığı, ölkənin ərazi bütövlüyü ideyalarına əsaslanan müstəqil, firavan və siyasi baxımdan sabit dövlət qurulması strategiyasının təməlini qoyub [9].

Ulu Öndər yaxşı bilirdi ki, milli dövlətçilik dəyərlərinin əsasını sağlam düşüncəli mədəniyyət təşkil edir. Sağlam cəmiyyət quruculuğuna diqqətin artırılması, köklü mənəvi dəyərlərin dərindən və əzmlə yeni nəslə və bütün cəmiyyətə aşılanması sabahkı uğurlara yeganə təminatdır. Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edir, mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün səylərini əsirgəmirdi. "Heydər Əliyev elə bir tarixi şəxsiyyət idi ki, o çox vaxt zamanla hesablaşmır, öz zamanını yaradırdı, və biz əminik, nə qədər ki, Azərbaycan adlı məmləkət, Azərbaycan xalqı var, Heydər Əliyev adı əbədi yaşayacaqdır" [8].

"Heydər Əliyevsiz Azərbaycanın varlığı mümkün deyildi. Odlar Ölkəsinin böyük oğlu Heydər Əliyev yalnız Azərbaycana deyil, bütün Avropaya, bütün dünyaya məxsusdur" [7].

## ƏDƏBİYYAT


1. "Бакинский рабочий" qəzeti, 10 noyabr 2001-ci il, s. 1-2
2. "Azərbaycan" qəzeti, 10 noyabr, 2001-ci il
3. Heydər Əliyevin Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda çıxışı. "Azərbaycan" qəzeti. 1996, 3 fevral
4. "Ədəbiyyat qəzeti", 22 aprel, 2011
5. http://azeri.org Azərbaycan dili və ədəbiyyatına həsr olunmuş sayt
6. Əfəndiyev T. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı, "Zərdabi LTD", 2011
7. http://www.maup.com.ua/ru/news/ "Heydər Əliyev: milli təhsil və milli tərbiyə. Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi-praktik konfransın materialları. Ukrayna Regionlararası Personalı idarəetmə akademiyasının elmi iş üzrə prorektoru prof. N.Qolovatının konfransda giriş sözü. Ukrayna, Kiyev, 14.03.2013

8. Əliyeva G. Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat. "Sənət dünyası" qəzeti, № 02 (02). 18.03.2013
9. http://anspress.com/index.php?a=2&lng=az&nid=196577 Qırğızıstanda 2013-cü il aprelin 10-da Heydər Əliyevin 90 illiyi münasibəti ilə keçirilmiş elmi nəzəri konfransda sabiq dövlət katibi, akademik Askar Kakeyevin çıxışından

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan mədəniyyəti, milli-mənəvi dəyərlər, azərbaycançılıq məfkurəsi, mədəniyyət siyasəti.

*Ильгар Гусейнов (Азербайджан)*

**Роль Гейдара Алиева в развитии культуры Азербайджана**

Азербайджанский народ обладает богатейшей древней культурой. Г.Алиев, руководивший республикой в 1993-2013 гг. имеет огромные заслуги в развитии науки и образования, культуры и искусства. За годы политической и государственной деятельности Г.Алиева азербайджанская культура сумела сохранить свою самобытность, уверено вышла на международную арену.

**Ключевые слова:** Гейдар Алиев, Азербайджанская культура, национально-духовные ценности, азербайджанство, культурная политика.

*Ilgar Huseynov (Azerbaijan)*

**The role of Heydar Aliyev in the development of the Azerbaijan culture**

The Azerbaijani people possess the richest ancient culture. Heydar Aliyev, who led the republic in 1993-2013 has huge merits in development of science and education, culture and art. During the years of political and state activity of Heydar Aliyev the Azerbaijan culture managed to keep the originality, came to the international scene.

**Keywords:** Heydar Aliyev, Azerbaijan culture, national and spiritual values, azerbaijanism, cultural policy.

*UOT 008:14*

*Səbinə Məmmədkərimova*
*(Azərbaycan)*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA MULTİKULTURALİZM İDEALLARININ TƏKAMÜLÜ

Müasir bəşəriyyət olduqca mürəkkəb etnik struktura malikdir. O, özündə bir neçə min müxtəlif növ etnik birlikləri, millətləri, xalqları, etnik qrupları, tayfaları birləşdirir. Onların hamısı sayına, inkişaf səviyyəsinə və s. göstəricilərə görə bir-birindən fərqlənir. Dünya xalqlarının inkişafında cərəyan edən sosial-iqtisadi, etnik və demoqrafik proseslər müxtəlif sürətlə dünyanın siyasi xəritəsində asanlıqla sezmək olur. Yer kürəsində yaşayan etnik birliklər və millətlər planetin təxminən 200 dövlətinin tərkibinə daxildir. Odur ki, müasir dövlətlərin əksəriyyətinin çoxmillətli olduğu təəccüb doğurmur.

Bu gün əksər dövlətlərin milli tərkibi müəyyən dərəcədə mədəni rəngarəngliyi ilə fərqlənir. Ticarət, turizm, alimlərin və incəsənət xadimlərinin beynəlxalq dialoqu, ixtisaslı işçilərin istənilən ölkəyə köçmək hazırlığı və çevikliyi, habelə miqrasiya prosesləri nəticəsində əksər ölkələrdə digər mədəniyyətlərə məxsus xeyli sayda insanlar yaşayır. Hər yerdə xarici turistlər və ya biznesmenlər kimi qeyri-millətlərin nümayəndələrinə rast gəlmək olar. Bu gün xarici dünyaya açıq olan bir çox ölkələri artıq mədəni müxtəliflik cəhətdən rəngarəng məkan kimi səciyyələndirmək olar, çünki bütün xalqların nümayəndələri oraya sərbəst şəkildə gəlib-gedə, bəzən hətta həmişəlik köçə bilər. Lakin immiqrantların əksəriyyəti bir çox hallarda gəldikləri ölkədə həmişəlik qalmağa üstünlük verirlər. Bu halda üzə çıxan müxtəlif problemlərin həlli müəyyən dərəcədə həmin ölkədə yürüdülən multikulturalizm siyasətinin uğurundan asılı olur. Vahid cəmiyyət çərçivəsində müxtəlif özünəməxsus mədəni ənənələri ilə yaşayan insanlar hamını razı salan dəqiq, birgə yaşayış qaydaları kimi bir sıra problemləri həll etməli olurlar.

“Multikulturalizm” anlayışı XX əsrin 60-cı illərində Kanadada əhalinin etnik, mədəni, dini, irqi müxtəlifliyi ilə bağlı ölkənin vəziyyətini əks etdirən istilah kimi meydana gəlmişdir [1]. Müstəqillik əldə etmiş keçmiş sovet respublikalarında və Şərqi Avropa ölkələrində qərbi demokratiyaların reseptləri təməlində həyata keçirilən bazar iqtisadiyyatına keçid, özəlləşdirmə və iqtisadiyyatın liberallaşdırılması prosesləri həmin ölkələrin ictimai-siyasi si-

masını tamamilə dəyişmişdir. İqtisadi qloballaşma, qeyri-sabitlik və etniklərarası müharibə və münaqişələr, sosial təbəqələşmə və əhalinin kütləvi yoxsullaşması milyonlarla insanı öz doğma yurd-yuvasını tərk etməyə, başqa ölkələrdə sığınacaq və ya qazanc axtarmağa məcbur etmişdir. Bu da miqrasiya proseslərinin miqyasını xeyli genişləndirmişdir. Transmilli xarakter almış miqrasiya qarşısıalınmaz hadisəyə, qlobal problemə çevrilmişdir. Bu gün dünyanın iki yüzdən çox dövləti miqrasiya dövriyyəsinə cəlb edilmişdir.

Müasir dövrdə bir çox Qərb ölkələrində kütləvi immiqrasiyanın təsiri nəticəsində müxtəlif mədəniyyətlərə məxsus olan etno-mədəni birliklər formalaşmışdır. Qloballaşan dünyada müxtəlif adət-ənənələrə, etnik və dini dəyərlərə malik xalqlar və etnosların mədəniyyətlərarası dialoqa cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Qloballaşma şəraitində informasiya inqilabının Avropa xalqlarının milli mədəniyyətlərində yaratdığı geniş miqyaslı dəyişikliklər mədəni inkişafın müəyyən tipinin təzahürü kimi görünə bilər. Lakin bu, heç də uyğun proseslərin ucdantutma bütün dünyada eyni qaydada, eyni istiqamətdə, eyni dinamika ilə yayılacağına zəmanət vermir. Əksinə, mədəni rəngarəngliyin təcəssümü olan multikulturalizm prosesləri də onun təbiətinə uyğun olaraq fərqli inkişaf zəminində cərəyan edir.

Müxtəlif mədəniyyətlərin çiçəklənməsi, onların bir-birinə qarşılıqlı təsiri üçün şəraitin yaradılması etnik dirçəliş proseslərini sürətləndirir, etnomədəni dəyərlərə marağı artırır. Etnomədəni təcridolunma və milli istisnalıq duyğusu kimi neqativ təzahürlərin dəf edilməsi multikulturalizm ideyalarının inkişafına təkan verir. Multikulturalizm siyasətini müasir dünyada baş qaldıran mədəni və etnik müxtəliflik təzahürlərinə qarşı işlənib hazırlanmış reaksiya sistemi kimi səciyyələndirmək olar. Maarifçi, linqvistik, iqtisadi və sosial istiqamətləri əhatə edən, özünəməxsus quruluşa və informasiya mexanizmlərinə malik multikulturalizm siyasətinin səmərəliliyi bir çox hallarda milli azlıqların bu siyasətin həyata keçirilməsinə cəlb edilməsi ilə şərtləndirilir. Etnomədəni, sosial, konfessional qrupların qərarların qəbul edilməsində, məsuliyyət bölgüsündə iştirakı ictimai həyatda mədəni inkişafın imkan dairəsini xeyli genişləndirir. Multikulturalizm siyasəti etnomədəni özünəməxsusluğun qorunub saxlanılması şərti ilə bərabərlik, seçim sərbəstliyi və əməkdaşlıq prinsiplərinə əsaslanır. Milli mədəniyyətlərin digər mədəniyyətlərə məxsus etnomədəni, sosial, konfessional qrupların hüquqlarına hörmət, fərqli mədəniyyətlərin dərk edilməsi, qarşılıqlı anlaşma, mə-

dəniyyətlərarası dialoq mədəniyyətlərarası tolerantlıq üçün zəmin yaradır. Çoxmillətli dövlətlərin sosial qanunvericiliyində plüralizm prinsiplərinin təsbiti mədəniyyətlərarası tolerantlıq ideyalarının cəmiyyətdə yayılması üçün münbit şərait yaradır. Bu halda multikulturalizm ictimai tarazlıq və mədəniyyətlərarası tolerantlıq ideologiyası kimi ictimai-siyasi ideologiya səviyyəsinə qalxır. Multikulturalizm mövzusu müasir cəmiyyətlərdə yaranan sosial, etnomədəni, siyasi problemlərin bütün istiqamətlərini əhatə edir. Multikulturalizm milli dirçəlişin və qloballaşmanın müasir prosesləri zəminində meydana gəlmiş sosial, etnomədəni və siyasi-ideoloji fenomendir. Dinamik dəyişən cəmiyyətdə milli dirçəliş demoqrafik, siyasi amillərlə uyğunluqda müasir milli dövlətlərin, bütövlükdə beynəlxalq sosial sistemin inkişaf istiqamətlərini müəyyən edir.

Bu gün bir çox ölkələrin mədəni siyasətində assimilyasiya modelindən plüralizm modelinə, multi-mədəni modelə keçid baş verir, əvvəlki dövrlərdə milli azlıqlar öz mədəni ənənələrindən və dəyərlərindən imtina edərək, onları dominant millətin ənənələri ilə əvəz edərdisə, hazırda fərd həm çoxluğun mədəniyyəti, həm də etnik mədəniyyət istiqamətində ictimailəşməyə üstünlük verir [1].

Mədəniyyət siyasəti müəyyən obyektiv, ona bilavasitə təsir göstərən amillər çərçivəsində formalaşır. Hər hansı ölkənin mədəni siyasəti barədə təsəvvür yaratmaq üçün onun tarixi, təbiəti, coğrafi şəraiti, ictimai və fərdi həyatın əsas sahələri ilə ümumi, ilkin məlumatlarla tanış olmaq başlıca şərtlər sırasındadır.

Mədəniyyət siyasəti özəl, fərdi mədəni ənənələrin, mədəni dəyərlərin inkişafına imkan yaratmalıdır. Mədəniyyətin inkişafını onun ictimai dəyişikliklərə birbaşa və ya dolayı, mənfi və ya müsbət təsiri kontekstində deyil, başlıca məqsəd kimi qəbul etmək lazımdır [2].

Şeyxülislam Allahşükür Paşazadə "Azərbaycanın dünyada nümunəvi multikulturalizm məkanı kimi tanındığını iddia edir" [3].

Azərbaycanda multikulturalizm ideyaları ümummilli lider Heydər Əliyevin müdrik dövlətçilik siyasəti təməlində meydana gəlmişdir. Multikulturalizm siyasəti ulu öndərin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir [4].

UNESCO və İSESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyeva Azərbaycanda həm keçmişdə, həm də müasir dövrdə müxtəlif dinlərə, millətlərə hörmətlə yanaşıldığını, ölkəmizdə bütün xalqların sülh şəraitində yaşadığını, Azərbaycanın bu sahədə model olmağa hazır olduğunu bildirir [5]. O,

Azərbaycanı "… yüksək tolerantlığı ilə fərqlənən ölkə" kimi səciyyələndirir [2].

Bu gün Azərbaycan etnoqrafik rəngarəngliyi ilə seçilir. Onun ərazisində Azərbaycan türkləri ilə bərabər dağ yəhudiləri, tatlar, talışlar, kürdlər, molokanlar, ingiloylar, saxurlar, avarlar, ləzgilər, xınalıqlılar, buduqlular, qrızlar kimi etnik qruplar yaşayırlar. Qeyd olunan etnik qrupların nümayəndələri özlərini azərbaycanlı saysalar da, hər bir qrup özünəməxsus fərqli mədəniyyətin elementlərini qoruyub saxlamışdır [6]. Azərbaycanda ölkənin köklü əhalisi olan azərbaycanlılarla yanaşı, nə qədər xalqlar, millətlər yaşayır: talış, avar, ləzgi, ingiloy, udin, rus, rutul… Onlar burada ölkənin tamhüquqlu vətəndaşı kimi yaşayıb-yaradırlar, təhsil alırlar, müxtəlif sahələrdə çalışırlar. Azərbaycanda azsaylı xalqların öz dillərində məktəbləri fəaliyyət göstərir. Müstəqil dövlətimizin gündən-günə çiçəklənməsində onların da əməyi var. Bu da Ümummilli liderimiz Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən siyasətinin bəhrələridir [7].

Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin və s. qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Bu məqsədlə onlara müntəzəm şəkildə maliyyə yardımları göstərildi. Milli azlıqların mədəni mərkəzləri kommunal xərclər, kirayəhaqqı ödənilmədən yerlə təmin olundular. Onların əlifbaları, doğma dillərində dərslikləri hazırlandı, kitablarının, qəzetlərinin nəşri üçün dövlət büdcəsindən vəsait ayrıldı, respublika radiosunda, yerli özəl televiziyalarda və qəzetlərdə doğma dillərində veriliş və materiallar hazırlanmasına şərait yaradıldı, müxtəlif konfessiyaların hamısının sərbəst və azad fəaliyyət göstərməsinə tam hüquqi təminat verildi. Etnik qruplardan hər hansı birinin itirilməsinin bütün bəşəriyyət üçün əvəzsiz itki olacağını Heydər Əliyev gözəl dərk edirdi [8].

Heydər Əliyev daxili siyasətində vətəndaşların vahid amal və məqsəd ətrafında birləşdirilməsi istiqamətində addımlarını etnik-milli müstəvidən dövlətçilik və vətənpərvərlik müstəvisinə ustalıqla və mükəmməl formada keçirərək, respublikanın əsas vətəndaşları olan türk kökənli çoxluqla digər milli azlıqların, etnik qrupların birliyinə nail ola bilmişdir [9]. S.Quliyeva yazır ki, "Azərbaycan müstəqillik əldə etdikdən sonra milli azlıq və etnik qrupların hərtərəfli inkişafı üçün dövlət tərəfindən zəmin yaradılmışdır. Ümummilli lider Heydər Əliyev həmişə ölkə ərazisində yaşayan azsaylı xalqlara hörmətlə yanaşmış, onların bütün sahələrdə azad fəaliyyəti üçün dövlət səviyyəsində şərait yaratmışdır" [10].

Heydər Əliyevsiz Azərbaycanın varlığı mümkün deyildi. Odlar Ölkəsinin böyük oğlu Heydər Əliyev yalnız Azərbaycana deyil, bütün Avropaya, bütün dünyaya məxsusdur [11].

**ƏDƏBİYYAT**


1. Məmmədkərimova S. Multikulturalizm fenomeni. Bakı, 2013
2. Hüseynov İ., Əfəndiyev T., Abbasov N. Dünya mədəniyyət siyasəti. Ali məktəblər üçün dərslik. Bakı, "Mars-Print" NPF. 2012. səh. 6-7
3. http://maarif.deyerler.org
4. Məmmədkərimova S. Multikulturalizm ideologiyası Heydər Əliyevin mədəni irsi kontekstində. Bakı, 2013
5. http://www.bakuforum.org/ru/ M.Əliyevanın UNESCO Baş Konfransının prezidenti, Macarıstanın UNESCO yanında daimi nümayəndəsi Katalin Boqyayla görüşdə çıxışı
6. http://www.azerbaijans.com/content_1703_az.html
7. http://karaoke.musigi-dunya.az/azsayli.html Bədəlbəyli F. Azərbaycanda yaşayan azsaylı xalqların mahnıları. Toplu. Bakı, 2011
8. http://www.medeniyyet.az 09.05.2009. Səbuhi. Tolerantlıq ənənəsi yaşayır
9. www.elibrary.az Həsənov Ə. Heydər Əliyev və Azərbaycanın 20 illik milli inkişaf strategiyası: xarakteristikası, əsas vəzifələri və tələbləri. "Səs". 2012. 9 may. № 82
10. http://anl.az Quliyeva S. Azərbaycanda yaşayan azsaylı xalqların adət və ənənələrinin təbliğində kitabxanaların rolu. Metodik vəsait. Bakı. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. 2012
11. http://www.maup.com.ua/ru/news/ "Heydər Əliyev: milli təhsil və milli tərbiyə. Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi-praktik konfransın materialları. Ukrayna Regionlararası Personalı idarəetmə akademiyasının elmi iş üzrə prorektoru prof. N.Qolovatının konfransda giriş sözü. Ukrayna, Kiyev, 14 mart 2013-cü il


**Açar sözlər:** multikulturalizm, multikulturalizm idealları, mədəniyyətlərarası dialoq, Heydər Əliyev, azsaylı xalqlar.

*Сабина Мамедкеримова (Азербайджан)*

**Гейдар Алиев и становление идеалов мультикультурализма в Азербайджане**

Сегодня многие страны, отличающиеся этнокультурным разнообразием, открыты внешнему миру. Представители всех народов могут свободно приехать и уехать, иногда даже навсегда переехать. Принципы мультикультурализма способствуют формированию межкультурного диалога людей. Идеи мультикультурализма в Азербайджане появились благодаря мудрой государственной политике общенационального лидера Г.Алиева.

**Ключевые слова:** мультикультурализм, идеи мультикультурализма, межкультурный диалог, Гейдар Алиев, малочисленные народы.

*Sabina Mamedkarimova (Azerbaijan)*

**Heydar Aliyev and the formation of ideals of multiculturalism in Azerbaijan**

Nowadays, many countries, differing ethnocultural diversity, are open for the world. Representatives of all people can freely arrive and leave, sometimes even to move forever. The principles of multiculturalism promote formation of cross-cultural dialogue of the people. Ideas of multiculturalism in Azerbaijan appeared as a result of a wise state policy of the national leader H.Aliyev.

**Keywords:** multiculturalism, ideas of multiculturalism, intercultural dialogue, Heydar Aliyev, small nations.

*UOT 008:14*

***Sehranə Kasimi***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***
***(Azərbaycan)***

# DƏYİŞƏN DÜNYADA TOLERANTLIQ VƏ MULTİKULTURALİZM

28 noyabr 2012-ci il BMT-nin Cenevrədəki Baş Qərərgahında-Millətlər Sarayında İnsan Hüquqları Şurasının Azlıq məsələləri üzrə Forumunun V Sessiyasında BMT-nin Baş katibi Pan Gi Mun öz müraciətində 1992-ci ilin dekabr ayında BMT tərəfindən qəbul olunmuş "Milli və ya etnik, dini və dil azlıqlarına mənsub olan şəxslərin hüquqları haqqında" Bəyannamədə milli azlıqların hüquqlarının təşviqi və müdafiəsi baxımından vacib rolunu qeyd etmiş və onların maraqlarının BMT müstəvisində əks olunmasının zəruriliyini bildirmişdir.

Sessiyada çıxış edən Azərbaycan Prezidenti Adminstrasiyasının ictimai – siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov etnik və dini azlıqların müdafiəsi sahəsində milli qanunvericiliyə və beynəlxalq hüquq normalarına uyğun olaraq, Azərbaycanda həyata keçirilən dövlət siyasəti barədə ətraflı məlumat vermişdir. O, ölkədə etnik –mədəni müxtəlifliyin qorunması, millətlərarası və dövlətlərarası sivil normalar əsasında tənzimlənməsi, tolerantlığın daha da möhkəmlənməsi sahəsində görülən çoxsaylı tədbirlərdən bəhs etmiş, azlıqların dil və mədəniyyətinin qorunub saxlanması və inkişafına dövlətin göstərdiyi diqqət və qayğını konkret faktlarla sessiya iştirakçılarının diqqətinə çatdırmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev "Dövlət və Din: Dəyişən dünyada tolerantlığın gücləndirilməsi" mövzusunda 19 dekabr 2011 ci il I Bəynəlxalq Bakı Forumunda bu məsələyə qarşı öz fikrini belə söyləmişdir: "Din qloballaşma dövründə beynəlxalq münasibətlərdə və mədəniyyətlərarası dialoqda mühüm rol oynayır. Azərbaycanın tolerantlıq və mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə zəngin tarixi var, buna görə də bu məsələlərin məhz Azərbaycanda müzakirə edilməsi olduqca əhəmiyyətlidir... Böyük məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanda heç vaxt dinlərarası zəmində münaqişə yaranmayıb və insanlar arasındakı münasibətlər daima qarşılıqlı ehtirama əsaslanıb. Müxtəlif dini təriqətlərə mənsub olan Azərbaycan

vətəndaşları yüzilliklər ərzində sülh və əmin – amanlıq şəraitində yaşayıblar, bu ənənə bu gün də davam etməkdədir. Bu işdə xalqımızın multikulturalizm, humanizm və qarşılıqlı hörmət ənənələri çox böyük rol oynayıb."

05.10.2012-ci ildə keçirilən Bakı Beynəlxalq Forum daxilində "Multikulturalizm və mədəni özdərk" adlı tədbirdə İtaliyanın xarici işlər naziri və morderator vəzifəsini daşıyan Frattini Franko belə demişdir: «Biz sıx əlaqəli dünyada yaşayırıq. Qlobal böhranlar da bu dünyada yaşayan hər kəsə təsir göstərir. Bu qlobal problemlər ən çox Avropada özünü göstərir. Biz multikulturalizm haqqında qlobal düşünməliyik. Universal hüquqlarda güzəştə getməməliyik. Dövlət özü universal hüquqları təmin etməlidir. Mən çox sevinirəm ki, Azərbaycanda müxtəlif dinlərin nümayəndələri sülh şəraitində yaşayır. Dünənki çıxışında da Prezident İlham Əliyev qeyd etdi ki, mədəniyyətlər arasında dialoq təmin edilməlidir."

Bu gün Azərbaycanda multikulturalizm modeli yeni anlayış olsa da, əslində, hər kəs bunun nədən bəhs etdiyini və humanist mənsəb daşıdığını dərk edir. Əslində, multikulturalizm insan mövcudluğunun əsasıdır.

Bu gün dünyanın dörd bir tərəfində həm xristian, həm də islam etiqadlı insanlar yaşayır. Təkcə islam və xristian dini deyil, insanların digər dinlərə də etiqadı mövcuddur.İslam dini ədalətli din olduğundan bu din nümayəndələri digər dinə etiqad göstərən xalqlara daha ədalətlə və hörmətlə yanaşmalıdırlar. Eləcə də öz dinimizə - islam dininə hörmət və ehtiramı digər din nümayəndələrindən səbr və təmkinlə gözləməli və tələb etməliyik. Ölkəmizdə əsrlərdən bəri müxtəlif xalqların nümayəndələri ilə çiyin -çiyinə yaşayan azərbaycanlı müsəlman xalqları digər dinlərə hər zaman hörmətlə yanaşmış və ehtiram göstərmişlər. Bu gün biz islamdakı ədalət ideyası ilə xristianlıqdakı mərhəmət ideyasının müxtəlif xalqları necə birləşdirdiyinin şahidi oluruq.

Ölkəmizin başçısı keçirilən müxtəlif Forumlarda cəmiyyətimizin həyatında multikulturalizm və mədəniyyət, humanizm, din azadlığı və s. anlayışlarını dönə - dönə vurğulamışdır. Prezident İlham Əliyevlə Rusiya Federesiyasının Prezidenti V.V.Putinin həmsədrliyi ilə 4 – 5 oktyabr 2012 il tarixli "XXI əsr – ümidlər və çağırışlar" devizi altında keçirilmiş II Bakı Beynəlxalq Humanitar Forumunun müzakirə mövzularından biri müasir dövrdə xüsusi aktuallıq qazanmış multikulturalizm anlayışı ilə bağlı olmuşdur. Azərbaycanın multikulturalizmə böyük önəm verdiyini vurğulayan Avropa Parlamentinin üzvü, Paris şəhərinin 7 –ci rayonunun meri, xanım Raşida Dati də ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələrinin qarşılıqlı hörmət və anlayış içində bir

arada yaşadığını diqqətə çatdırmışdır. "Cəmiyyətin həyatında multikulturalizm" mövzusunda dəyirmi masaya Avropa parlamentinin üzvü, xanım Raşida Dati, Malayziya XİN –in Diplomatiya və Xarici Əlaqələr İnstitutunun Baş direktoru Dato Ku Caaffar Ku Şaari, Bakı Slavyan İnstitutunun rektoru, professor, AMEA nın müxbir üzvü Kamal Abdullayev rəhbərlik edirdilər. Forumda dünyanın 39 ölkəsindən müxtəlif elm və ictimai xadimlər iştirak edirdilər.Məhz belə tədbirlər, Forumlar, müxtəlif konfrans və yığıncaqlarda cəmiyyətin elit təbəqəsi əhatəsində yeni – yeni fikirlər irəli sürülür, müxtəlif sayda çıxışlar edilir, diskussiyalar aparılır. Bu irəliləyişdir, bu inkişafdır.Əlbəttə ki, bütün bu inkişaf ölkə başçısının danılmaz zəhməti ilə bağlıdır.

16.08.2012-ci il tarixdə, çərşənbə axşamı, müqəddəs Ramazan bayramı ayı münasibəti ilə açdığı iftar süfrəsində Prezident İlham Əliyev belə söyləmişdir:

"Azərbaycan o ölkədir ki, burada millətlər, xalqlar, dinlər görüşür, birləşir və bir ailə kimi yaşayırlar. Bugünkü reallıqlar ondan ibarətdir ki, Azərbaycan həm Xəzər hövzəsində, həm Türk dünyasında, həm Qafqazda özünəməxsus yerə malikdir. Azərbaycan dünya miqyasında böyük hörmətə malikdir. Bunun əyani sübutu keçən ilin oktyabr ayında BMT Təhlükəsizlik Şurasına keçirilən seçkilərdir. Dünyanın 155 ölkəsi Azərbaycanın namizədliyini dəstəkləmişdir, bizə inamını göstərmişdir. Biz bu inamı doğrulduruq. Təhlükəsizlik Şurasındakı fəaliyyətimiz çox ciddidir, səmimidir."

Daha sonra o, çıxışında belə söyləmişdir: "Ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur. Eyni zamanda, dövlət siyasətinin müəllifidir. Bu gün Heydər Əliyev siyasəti bütün istiqamətlərdə davam etdirilir: – xarici siyasətdə, daxili siyasətdə, din-dövlət münasibətlərinin tənzimlənməsində, sosial məsələlərin həllində. Sadəcə olaraq, həyat davam edir, Azərbaycan inkişaf edir. Qarşımıza yeni çağırışlar çıxır, yeni məsələlər həll olunur.Azərbaycan çox dinamik inkişaf edir. Ancaq inkişafımızın əsas istiqamətləri ulu öndər tərəfindən qoyulmuşdur. Hesab edirəm ki, bu gün Azərbaycanda din-dövlət münasibətləri nümunəvi xarakter daşıyır. Bu münasibətlər nə qədər güclü olarsa, cəmiyyətdə bir o qədər də sülh, əmin - amanlıq və inkişaf olacaqdır. Azərbaycan müasir dövlətdir, dünyəvi dövlətdir.

Eyni zamanda, öz milli və dini ənənələrinə sadiq olan dövlətdir. İslam dəyərləri bizim milli mənəvi dəyərlərimizin tərkib hissəsidir və müqəddəs Ramazan ayı bütün dövrlərdə Azərbaycan xalqının qəlbində yaşamışdır. Sadəcə olaraq, müstəqillik əldə etdikdən sonra bu bayram rəsmi bayram kimi qeyd edilir. Milli mənəvi dəyərlərə söykənən, inkişafda olan gənc, müstəqil Azərbaycan

həm iqtisadi, həm siyasi, həm də xarici siyasət sahələrində böyük uğurlara nail olmuşdur. Ancaq gələcəyimiz, gələcək inkişaf üçün milli dəyərlər daim diqqət mərkəzində olmalıdır, qorunmalıdır. Gənc nəsil milli dəyərlər əsasında tərbiyə edilməlidir, xüsusilə indiki zəmanədə. Qloballaşan dünyada bəzi hallarda sərhədlər silinir. Bəzi hallarda ölkələr arasında sərhədlər, mənəvi sahədə sərhədlər pozulur, sərhədləri keçirlər. Buna yol vermək olmaz. Bizi xalq kimi qoruyub saxlayan milli mənəvi dəyərlərimizdir, islami dəyərlərimizdir, dilimizdir, ədəbiyyatımızdır.... Biz müstəqil ölkəyik. Müstəqilliyimizin artıq 20 illik yubileyini qeyd etmişik. Müstəqil ölkə kimi müstəqil siyasət aparırıq."

Bu misraları oxuduqca, ölkə rəhbərinin gənclərin qayğısına qaldığını, çıxışının əvvəlini də, sonunu da məhz gələcəyimizlə, gənc nəslin inkişafı ilə bağladığını, yetişməkdə olan cavanların, cənclərin milli dəyərlər əsasında tərbiyələndirilməsini, milli – mənəvi dəyərlərin, islamı dəyərlərin itməməsini tövsiyə etdiyini görürük.

Bir daha Forumdakı çıxışa dönək: 5 oktyabr 2012-ci il II Bakıda keçirilən Forumda Prezident belə söyləmişdir: II Forumun təşkili əslində, onu göstərir ki, I Forum çox uğurlu keçmişdir. Əminəm ki, bundan sonra III, IV,V Forumlar keçiriləcəkdir və artıq bu gözəl ənənə yaranmaqdadır.

Bakıda Humanitar Forumun keçirilməsi təsadüfi deyildir. Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğöu bir diyar olmuşdur. Əsrlər boyu müxtəlif xalqların, dinlərin nümayəndələri Azərbaycanda bir ailə kimi, sülh, əmin – amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Bu müsbət meyillər bu gün də davam edir. Mən əminəm ki, bu meyillər gələcəkdə daha da gücləndiriləcək və Azərbaycan uğurla inkişafını davam edəcəkdir".

Prezident daha sonra belə söyləmişdir: "Tarixin bütün dövrlərində Azərbaycan dini, milli və mədəni dəyərlərə və müxtəlif dinlərin, millətlərin, mədəniyyətlərin, sivilizasiyaların mənsublarına münasibətinə görə, sözün əsil mənasında, tolerantlıq nümunəsi olmuşdur. Nisbətən yeni anlayış olmasına baxmayaraq, multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Bir daha demək istəyirəm ki, multikulturalizm bizim həyat tərzimizdir. Multikulturalizmin alternativi özünütəcriddir. XXI əsrdə qloballaşan dünyada hesab etmirəm ki, hər hansı bir dövlət öz gələcəyini özünütəcrid prinsipləri əsasında qurmağa cəhd etsin".

Prezidentin çıxışı hər bir azərbaycanlını düşündürməli və hər bir kəs anlamalıdır ki, həqiqətən də, keçən əsrlə müqayisədə Azərbaycan qat-qat irəli getmiş, inkişaf etmişdir. Sivil ölkələr siyahısında adı çəkilən Azərbaycanda təkcə

paytaxt Bakıda deyil, onun digər şəhərlərində də böyük işlər gedir. Bu faktdır və danılmazdır ki, Azərbaycan günü-gündən inkişaf edir, çiçəklənir. Əsrlər boyu xalqımıza xas olan multikulturalizm anlayışı XXI əsrdə Azərbaycanda bir daha təsdiq olunur.

**ƏDƏBİYYAT**


1. "İnsan hüquqları Şurasının Azlıq məsələləri üzrə Forumu" nun V Sessiyası. BMT. Cenevrə. 28 noyabr. 2012
2. "Dövlət və Din: Dəyişən dünyada tolerantlığın gücləndirilməsi" I Beynəlxalq Bakı Forumu. 19 dekabr. 2011
3. II Bakı Beynəlxalq Humanitar Forumu. 05.10. 2012


**Açar sözlər:** multikulturalizm, qloballaşma, tolerantlıq, azərbaycançılıq, din.

***Сехрана Касими (Азербайджан)***

**Толерантность и мультикультурализм в изменяющемся мире**

В данной статье автор касается тем, которые отвечают вопросам сегодняшнего дня. Проведённые в Азербайджане различного рода форумы и мероприятия получили своё место в статье. Актуальность является важной составляющей данной статьи. Освещается уважение Азербайджанского народа по отношению к различным вероисповеданиям.

**Ключевые слова:** мультикультурализм, глобализация, толерантность, азербайджанство, религия.

***Sehrana Gasimi (Azerbaijan)***

**Tolerancy and multiculturalism in modifying world**

In this article the author reviews topics, which respond to the questions of current time. The various forums and events arranged in Azerbaijan have been reported here. Actuality is the main component of this article. The respect of Azeri nation towards different faiths and religions is illuminated by the author.

**Keywords:** multiculturalism, globalization, tolerance, Azerbaijanism, religion.

*UOT 7:04*

***Xəzər Zeynalov***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***
***(Azərbaycan)***

# ŞAMAXI, QOBUSTAN VƏ İSMAYILLI ŞƏHƏRLƏRİNDƏKI HEYDƏR ƏLİYEV MƏRKƏZLƏRİNİN BƏDİİ-ESTETİK TƏRTİBATI

Ulu öndər Heydər Əliyevin bədii obrazının təcəssümü müasir Azərbaycan incəsənətinin, xüsusən monumental sənətin əsas mövzularından biridir. Təkcə Azərbaycanın deyil, bir çox xarici ölkələrin rəssam və heykəltəraşları bu mövzuya müraciət etmiş, xalqımızın ümummilli liderinin bənzərsiz obrazını yaratmışlar.

Hazırda respublikamızın əksər bölgələrində Heydər Əliyevin xatirəsinə həsr olunmuş möhtəşəm mərkəzlər, zəngin xatirə-memorial muzeyləri fəaliyyət göstərir. Onun bədii obrazını əks etdirən əsərlərin bir çoxu burada toplanmışdır. Belə mərkəzlərdən üçünə – Şimal-Şərq bölgəsində yerləşən Şamaxı, Qobustan və İsmayıllı şəhərlərindəki mərkəzlərə nəzər salaq.

Şamaxı şəhərindəki Heydər Əliyev mərkəzi möhtəşəmliyi, habelə mühüm ictimai və maarifçi əhəmiyyəti ilə diqqəti cəlb edir. Mərkəzdə Heydər Əliyev muzeyi, konfrans zalı, kitabxana, sərgi salonu, kompüter mərkəzi və s. yaradılmışdır. Mərkəz 2007-ci ilin mayında əvvəlcə muzey kimi fəaliyyətə başlamış, sonra onun statusu genişləndirilmişdir.

Mərkəzin binası Şamaxı şəhərinin dağlıq hissəsində, təbii hündür relyef üzərində yerləşmişdir (layihə müəllifi memar Ələddin Musayevdir). Küçədən binaya qalxmaq üçün ağ mərmərlə üzlənmiş pillələr düzəldilmiş, ətraf abadlaşdırılmış və yaşıllaşdırılmışdır. İki mərtəbəli bina ağ üzlük daşla üzlənmişdir. Binanın ikinci mərtəbəsinin mərkəzində belveder tipli geniş bağlı çıxıntı vardır; interyerdə bu hissə ikinci mərtəbədəki ekspozisiya zalının bir hissəsini təşkil edir. Çıxıntı birinci mərtəbədə, mərkəzi giriş qapısı üzərində sütunlar üzərində dayanan yarıörtülü qalereya əmələ gətirir və mərkəzi fasadın monumentallığını artırır.

Mərkəzin interyeri digər mərkəzlərlə oxşar xüsusiyyətlərə malikdir. Ekspozisiyaların tünd qəhvəyi rəngli materiallarla işləmnəsi Xırdalan və Yasamal

mərkəzlərini xatırladır. Lakin Şamaxıdakı mərkəzin interyerindəki əsas rəng tonu qəhvəyi yox, ağdır. Hər iki mərtəbənin döşəməsi sarıya çalan, yüksək cilalı ağ mərmərlə örtülmüşdür; tavanlar isə soyuq ağ rəngdədir. Ağ rəngin müxtəlif çalarları psixoloji komport yaratmaqla bərabər həm də interyerə rəvan, dinamik möhtəşəmlik verir.

İki mərtəbə arasında, zalın ön hissəsində iki geniş açıq sahə vardır; bu iki açıq sahə hər iki mərtəbənin interyerini sanki birləşdirir. Birinci mərtəbədən baxmaqla tavandakı geniş açıqlıqdan ikinci mərtəbənin tavanını görmək mümkündür; ikinci mərtəbədə açıq sahə ağ mərmərdən olan məhəccərlə əhatələnmişdir. Bu təcrübəyə bəzi digər mərkəzlərdə, misal üçün, Qobustan regional mərkəzində rast gəlirik. İnteryerin sol hissəsində yerləşən, ikinci mərtəbəyə qalxan pilləkən üçün də eyni tipli mərmər məhəccərdən istifadə olunmuşdur.

Binanın hər iki mərtəbəsinin bədii tərtibatında ümumi dizayn işləri ilə yanaşı, incəsənət əsərlərindən də istifadə olunmuşdur. Mərkəzin birinci mərtəbəsində, giriş qapısı ilə üzbəüz Heydər Əliyevin büstü qoyulmuşdur. Büstün müəllifi akademik Ömər Eldarovdur. Klassik üslubda işlənmiş büst zahiri möhtəşəmliyi ilə diqqəti cəlb edir; bununla belə bu əsərdə müəllifin orijinal ifadə vasitələri əks etdirmək meylləri nəzərə çarpmır. Obrazın monumental, lakin xeyli sxematik xarakter daşıyan, kanonlaşmış təsiri bağışlayan görünüşünü Heydər Əliyevin bir çox digər heykəllərdə də müşahidə etmək olar.

Büst ağ mərmərlə üzlənmiş səkkiz üzlü uca və nisbətən nazik tumba üzərində dayanır. Heykəl, kompozisiyası zal ilə çatmatağ vasitəsilə əlaqələndirilən örtülü qalereyada nümayiş etdirilir. Qalereya ilə üzbəüz, giriş qapısının önündə yerə əl işi olan dairəvi formalı ornamental xalça salınıışdır. Xalçanın salındığı yerin üstündə, tavanda da eyni formalı, işıqlarla bəzədilmiş dairəvi qabartma bəzəklər vardır. Şeyx Səfi xalça məktəbi ənənələrinin əks etdirən bu xalça muzeyə Ərdəbil şəhərinin nümayəndə heyəti tərəfindən hədiyyə olaraq verilmişdir.

Mərkəzin ekspozisiya zallarının (hər mərtəbədə bir zal olmaqla) ümumi həcmi 1200 kv. metrdir. Burada cəmi 549 eksponat mühafizə olunur. Eksponatların 261-i ekspozisiyada, qalanları isə fonda saxlanılır (2009).

Mərkəzin ikinci mərtəbəsində eksponatların sayı daha çoxdur. Ekspozisiya divarboyu stendlər və tumbalar formasında həll edilmiş, zalın mərkəzi hissəsi isə boş saxlanılmışdır; bu cəhət zalın daha geniş görünməsinə şərait yaradır. Stendlərdə ənənəvi olaraq Heydər Əliyevin həyatı və işini əks etdirən, ayrı-ayrı tarixi dövrlərə aid olan şəkillər əks olunur.

Bədii eksponatlar foto-sənəd tipli eksponatlardan xeyli azdır; əsas nümunə kimi Şamaxı sənətkarlarının əl işi olan iki süjetli xalçanı göstərmək olar. Xalçalardan birinin üzərində ümummilli lider Heydər Əliyevin və ölkə başçısı cənab İlham Əliyevin Bakı şəhərinin (Qız qalasının) fonunda qarşı-qarşıya şəkilləri toxunmuşdur. Şəklin altında ulu öndərin «İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü işləri İlham Əliyev başa çatdıra biləcək» sözləri toxunmuşdur. Xalçanın tünd qırmızı rəngin üstün olduğu haşiyəsi rombvari həndəsi ornamentlərlə bəzədilmişdir.

İkinci xalçanın mərkəzində Heydər Əliyevin portreti toxunmuşdur. Xalçanın dörd cərgə haşiyəsindən biri enli olub islimi tipli iri ölçülü ornamentlərlə bəzədilmişdir. Xalçanın kolorit həllində göy və qırmızı rənglərin növbələşməsi üstünlük təşkil edir. Xalçanın alt hissəsində, portretdən aşağıya doğru olan hissədə uzunsov formalı həndəsi göl yerləşdirilmişdir. Görün mərkəzində formaca Azərbaycanın rəsmi simvolikasını xatırladan massiv əsaslı, səkkiz bucaqlı ulduz toxunmuşdur.

Muzeydəki hər iki xalça kifayət qədər əhatəli bədii məzmuna və dəyərə malikdir. El sənətkarlarının böyük həvəslə toxuduğu xalçalar muzey zalına xüsusi yaraşıq verir. Lakin xalçalar ekspozisiyanın mərkəzə yaxın hissələrində yerləşdirilməyiblər. Hər iki xalça ekspozisiyanın küncündə, bir-birinin yanında divardan asılmışlar. Bu isə onların bədii simvol olaraq dominant rolunu, həmçinin interyerin bədii tərtibatındakı ardıcıllığı, tamlığı və harmonikliyi azaldır.

Mərkəzin yerləşdiyi ərazi Heydər Əliyevin adını daşıyan park ilə birləşir. Park mərkəzin binasının arxasında və bir qədər yan hissəsindədir. Belə quruluş ərazinin relyef xüsusiyyətlərindən irəli gəlir. Həm mərkəz və onun ətrafındakı ərazi, həm də park perpendikulyar kəsişən iki mərkəzi küçənin qarşısında, yüksəklikdədir. Parkın və mərkəzin ətrafındakı zonanın mədəni landşaftının abadlaşdırılmasında terras formalarından da istifadə olunmuşdur.

Parkın mərkəzində Heydər Əliyevin tunc heykəli ucalır (2007; heykəltəraş Ömər Eldarov, memar Əliheydər Mirzəyev). Heykəl tünd qəhvəyi rəngli cilalı mərmərlə üzlənmiş pyedestal üzərində qoyulmuşdur. Pyedestalın alt hissəsi geniş altlığa, altlıq isə onu dörd bir yandan əhatə edən üç pilləyə keçir. Bunlar hamısı tünd qəhvəyi qranitlə üzlənmişdir. Heykəlin qarşısındakı ərazi isə ağ mərmərlə örtülmüşdür.

Heydər Əliyevin Şamaxı şəhərindəki monumental heykəli yüksək dinamikaya və düzgün proporsiyalara malik olub formanın orijinallığı, ifadəliliyi ilə

seçilir. Bu baxımdan heykəl mərkəzin birinci mərtəbəsindəki büstdən yaxşı mənada seçilir. Heykəltəraş ulu öndərin müdrikliyini, qətiyyətini, idarəçilik keyfiyyətlərini pozanın duruşunda və şərti hərəkiliyində dolğun surətdə ifadə edə bilmişdir. Heykəlin sağ ayağının azca irəli çıxması, sağ əlinin gövdəyə toxunması, sol əlin isə aralanraq bir qədər arxaya getməsi obraza təbii və inandırıcı dinamika verir. Hər iki əlin barmaqlarının müxtəlif pozalarda verilməsi (açıqdan yarıbükülüyədək) obrazın obyektiv prinsipiallığını, psixoloji simasının bütövlüyünü və dönməzliyini, işgüzarlığını və idarəçilik qabiliyyətini, nəhayət, sırf insani keyfiyyətlərini qabarıq əks etdirir. Təcrübəli heykəltəraş «kiçik detallar» vasitəsilə obrazın daxili simasının böyük prinsiplərini çox sərrats ifadə etmişdir.

Heydər Əliyevin xatirəsinə yaradılmış böyük mərkəzlərdən biri də Qobustan rayonunda fəaliyyət göstərir. Bu, Heydər Əliyev irsini araşdırma mərkəzinin Qobustan regional bürosudur. Respublikanın bir neçə şəhərində belə rejional bürolar yaradılmışdır.

Mərkəz Qobustan şəhərində, Bakı-Şamaxı şossesinin 92-ci kilometrində yerləşir. Mərkəzin ərazisində 5 hektarlıq boyük bir park salınmış, yaşıllaşdırma və abadlıq işləri aparılmışdır. Əvvəllər çöllük sahə olan bu ərazidə yüzlərlə ağac əkilmişdir.

Mərkəz üçün böyük, ikimərtəbəli bina tikilmişdir. Milli və müasir memarlıq xüsusiyyətlərini əks etdirən bu bina rəngli-güzgülü şüşə və yüksək cilalı boz və qəhvəyi mərmərlə örtülmüşdür. Əsas üzlük mərmər boz, hüdudlayıcı (kant) mərmərlər isə qəhvəyi rəngdədir. Əslində boz və qəhvəyi rənglər ciddi bədii effekt yaratmır; bununla belə binanın möhtəşəm memarlıq həlli fonunda rəng uyğunsuzluğu o qədər də nəzərə çarpmır. Binanın fasadı güzgülü şüşə ilə örtülü beş böyük, uca tağdan ibarətdir. Məhz bu tağlar fasada monumental görünüş, memarlıq əzəməti bəxş edir. Üç mərkəzi tağ bir qədər irəliyə doğru çıxmışdır; iki kənar tağ isə bir qədər arxadadır. Fasadın belə quruluşu onun orijinallığını və görünüşünün effektivliyini artırır.

Mərkəz 23 oktyabr 2007-ci ildə ölkə başçısının iştirakı ilə təntənəli surətdə açılmışdır. Onun tərkibindəki muzey isə 2009-ci ilin yanvarından etibarən fəaliyyət göstərir.

Mərkəzin binasından sağa və sola doğru divarboyu açıq tağlar uzanır. Yerli memarlıq materialları ilə üzlənmiş bu tağlar mərkəzin binsını solda və sağda yerləşən yardımçı tikililərlə əlaqələndirir. Burada uşaq yaradıcılıq mərkəzi, infrastruktur obyektləri və s. yerləşir.

İnteryer genişliyi və effektiv işıqlandırılması ilə diqqəti cəlb edir. Onun bədii tərtibatında növbələşən tünd və açıq qəhvəyi rənglər, həmçinin açıq-sarı rəng tonları üstündür. Eksponat lövhələri, sütun altlıqları və bordürlər (divarın döşəməyə birləşdiyi yerdə) tünd qəhvəyi rəngdədir (ağac və mərmər materiallar əsasında). Döşəmə açıq qəhvəyi rəngli üzlük mərmərlə üzlənmişdir. Mərkəzin divarları açıq-sarı rəngdədir. Əsasən isti rənglərdən təşkil olunmuş bu quruluş tərzi interyerə sakit ekspressiya, tamlıq, psixoloji komfort verir.

İnteryerin memarlıq həllində diqqəti cəlb edən əsas konstruktiv cəhət isə hər iki mərtəbənin zalının mərkəzdəki nəhəng açıq sahə vasitəsilə birləşdirilməsidir (bu formadan bir qədər məhdud ölçülərdə Şamaxıdakı mərkəzin interyerində istifadə olunmasını xatırlayaq). Oval şəkilli bu açıqlıq hər iki mərtəbənin bədii tərtibatını əlaqələndirərək onlara ümumi konstruktiv ritm, bədii tamlıq verir. İkinci mərtəbədə bu geniş oval açıqlıq metal məhəccərlə məhəccərlənmişdir. İkinci mərtəbənin tavanında, ortada asılmış dördyaruslu, dairəvi quruluşlu, metal karkaslı çılçıraq hər iki mərtəbənin əlaqələndiricisi kimi mühüm bədii-estetik əhəmiyyətə malikdir. Üzüm salxımı formasında olan çılçırağın plafonlarının sayı yuxarı yarusdan aşağı yaruslara doğru azalaraq on ikidən birə enir.

Mərkəzdə geniş, əhatəli konfrans zalı, beynəlxalq elektron kitabxana yaradılmışdır.

Hər iki mərtəbədə ekspozisiyalar divar boyu düzülmüşdür. Birinci mərtəbədə, zalın mərkəzində bir-birindən bir qədər aralı iki dördhissəli eksponat tumbası da vardır. Bu tumbalar zalın mərkəzi hisəsində bədii effekt doğurmaqla bərabər, həm də eksponatların nümayişi üçün əlavə məkan yaradır.

Eksponatların əksəriyyətini böyüdülmüş fotolar təşkil edir (ekspozisiyalarda cəmi 252 foto vardır; 2009). Fotolar 8 vitrində qruplaşdırılmış 31stenddə yerləşdirilmişdir. Fotolardan başqa, ekspozisiyada həmçinin mühüm tarixi sənədlərin böyüdülmüş surətləri də saxlanılır.

Mərkəzin parkında Heydər Əliyevin möhtəşəm tunc heykəli ucalır (heykəltəraş Ö.Eldarov). Bu heykəl müəllifin Şamaxı şəhərində ucaltdığı heykəlin demək olar ki, eynidir. Ona görə də hər iki heykəlin bədii-estetik xüsusiyyətləri barədə eyni mülahizələri yürütmək olar. Qobustandakı heykəldə gözə dəyən əsas zahiri fərq yalnız bir qədər arxaya yönəlmiş sol əlin barmaqlarında müşahidə edilir. Şamaxı monumentində bu barmaqlar dramatik və fərqli açılış bucaqlarına malikdirlərsə, Qobustandakı abidədə barmaqlar sabit psixoloji dinamikaya malik olub ümumən yarıbükülmüş vəziyyətdədir.

Lakin heykəlin pyedestal həlli Şamaxıda olduğundan xeyli fərqlidir. Daha tünd qəhvəyi mərmərlə üzlənmiş pyedestal dairəvi, geniş radiuslu, massiv, eyni tipli qranit dairə üzərində dayanmışdır. Şamaxıdakı parka nisbətən Qobustanda açıq sahə daha geniş olduğundan burada pyedestalın daha massiv baza üzərində qurulmasına təbii imkanlar vardır ki, bundan da məharətlə istifadə edilmişdir. Dairənin ön hissəsindən heykələ doğru bir neçə pillə salınmışdır.

Şimal-Şərq bölgəsindəki möhtəşəm mərkəzlərdən biri də İsmayıllıda yerləşir. Buradakı Heydər Əliyev mərkəzinin inşasına 2007-ci ildə başlanılmışdır (memar Mirələsgər Seyidov). Binanın konstruksiyasının xarakterik cəhəti onun nisbətən yüksək kürsülük üzərində yerləşməsidir; bu, birinci mərtəbənin altında əlavə mərtəbənin yerləşməsinə şərait yaradır. Həmin bu alt mərtəbədə kompüter mərkəzi, həmçinin uşaq və yeniyetmələr üçün müxtəlif dərnəklər yerləşir. Ümumiyyətlə bölgələrdəki Heydər Əliyev mərkəzlərinin mühüm xüsusiyyətlərindən biri də onların cəmiyyətlə, yerli əhali ilə möhkəm və canlı təmas qurması, yaradıcılıq studiyaları, dərnəklər vasitəsilə gənc nəslin istedadının inkişaf etdirilməsinə yardım göstərməsidir. Bütün bunlar bu mərkəzlərin ictimai-humanitar və tərbiyəvi funksiyasını daha da möhkəmləndirir. İsmayıllı şəhərindəki mərkəzdə uşaq və gənclər üçün «Bacarıqlı əllər» adlı xüsusi bölmə təşkil edilmişdir. Burada aviamodelizm, rəssamlıq, heykəltəraşlıq, şahmat və s. dərnəklər fəaliyyət göstərir. Uşaqların əl işi olan maraqlı modellər tamaşaçıların böyük marağına səbəb olur. Belə mükəmməl modellərin hazırlanması uşaqların zehni inkişafını sürətləndirir, onların fitri istedad və qabiliyyətinin inkişaf etməsinə, istiqamətlənməsinə şərait yaradır. Bu kimi dərnəklər bir sıra digər mərkəzlərdə, o cümlədən Qobustandakı mərkəzdə də vardır.

Alt mərtəbədəki ekspozisiyada İsmayıllı rayonuna xas olan qiymətli xalq yaradıcılığı nümunələri qorunub saxlanılır. Lahıc sənətkarlarının toxuduğu xalçalar interyerə xüsusi əlvanlıq bəxş edir. Burada həmçinin məşhur Basqal kələğayıları da saxlanılır. İnteryerin ümumi sahəsi 1884 kv. m.-dir.

Binanın birinci mərtəbəsinin interyeri maraqlı və nisbətən mürəkkəb quruluşa malikdir. Dairəvi formaya malik ekspozisiya zalının sahəsi 600 kv. m.-dir. Mərkəzdə isə ikinci mərtəbəyə aparan enli, mərmərlə üzlənmiş pilləkən yerləşir. Ekspozisiyanın əsasını divarlara bərkidilmiş irihəcmli fotosurətlər təşkil edir. Bu fotolarda Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə Bakıda ucaltdığı möhtəşəm binaların, tikililərin görüntüləri (Prezident sarayı, Gülüstan sarayı, Televiziya qülləsi, aeroport və s.) əks olunmuşdur.

Ekspozisiyanın əsas eksponatlarından biri də Heydər Əliyevin irihəcmli portretidir. Yaglı boya ilə işlənmiş bu monumental xarakterli tablonun müəllifi əməkdar rəssam Sakit Məmmədovdur.

Mərkəzin qarşısında abadlıq işləri aparılmış, buradakı bağ-park ansamblı yenidən qurulmuş, burada yaraşıqlı fəvvalər düzəldilmişdir. Bağ-park ansamblının ümumi sahəsi 4.4 hektardır. Parkın girəcəyində Heydər Əliyevin hündürlüyü 3.2 m. olan qranit heykəli ucalır. Heykəlin mərmərlə üzlənmiş postamentinin hündürlüyü 2.2 m.-dir. Ərazidə möhtəşəm bayraq meydanı da yaradılmışdır. Buradakı Dövlət bayrağı dirəyinin hündürlüyü 22 metrdir.

Bu gün Heydər Əliyev mərkəzləri ictimai-mədəni həyatımızın əksər sahələrində yaxından iştirak edir. İnsanlarda müasir estetik zövqün formalaşdırılmasında, onların maariflənməsində, gənc nəslin milli-vətənpərvərlik ruhunda tərbiyə edilməsində, istedadlı gənclərin yetişdirilməsində bu mərkəzlərin müstəsna rolu vardır. Buradakı çoxsaylı rəsm, heykəltəraşlıq, tətbiqi-sənət əsərləri böyük bədii əhəmiyyətə malikdir. Ümid edirik ki, onların sistemli şəkildə öyrənilməsi davam və inkişaf etdiriləcəkdir.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev və mədəniyyət (üç cilddə). Birinci cild, Bakı, «Nurlar» nəşriyyat-poliqrafiya mərkəzi, 2008, 492 s.
2. Heydər Əliyev və mədəniyyət (üç cilddə). İkinci cild, Bakı, «Nurlar» nəşriyyat-poliqrafiya mərkəzi, 2008, 528 s.
3. Əfəndiyev T.İ. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı, ADMİU-nun nəşriyyat-poliqrafiya mərkəzi, 2011, 260 s.

**Açar sözlər:** Heydər Əliyev mərkəzləri, bədii tərtibat, bədii obraz, incəsənət əsəri, monumental heykəltəraşlıq.

*Хазар Зейналов (Азербайджан)*

**Художественно-эстетическое оформление центров Гейдара Алиева в городах Шемаха, Гобустан и Исмаиллы**

В статье освещаются три региональных центра Гейдара Алиева – в городах Шемаха, Гобустан и Исмаиллы, расположенных в северо-восточной части республики. Проводится подробный искусствоведческий анализ, как произведений искусства, хранящихся в них, так и художе-

ственного оформления интерьера, а также благоустроенной территории, на которой находится данный комплекс.

**Ключевые слова:** центры Гейдара Алиева, художественное оформление, художественный образ, произведение искусства, монументальная скульптура.

***Khazar Zeynalov (Azerbaijan)***

**Artistic and aesthetic design of the centers of Haydar Aliyev in the cities of Shemakha, Gobustan and Ismailly**

In article three regional centers of Haydar Aliyev - in the cities of Shemakha, Gobustan and Ismailly, located in a north-east part of republic are shined. Detailed analysis of works of art stored in them, as well as interior decoration and landscaped areas where this is complex is situated carried out.

**Keywords:** Heydar Aliyev Centers, decorative design, artistic image, work of art, monumental sculpture.

*UOT 745.749*

***Kübra Əliyeva***
***sənətşünaslıq doktoru***
***(Azərbaycan)***

# ÜMUMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN OBRAZI İKİ XALÇAÇI RƏSSAM KAMİL ƏLİYEV VƏ TAHİR MƏCİDOVUN ƏSƏRLƏRİNDƏ

Xalçaçılıq sənəti dünya, təbiət hadisələri, dini təsəvvürlərlə qırılmaz surətdə bağlıdır. Onlar bizi əcdadlarımızın mənəvi aləmi, dünyagörüşü, ideologiyası ilə tanış edir. Quşların və quşabənzər varlıqların təsviri, Günəşi, Səmanı, Kainatı təcəssüm etdirir. Qədim Azərbaycan incəsənəti üçün səciyyəvi olan formaca dairəvi təkərşəkilli işarələr, Günəş rəmzləri səyyarələrə sitayişin geniş yayıldığını təsdiqləyir. Bu da ən qədim dinimiz olan Zərdüştlüklə əlaqədardır. Xalçaların dekorativlik və obrazlı ifadəlilik kimi yüksək estetik keyfiyyətləri bizə belə bir qənaətə gəlməyə imkan verir ki, Azərbaycanda xalçaçılıq sənəti qədim dövrlərdən mövcud olmuş, səciyyəvi yerli istehsala əsaslanmışdır və müasir dekorativ-tətbiqi incəsənət məhz bu möhkəm təməl üzərində inkişaf etməkdədir.

Xalçaçılıq Azərbaycanda əsrlər boyu mövcud olmuşdur. Hələ “tarix elminin atası” hesab olunan yunan tarixçisi Herodot (e.ə.485-425) bitki boyaları hazırlayan və parçalar üzərində yun naxışlar toxuyan Qafqaz sakinlərinin sənətkarlığından xəbər verirdi.

Cəmiyyətin bütün təbəqələrinin həyatında xalçaçılıq nümunələri daha kütləvi idi və geniş yayılmışdı. Toxuculuq istehsalı üçün tükənməz mənbə olan qoyunçuluğun inkişafı, gözəl və təbii boyaq bitkilərinin mövcudluğu xalçaçılığın yayılması üçün şərait yaratmışdı.

Xalqın kodlaşdırılmış müdrikliyi kimi müasir dövrümüzədək gəlib çatmış xalça, indiyə qədər sirri açılmamış məktub hesab oluna bilər. Xalçanın ecazkar ornamentinə nə qədər baxsan da, onun məğzini anlamağa cəhd etsən də, onda həmişə sirr qalmaqdadır. Xalça bizi ən qədim zamanlardan müşayiət etməkdədir. Obrazlı mücərrədləşdirmə, həndəsi ornamentlərin oyunu, toxumanın ayrı-ayrı çalarlarının uyğunlaşması, toxunuşun sıxlığı, rəng çalarlarının çoxsəsliliyi, sanki daha çox sevilən motivləri sirlərlə doldurur.

Azərbaycan xalçasının kompozisiyası, bir qayda olaraq, iki tərkibi ünsürə malikdir: orta hissə - "göl" və onu çərçivəyə salan "haşiyə". Orta hissə - xalq dili ilə desək "arasahə" adətən xalçanın əsas xarakterini müəyyən edir, haşiyə isə kompozisiyanı tamamlayır.

Xalçanı yaradanlar, bir qanun olaraq, orta hissə ilə haşiyəni həm rənginə, həm də bəzəmə metoduna görə məhdud surətdə qarşılıqlı əlaqədə toxuyurdular. Əsrlər boyu xalçaçı qadınlar onları əhatə edən gerçəkliyin təsvirlərindən istifadə etmişlər. Güclü şəkildə stilizə edilmiş bu təsvirlər, sanki keçmiş əsrlərdə yaşamış insanların inanclarını, qorxularını kodlaşdırılmış halda bizə çatdırmışlar. Azərbaycan xalçalarının ornamental dünyası məişət əşyalarının, bitkilərin, heyvanların, quşların, həşaratların həndəsiləşdirilmiş təsvirləri, ov səhnələri və möcüzəli mərasimlər ilə daha zəngindir. Azərbaycan xalçalarının ornament elementlərini təşkil edən müxtəlif həndəsi formalar - kvadratlar, romblar, üçbucaqlar, çoxguşəli bəzək ünsürlərindən olan ulduzlar da bura daxildir. Rəngin və koloritin semantikası da az əhəmiyyət kəsb etmir. Xalçaya tamaşa edərkən bəzən mənasının açıqlanması mümkün olmayan işarələrini oxuyarkən, sanki sirli aləmə düşürsən. Sanki bu aləmdə xəttin hər bir əyilməsi, hər bir buruğu, qıvrılması, daxilə doğru yönələn hər bir spiral və yaxud xırda ot müəyyən mənaya malikdir. Xalçaya tamaşa etmək sanki ecazkar, daim dəyişən buludlara diqqətlə baxmaqdır, bu buludlar da bir o qədər dərk olunmayan və izaholunmazdır.

Bizə uzaq əcdadlarımızın Yer kürəsi, kosmos, ətraf gerçəklik haqqında təsəvvürləri təcəssüm olunmuş xalçalar gəlib çatmışdır; qalan hər şey fantaziya və təxəyyüllə, təsəvvürlə dolğunlaşdırılmışdır.

Azərbaycan xalçaları xalqın məişətində qədimlərdən başlayaraq bu günə qədər geniş tətbiq edilirdi: insan xalça üzərində dünyaya gəlirdi, döşəmə və divarlar xalçalarla bəzədilirdi, ev əşyaları üçün nəzərdə tutulan xurcunlar, ərzaq ehtiyatlarının saxlanması üçün çuvallar, xarallar və yorğan – döşək üçün məfrəşlər, yük heyvanlarını soyuqdan qorumaq üçün çullar hazırlanırdı. Bu günə qədər dünyasını dəyişmiş insanları da "Sümüklük" adlanan xalça üzərində son mənzilə yola salırlar.

XX - XXI əsrlər Televiziya, video, kompüterlər, rəngli kinomatoqrafiya, açıqcalar, reproduksiyalar, jurnallar, plakatlar əsridir. Bu dövrdə əsrlərin qalığı olan xalça sənətinə yer varmı? Təbii ki, var çünki xalça sənəti bizim genetik kodlarımızın əks olunduğu bir məktubdur və xalq öz sevgisini, məhəbbətini, tarixini məhz rəngli yun ilmələr vasitəsilə yun ərişlər üzərində yazır və bu günə qədər yazmaqdadır. Doqrudur: Əcdadlarımızın yaratdıqları xalça nümunələrində onların heç birisinin adı qalmamışdır. Xalı toxuyan nə-

nələrəimiz isə nə qədər müdrük olsalarda məktəb yazı görməmişlər, lakin olnar, şedevrlar yaratmışlar. O şedevrlər ki, bu gün dünya muzeylərini bəzəyir. Sənətkarın qan yaddaşı və təxəyyülü ilə yaranan əsərlər bu gündə yaradılır. Olnarın sənət metodlarının necə olduğunun bariz nümunəsini olmuş bir hadisə ilə yada salmaq istərdim. Mən (məqalənin müəllifi), keçən əsrin 90-cı illərində Azərbaycan Dövlət İncəsənət və Mədəniyyət Universitetinin Dekorativ tətbiqi sənət kafedrasının "Bədii metal" fakültəsində işlədiyim illərdə III kurs "Bədii metal" fakültəsinin tələbələrini bir neçə müəllimlə bərabər Lahıca aparmışdıq. Bildiyiniz kimi Lahıc misgərlərinin yaratdıqları məişət əşyaları özlərinin zəngin bədii tərtibatına görə fərqlənirlər. Bütün kursun tələbələri ilə bir sənətkarın emalatxanasında onun necə işlədiyini diqqətlə nəzərdən keçirdirdik. Usta 40-45 yaşlarında olub, ucaboylu bir sənətkar idi. O, çəkic və ucu incə bıçaqla sürətlə mis səhəng üzərində mürəkkəb kompozisiya yaradırdı. Alətlərin mis üzərində yaratdığı səslərdən başqa bir kəsin səsi çıxmırdı. Usta həmin səhəngin gövdəsi üzərində, ayağından başlayaraq, cüssəli bir at təsvirini qazıb yaratdı. Sonra isə atın üzərində müharibəyə hazırlaşan kişi obrazını xırdalığına qədər döyərək qabın gövdəsinin orta kompozisiyasını bitirdi. İstər at, istərsə də, insan siluetlərində reallıq və dəqiqlik bizi o qədər təəccübləndirdi ki, mən sənətkardan soruşdum:

- Siz buradakı, rəsmləri kağız üzərində çəkə bilərsinizmi?

O utana-utana dedi:

- Mən məktəb görməmişəm, nə yaza, nə də çəkə bilirəm. Uşaqlıqdan atamın yanında saatlarla oturub və yavaş – yavaş bu sənəti öyrəndim. İş zamanı nə yaradacağımı əvvəlcədən bilmirəm və necə yaratdığımı da bilmirəm. Hətta naxışların adın da bilmirəm. Sadəcə olaraq, yaddaşımda qalıb.

Hər şey aydın idi, ənənə və güclü genetik yaddaş.

Azərbaycan xalçaçıları da eynilə genlərindən gələn kodlarla işləyirlər. Hər şey ənənəyə bağlıdır. Sənət isə, birbaşa nənədən başlayaraq davam edir.

Azərbaycan xalçaçıları əsrlər boyu bir – birindən fərqli yüz minlərlə xalı – xalçalar yaratmışlar. Süjetli xalçalar isə ən çox Təbriz və Qarabağ zonasında geniş tətbiq olunmuşdur. Toxuduqları xalçalarda keçmişdə olduğu kimi yenə də tariximizi yazırlar. Məsələn, Qarabağ xalçaçıları insan təsvirlərinə daha artıq yer vermişlər. XIX – XX əsrlərdə təsvir olunan insan rəsmi reallıqdan çox uzaq olsa da, lakin qadın və kişi təsvirlərini geyim nümunələrini bir – birindən ayırmaq mümkündür. XX əsr Qarabağ xalçaçılarının yaratdıqları süjetli xalçalar içərisində ən çox Vladimir İliç Leninin və bir də Nəriman Nərimanovun

portretləri olan xalçalara daha çox rast gəlinir. Lakin Azərbaycanın müstəqilliyi uğrunda durmadan çalışan böyük öndərimiz Heydər Əliyevin obrazı olan portret – xalçaların sayı isə demək olar ki, saysızdır. Onlar yüzlərcə və bəlkə də minlərcədir. Heydər Əliyevin portreti olan xalçalar bir - birlərindən kompozisiya, naxış və obrazın oxşarlığı cəhətdən müxtəlifdirlər. Onlar bəzən portretin arasahədəki qeyri - mütənasibliyi, üz cizgilərində rənginin düzgün verilməməsi ilə seçilsə də, lakin xalqın və ayrı – ayrı adı məlum olmayan xalçaçıların böyük öndərimiz Heydər Əliyevə olan sonsuz məhəbbətinin bəhrəsidir.

Təbii ki, böyük öndərimizin obrazını kətan, mərmər, xalça üzərində yaratmağa çalışan məşhur rəssamlarımız da az deyildir. Lakin mən bu məqalədə Heydər Əliyevin ən çox bəyəndiyi iki xalçadan danışmaq istəyirəm.

Bu xalçaların birincisi Azərbaycanın xalq rəssamı Kamil Əliyevə məxsusdur. Baxmayaraq ki, bu şəxsiyyət Azərbaycanda özünün çoxşaxəli sənəti ilə tanınırdı, lakin onu dünyada tanıdan onun portret xalçaları idi.

XX yüzilliyin 50-ci illərində Kamil Əliyev bir sıra süjetli xalçalar yaratmışdı. Süjetli xalçalar üzərində iş onun yaradıcılığında unikal xalçaların yaradılması meyli ilə səciyyəvidir. Kamil Əliyev qədim, rəngli və təsviri simvolikanı dərindən duyur və anlayırdı. Lakin eskizləri yaradarkən bu və ya digər ornamentin yaranma səbəblərini izah etməkdə çətinlik çəkirdi. Onun xalçaları sanki intuitiv surətdə toxunmuşdu. Və məhz bunun öz qanunauyğunluğu vardır. Həmin xalçalarda hər şey ilhama tabe edilmişdir.

Kamil Əliyev sevdiyi məxməri sürməyi və yaxud qızılı-oxra tonlarının gah təzadlılığına, gah uyarlığına, gah da gözlənilməz aksentinə nail olmaqla, rənglərin qarşılıqlı təsiri məsələsində də xüsusi zirəklik və peşəkarlıq nümayiş etdirirdi.

Keçən əsrin 60 - cı illərindən başlayaraq Kamil Əliyev dünyanın bir çox tanınmış şəxsiyyətlərinin portretlərini xalça üzərində böyük ustalıqla yaratmışdır. Belə portret - xalçalara Azərbaycanın böyük şairi Məhəmməd Füzulinin, Nizami Gəncəvinin, görkəmli Azərbaycan maarifçisi M.F.Axundzadənin, böyük rus şairi A.S.Puşkinin, Gürcü şairi Şota Rustavelinin, Mustafa Kamal Paşa Atatürkün, böyük Azərbaycan şairi, mütəfəkkiri, Hürufilik mübarizi İmadəddin Nəsiminin, Rabindranat Taqorun, M.Ə.Rəsulzadənin xalçaları aiddir.

Kamil Əliyevin üzərində bir ildən artıq işlədiyi böyük öndərimiz Heydər Əliyevin general geyimindəki portret – xalçası demək olar ki, rəssamın şedevr əsərlərindən biri hesab oluna bilər.

Kamil Əliyev portretçi-rəssam kimi Heydər Əliyevin xalça üzərində portretinin yaradılması haqqında uzun illər düşünmüşdür.

O, Heydər Əliyevi gənclik çağından tanıyırdı, dərin hörmət bəslədiyi və daim heyran qaldığı bu insanın surətini yaratmaq istəyirdi. Rəssamın xatirələrindən: “Dərhal deyim ki, bu, asan obraz deyildi. Gənc, gözəl olan bu şəxs məni özünün daimi səmimiyyəti ilə məftun edir, parlaq erudisiyası və natiqlik məharəti ilə heyrətə gətirirdi. Xalça üzərində portret təsvirini yaratmaq həmişə müşkül olmuşdur. Bu işdə nə kətan və nə də yağlı boya deyil, xalça ilmələri əsasdır. Xalçada buraxılmış səhvi düzəltmək demək olar ki, qeyri-mümkündür. Emalatxanada hazırlıq məqsədilə sulu boya ilə damalı kağız üzərində işlədiyim Heydər Əliyevin onlarca portretlərini bu günə qədər saxlamışam...” Nəhayət, uzunmüddətli axtarışlardan və eksperimentlərdən sonra 1980-ci ildə Kamil Əliyev Heydər Əliyevə həsr etdiyi ilk portret-xalçanı yaratdı. Qırmızı-bənövşəyi və çəhrayı-mavi, incə tonlarla qızılı-oxra və açıq sarı rəngli iki düzbucaqlı medalyonda, qırmızı fonda təqdim olunmuş oval medalyonda yerləşdirilmiş Heydər Əliyevin portreti öz gözəlliyi ilə nəzəri cəlb edir. Rəssam bu xalçanı yaradarkən obrazın maksimal ifadəliliyinə nail olmaq istəyirdi və o, psixoloji cəhətdən bitkin bir surət yarada bilmişdi. Rəssam bu surətdə müdrik rəhbər, uzaqgörən siyasi xadimin xüsusiyyətlərini daha parlaq şəkildə əks etdirmişdir.

Göy fonlu, geniş anahaşiyə öz ornamental quruluşuna və koloritinə görə oval medalyonun çərçivəsi ilə uğurlu ahəngdarlıq təşkil edir. Həm ornamental kompozisiya, həm də xalçanın koloriti böyük zövqlə tərtib olunmuşdur.

Kamil Əliyev bu əsərin yaradılmasını belə xatırlayırdı: “Görkəmli insanın portretinin yaradılması xeyli məsuliyyət tələb edirdi. Mən Heydər Əliyevin portretini onun general formasında yaratmaq, hamıya onun hələ gənc ikən layiq görüldüyü general rütbəsində olduğunu xatırlatmaq, bununla bizim gənc döyüşçülərimizi, çağırışçılarımızı ruhlandırmaq fikrində idim. 1998-1999-cu illər ərzində görkəmli siyasi xadimimiz Heydər Əliyevin döyüşçü, general formasında təsviri olan xalçanın iki variantını hazırladım. Heydər Əliyevin general formasında olan portret xalçasını mən iki dəfə yaratmışam. I variant başa çatdıqdan sonra həmin xalça Xalça Muzeyinin ekspozisiyasına verildi. Heydər Əliyevin general formasında portreti olan xalçanın ikinci variantının təntənəli surətdə təqdimatı “Gülüstan” sarayında keçirildi. Heydər Əliyevin portretinin sağında və solunda oğlum Cavanşirin hazırladığı iki ornamental tirmə naxışlı xalça asılaraq, ümumi kompozisiyanı tamamlayırdı.”.

Həqiqətən həmin tirmə naxışlı iki xalça triptix – kompozisiyası əmələ gətirməklə əsərə bitkinlik bəxş etmişdi.

Heydər Əliyevə həsr edilmiş ikinci portret xalçasını, rəssam Kamil Əliyev bu sənət əsərindən təqribən 8 il sonra yaratmışdı. Rəssam bu sənət əsərinin yaradılışı məqamına qədər xeyli axtarış yolu keçmiş, çoxlu eskizlər çəkmişdir. Sadə Azərbaycan zəhmətkeşindən Kamil Əliyevə ünvanlanmış bir məktub bu xalçanın yaradılması üçün səbəb, təkan olmuşdur. Həmin Azərbaycan vətəndaşı rəssamdan Heydər Əliyevin general formasında portret xalçasının yaradılmasını xahiş etmişdi.

Eskiz üzərində təqribən bir illik gərgin işdən sonra 1998-ci ildə bu nadir xalça yaradıldı. Kamil Əliyev bu xalçada özünün bütün istedadından və təcrübələrindən yararlanmışdı. Rəssamın xatirələrindən: "Çox şey çoxillik müşahidələrin, canlı və parlaq təəssüratların nəticəsində toplandı, lakin buna baxmayaraq, xalça üzərində Heydər Əliyevin portretinin yaradılması son dərəcə çətin oldu".

Lakin istedadlı sənətkar, bu vəzifənin öhdəsindən gələ bildi və yeni incəsənət əsəri olan həmin xalçanı yaratdı. Bu sənət əsərinin mərkəzində çağdaş dövrün ən böyük siyasi və dövlət xadimi Heydər Əliyevin portreti yerləşdirilmişdir.

Rəhbərin portreti xırda nəbati naxışı olan mavi fonlu, gözəl tərtib edilmiş mərkəzi oval medalyonda yerləşdirilmişdir. Heydər Əliyevin üz cizgiləri açıq tonlarda, incəliklərlə tədricən ipliyin daha tünd tonlara keçid halında yaradılmışdır. Rəssam dekorativ üslubda tərtib edilmiş xalçada uzun və mürəkkəb, müdrik rəhbər ömrü yaşamış, öz respublikasının müstəqilliyinə nail olmuş ağıllı, dünyagörmüş bir insan xarakterinin əsas cəhətlərini məharətlə əks etdirə bilmişdir. Qarşımızda müstəsna erudisiyaya, yüksək mədəniyyətə malik olan ziyalı insan surəti yenidən canlanır. Rəssam həm oxralı-qızılı, həm də özünün sevdiyi yaşılımtıl tonlarda tərtib edilmiş unikal xalça yaradılmışdır. Bu xalçada ornamental kompozisiya bütövlükdə mükəmməl səviyyəyə çatdırılmışdır. Milli "tirməsayağı" naxışın tətbiqi, rəsmi general formasında olan Heydər Əliyevin portreti olan oval medalyonun daxil edildiyi orta sahəni çərçivəyə alan geniş anahaşiyə Kamil Əliyevin dərin düşüncəsinin, milli ornamentdən istifadə etmək məharətinin və ən başlıcası, portretdə dərin mütəfəkkir və müdrik hökmdar obrazını əks etdirmək bacarığının göstəricisidir.

Xalçanın bayram əhval-ruhiyyəsini, tünd rəngdə işlənmiş islimi - arabesk elementlərindən ibarət olan ornamental quruluşu dinamik naxışlar dahada canlandırır. İsliminin bu dinamik, yüngül elementləri həm oval medalyonun kənarlarında, həm də göy fonlu enli haşiyədə istifadə olunmuşdur. Bütün bunlar bu xalçanın ümumi təntənəli ruhuna xüsusi dəstək verir.

1999-cu ilin fevralında xalçanın təntənəli təqdimat mərasimi Gülüstan sarayında keçirildi. Təqdimat mərasimində Azərbaycanın bütün elm və incəsənət xadimləri iştirak edirdilər. Doğrudur, böyük öndərimiz təqdimatda iştirak etmirdi, lakin onun oğlu bu gün Azərbaycanda Heydər Əliyev siyasətini uğurla yeridən o zaman Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, Dövlət Neft Şirkətinin vitse-prezidenti İlham Əliyev iştirak edirdi. Təqdimat həddən artıq təntənəli keçdi. Xalça haqqında mütəxəssislərin və dövlət və incəsənət xadimlərinin çıxışları oldu. Mən də oğlum Orxan Miralayevlə bərabər həmin təqdimata dəvət olunmuşdum və bu xalçanın yaranma tarixi, bədii və texniki xüsusiyyətlərini öz çıxışımda zalda oturan hörmətli qonaqlara çatdrdım. Bu bir tarixi gün idi. Hamı böyük öndərimiz Heydər Əliyevin portreti olan xalça önündə xatirə şəkilləri çəkdirirdi. Mənim oğlum Orxan da sevimli prezidentimizin xalçası önündə onun oğlu, silahdaşı, gələcəyi olan İlham Əliyevlə birlikdə şəkil çəkdirmək arzusunu saxlaya bilmədi. Oğlum kənarda sakitcə hər şeyi seyr edən İlham Əliyevə yaxınlaşıb ondan birlikdə şəkil çəkdirməyi xahiş etdi. İlham Əliyev imtina etmədi və biz birlikdə şəkil çəkdirdik. Bu tarixi an həmin foto şəkildə əbədi qalmaqdadır. Bizim sevdiyimiz, hörmət etdiyimiz prezidentimiz İlham Əliyevin bizimlə olan bir xatirə şəkli ailəmiz üçün çox əzizdir və biz bununla fəxr edirik.

Ulu öndərimiz Heydər Əliyevin bir insan, şəxsiyyət və dövlət xadimi kimi Azərbaycan üçün gördüyü işlər bütün Azərbaycan xalqının, o cümlədən rəssamların ilham mənbəyinə çevrilmişdi. Hər kəs onunla fəxr edir və onun kimi yaşamağa çalışırdı. O dövlətimizin və xalqımızın xilaskarı idi. Vaxtilə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Xalçaçılıq" fakültəsini bitirmiş, böyük xalçaşünas alim Lətif Kərimovun tələbəsi olmuş xalçaçı – rəssam Tahir Məcidovun arzusu Heydər Əliyevin keçdiyi şərəfli həyat yolunu, xalqına olan məhəbbətini xalçada əks etdirmək idi. Bu fikirlə o həyatının bir neçə ilini həmin xalçanın yaranmasına həsr etmişdi. Bu xalça o xalça idi ki, onun da bəxtinə "Gülüstan" sarayında təqdim olunmaq xoşbəxtliyi nəsib oldu. Bu hadisə 2002 – ci ilin 15 iyun "Milli Qurtuluş" günü münasibətilə iyunun 12-də "Gülüstan" sarayında reallaşdı. Rəssamın "Qayıdış" adlandırdığı və ölçüsünə görə xeyli böyük olan və mürəkkəb kompozisiyaya malik bu xalça "Gülüstan" sarayının foyesində asılaraq yenə də Azərbaycanın elm və ictimai xadimlərinin sərəncamına verildi. Bu xalça əsrlər boyu toxunan süjetli xalçalardan kompozisiya tamlığına, mürəkkəb süjetliliyinə görə fərqlənirdi. Xalı "Azərxalça" istehsalat birliyində toxunmuşdur.

Rəssam xalçanın mərkəzində ayaqüstə, bütün boyu ilə təsvir etdiyi ulu öndərimizin sevinc ifadə edən simasını və sol əlini yuxarı qaldıraraq sürətlə Pirəbədil xalçasının üzərində iri addımlarla hərəkətini çox canlı, ifadəli və real təsvir etmişdir. Ulu öndərimizin zəngin daxili aləmini onun xarakterini real əks etdirən üz cizgiləri, onun səliqə və səhmanla həmişə geyindiyi sürməyi rəngli kostyumu və qırmızı qalstuku xalçanın materyalına xüsusilə canlı bir ruh vermişdir. Ulu öndərimizin arxasında üçrəngli Azərbaycan bayrağının təsviri verilmişdir.

Məlum olduğu kimi 1993-cü ilin iyun ayında xalqımızın təkidi ilə Heydər Əliyev Bakıya dəvət edildi ki, azadlığımızı, müstəqilliyimiz qoruya bilək. Həmin Qayıdış rəssam Tahir Məcidovun fikrində, xəyalında həmişəlik qalmışdı. Özünün dediyi ki, o 9 il idi ki, bu xalçaya dair material toplayırdı. Heydər Əliyevin şəxsiyyətinə, onun intellektinə pərəstiş edən rəssam uzun illər eskizlər hazırlamışdı. İl yarım xalçanın toxunması üzərində işləmişdir.

Xalçanın bütün süjetinin mövzusu Heydər Əliyevin ayaqüstə məğrur portreti təşkil edir. Göründüyü kimi, Binə hava limanında yerə enmiş təyyarədən yerə düşən Heydər Əliyevin sehrli Pirəbədil xalçası üzəri ilə addımlaması, - rəssam bunu uçan xalça kimi təsəvvür etmişdir -. Süjetdə İlanlı dağ, Naxçıvan, bu diyarın tarixi memarlıq abidələri, Naxçıvanlıların Heydər Əliyevi yola salması, Bakı əhlinin isə onu sevinclə qarşılaması təsvir olunmuşdur. Rəssamın əsas fikri bu xalçada gözəl tapılmış şərti perspektiv vasitəsi ilə Heydər Əliyevi daha da yüksəklərə ucaldıb onu ideallaşdırmaq olmuşdur. Rəssam xalçada olan parlaq təmiz isti rənglərlə bayramsayağı geyinmiş insanların üzlərində ki, sevinc hissini real təsvir etməklə Azərbaycan xalqının rəhbərə olan böyük məhəbbətini əks etdirməyə çalışmışdır. Xalçanın haşiyəsi də mürəkkəb quruluşludur. Burada kətəbələr içərisində Dədə Qorqudun, Əcəmi Naxçıvanini, Şah İsmayıl Xətainin öz dövrlərinə aid olan geyimlərdə əks etdirməsi xüsusilə diqqəti cəlb edir.

Haşiyənin yuxarı hissəsində ölkəmizin dövlət rəmzləri, bayrağımız, gerbimiz, Quran ayələri verilmişdir. Yeni Azərbaycan Partiyasının rəmzi də burada əks edilmişdir.

Məlum olduğu kimi Heydər Əliyevin bizə miras qoyub getdiyi azad, müstəqil və çiçəklənən Azərbaycanın ən əziz bayramı 12-iyun Qurtuluş günüdür. Azərbaycanın hər bir vətəndaşının əziz tutduğu bu bayramı biz bu ildə Heydər Əliyevin 90 illik doğum günündən sonra təntənəli suretdə qeyd edəciyik. Məhz buna görədə məqaləmizdə o zaman Gülüstan sarayında YAP-ın icraçı katibi Milli

məclisin deputatı Əli Əhmədovun Gülüstan sarayında Tahir Məcidovun "Qayıdış" xalçasının təqdimatı zamanı həmin xalşanın yaranmasının siyasi tarixi haqqında söylədiyi fikirləri sizə təqdim etməyi vacib bildik. O vaxt O, sözünü belə başladı:

- Əziz dostlar!

"Hörmətli xanımlar və cənablar!

Çağdaş Azərbaycan tarixinin bir çox önəmli hadisələrinin şahidi olan "Gülüstan" sarayında, bu gün ictimai və mədəni həyatımızın yeni bir əlamətdar hadisəsində iştirak edirik. Bu gün biz tariximizin şanlı insanlarının və anlarının gözəl təcəssümünü tapan və bu sarayı bəzəyən "Qayıdış" xalçasının təqdimat mərasiminə toplaşdıq. Düşünürəmki Azərbaycanın xalçaçılıq tarixində hadisə adlandırmağa layiq olan bu gözəl sənət əsərinin hər hansı başqa yerdə təqdim edilməsi, Gülüstandakı qədər böyük dəyər və rəmzi məna daşıya bilməzdi. "Qayıdış" Xalçasının təqdimat mərasimi bizim hər birimizi qeyri ixtiyari olaraq yaxın keçmişdə yaşadığımız həyacanlı anlara qaytarır. Doqquz il əvvəl elə bu günlərdə Azərbaycan xalqı öz tarixinin və taleyinin ən təlatümlü, bir yandan həyəcanlı, digər tərəfdən isə ümüdlə dolu anlarını yaşayırdı. Ölkəmizdə baş verib gedən hərc-mərclik, vətəndaş müharibəsi həddinə çatmış qarşıdurma, yenicə əldə etdiyimiz müstəqilliyimizi şübhə altına almışdır. Vəziyyətdən çıxış yolu tapmayan o zamanki rəhbərliyin görülməmiş səriştəsizliyi, iradəsizliyi insanlarda təlaş qorxu sindiromu yaratmışdır. Lakin xoşbəxtlikdən insanların ümüd çırağın sönməyə qoymayan qüdrətli bir amildə mövcud idi. Bu hər kəsin güvənc kimi baxdığı Heydər Əliyev amili idi. Bu Azərbaycan vətəndaşlarının Qayıdışa onun gətirəcəyi Qurtuluşa inamı idi. Bu Azərbaycan xalqının Heydər Əliyevdə öz təcəssümünü tapan özünə inamı idi... Bu dəfə də Azərbaycan xalqının inamı özünü doğrultdu və tariximizin yeni dövrünün əsasını qoyan Qayıdış reallığa çevrildi. Bir neçə gündən sonra biz sizinlə bu tarixi anların il dönümünü dövlət bayramı kimi qeyd edəciyik. İzin verin Milli Qurtuluş bayramı münasibəti ilə sizin hər birinizi, sizin simanızda bütün Azərbaycan xalqını təbrik etməklə yanaşı, onun müasir tarixini və müstəqil dövlətini yaratmış, möhtərəm prezidentimiz Heydər Əliyevə ən səmimi arzularımızı və hisslərimizi çatdıraq, ona möhkəm can saqlıqı və uzun ömür arzulayaq".

Əli Əhmədov çıxışının sonunda Heydər Əliyevə həsr edilmiş "Qayıdış" xalçası haqqında öz fikrini belə söyləmişdir:

"Öz kamilliyi və gözəlliyi ilə burada oturanların hər birinin qəlbini riqqətə gətirən "Qayıdış" xalçası sözün həqiqi mənasında Azərbaycanın ilmələrdə əks olunmuş tarixidir. Sənət əsəri kimi onun dəyəri haqqında yəqin ki, mütəxəsislər öz

dəyərli sözlərini deyəcəklər. Lakin bir həqiqət danılmazdır. Kamilliyin təcəssümü və təcəssümünün kamilliyindən yaranmış “Qayıdış” xalçası sözün həqiqi mənasında böyük həriflərlə yazılmaqa layiq olan kamillik nümunəsidir. Xalq tarixi yaradanları həmişə sənətin dili ilə vəsf edir. Azərbaycanın müasir tarixini yaradan Heydər Əliyev haqqında onlarla, yüzlərlə kitab, sənət əsərləri xalçalar yaradılmışdır. İnanıram ki, Heydər Əliyev Kamilliyinin kamil təcəssümü olan “Qayıdış” xalçası Azərbaycanın sənət tarixində ümumiyyətlə mədəniyyət tarixində layiqli, əbədi yer tuta biləcəkdir” (Azərbaycan qəzeti, 13-iyun, 2002-ci il, səh 2).

**Açar sözlər**: Heydər Əliyev, İlham Əliyev, portret xalça, süjetli xalça, obraz.

*Кюбра Алиева (Азербайджан)*

**Образ общенационального лидера Гейдара Алиева в произведениях Кямиля Алиева и Таира Меджидова**

В статье рассматриваются два произведения коврового искусства, посвященные национальному лидеру - Гейдару Алиеву. Один был создан народным художником Азербайджана Кямилем Алиевым, второй, простым художником по ковру – Таиром Меджидовым. В статье рассматривается история их создания, проводится анализ композиции и выявляется художественное своеобразие ковров.

Ключевые слова: Гейдар Алиев, Ильхам Алиев, портретный ковер, сюжетный ковер, образ.

*Kubra Aliyeva (Azerbaijan)*

**The character of national leader Heydar Aliyev in creativity of Kamil Aliyev and Tahir Majidov**

In this article two works of carpet art, dedicated to national leader Heydar Aliyev are studied. The first carpet was made by people’s artist of Azerbaijan Kamil Aliyev, the second carpet was made by carpet artist Majid Tahirov. In this article the story of creating these carpets is studied. The composition of these carpets, their artistic originality is considered also.

**Keywords:** Heydar Aliyev, Ilham Aliyev, portrait carpet, carpet scene, character.

*UOT 725*

***Мехрибан Микаилова***
***доктор философии по архитектуре, доцент***
***(Азербайджан)***

# ГЕЙДАР АЛИЕВ И АРХИТЕКТУРНЫЙ ОБЛИК ОБЩЕСТВЕННЫХ ЗДАНИЙ БАКУ 1970-1980-х ГОДОВ

В конце 1960-х годов - во время первого прихода Гейдара Алиева к власти - Азербайджан переживал период экономического и культурного спада. Этот спад повлиял на архитектуру и строительство в республике. В 1969 году именно с приходом Гейдара Алиева как первого секретаря партии, наблюдается интенсивный подъем во всех сферах жизни республики, в том числе и в архитектуре, разворачивается широкое строительство жилых и общественных зданий. В этом смысле самые яркие страницы и в азербайджанской архитектуре были написаны именно в 1970-1980-е годы. Работа, проделанная Гейдаром Алиевым в период руководства Азербайджаном в 1969-1982 годы в области архитектуры, опиралась на базу таких основополагающих принципов, как возвращение народу его исторической памяти, возвышение национального духа.

В Баку в 1970-1980-х годах на основе индивидуальных проектов был построен целый ряд общественных зданий, занявших ведущее место в градостроительной структуре городов, определивших их пространственную структуру и эстетическое своеобразие. Выполнение этими зданиями своей смысловой функции, звучание в общей архитектурной гармонии обуславливался их художественно-образным содержанием.

Следует отметить, что различные периоды и этапы развития архитектуры общественных зданий Баку в плане проектирования и строительства характеризовались определенными решениями и достижениями. Однако в этой связи особенно выделяются 1970-1980-е годы – период, отмеченный плодотворными поисками на пути органического сочетания в архитектуре общественных зданий спроектированных и получивших жизнь именно в период руководства Гейдара Алиева. Именно к новым достижениям в области архитектуры общественных зданий в отмеченный период вполне можно отнести вклад национальных архитектурных школ.

Архитектура общественных зданий городов Азербайджана, особенно его столицы Баку, в 1970-1980-е годы характеризуется целым рядом особенностей и интересных решений. Здесь, прежде всего, следует отметить более смелое и гибкое использование комплексных приемов исторически сложившихся в национальном зодчестве, их сочетание с новыми выразительными средствами, а так же претворение архитектурных принципов, подчеркивающих социальное значение общественных сооружений, акцентирующих их роль и функции в окружающей застройке.

В архитектуре многих общественных зданий наблюдаются различные пластические и ритмические разработки главных фасадных плоскостей, выбор формы которых часто зависел от типа здания и климатических условий местности. Почти во всех гостиницах Баку, построенных в этот период, предусмотренные функционально необходимые для климатических условий юга балконы, лоджии и эркеры обогащают плоскости фасадов светотенью, а часть из них выполняет одновременно роль солнцезащитных устройств. Так например, в ныне не существующих гостиницах «Азербайджан» (рисунок 1), «Москва» (рисунок 2) эстетический элемент фасада – балконы образовали горизонтальные полосы одинаковой ширины, а в гостинице «Апшерон» (рисунок 3) - это были вертикальные полосы эркеров, в гостинице «Карабах» - сплошной орнаментальный рисунок.

Общеизвестный прием укрупнения частей фасада был широко распространен в архитектуре Баку 1970-1980-х годов. Административные общественные здания этого периода решались различной трактовкой фасадных плоскостей – применением солнцезащитных экранов, решеток, вертикальных и горизонтальных щитов всевозможных размеров и форм.



***Рисунок 1. Гостиница «Азербайджан»***



***Рисунок 2. Гостиница «Москва»***

Такое решение деталей, являющихся функционально необходимыми и играющих роль солнцезащиты, не только эстетически обогащают и улучшают выразительность общественного здания, но и отвечают климатическим условиям Баку. В одних случаях эти детали прямо были заимствованы из традиционного народного зодчества Азербайджана и Востока (арки различных форм и сечений, традиционные шебеке и т.д.), в других, таких, как например здание Министерства национальной безопасности (архитектор Ю.Кадымов, рисунок 4) были интерпретированы в современных стилях. В обоих случаях архитектура общественных зданий приобретал региональный, и в определенной степени национальный колорит.



***Рисунок 3.Гостиница «Апшерон»***



***Рисунок 4. Здание Министерства национальной безопасности***

В формирование архитектурно-художественного образа общественных зданий большое место принадлежит пластической разработке их фасадных плоскостей, что чаще всего сводилось к использованию различных бетонных солнцезащитных устройств, придающих зданию монументальность, или наоборот, легкость и ажурность. Солнцезащитные элементы часто использовались на главных фасадах, поэтому большое значение приобретало постановка здания с таким расчетом, чтобы этот фасад был ориентирован в ту сторону, где защита от солнечных лучей была наиболее необходима.

Так учитывая то, что Баку находится на широте 40 градусов 7 минут главный юго-западный фасад административного здания в Насиминском районе (бывшего Насиминского райкома партии, архитектор Ю. Кадымов, рисунок 5) был разработан железобетонными ячеистыми пространственными решетками, а северо-восточный фасад, не требующий

солнцезащиты, решен обычным оконным освещением. Отметим, что на архитектурный облик этого здания зримо воздействовали все компоненты окружающей среды. Здание расположено в центральной части города, по проспекту «Азадлыг». Назначение и окружающая застройка требовали придания этому зданию ведущей архитектурной формы, обеспечивающей роль эмоционально-психологического центра для того времени. Формы и размеры участка здания обусловили единый объем и симметричное решение плана. Прямоугольная форма плана и простой абрис фасадов здания определялись повторяющимися типовыми планами этажей. Архитектурная выразительность фасадов этого здания создалось благодаря пластическому решению фасадной плоскости и применению деталей. Рельеф участка неровный, с перепадом. Поэтому стремление сохранить естественные особенности рельефа, вызвало оригинальное решение формы здания: нижняя левая его часть приподнята, а правая как бы уперлась в рельеф. Для избежания создавшейся неуравновешенности, главный вход в здание расположен ближе к левой части, а над ним предусмотрена масса балкона.

Вместе с тем солнцезащита была не единственным фактором, определяющим ориентацию главного фасада, она решалась комплексно с учетом градостроительной ситуации. В административном здании Низаминского района (бывшего Низаминского райкома партии, рисунок 6) для выделения объема здания из окружающей застройки одинаковой этажности авторы архитектор (Т.Ханларов, Г.Мухтаров) применили принцип укрупнения архитектурный элементов фасада.





***Рисунки 5, 6. Административные здания в Насиминском и Низаминском районах***

В архитектуру общественных зданий, расположенных на возвышенном рельефе включались система террас, лестниц, подпорных стен, необходимых для подъема на уровень площадки, где было расположено здание. По этому принципу были решены здания гостиницы «Карабах», расположенный на возвышенности, Центрального Статистического управления (архитектор Т.Ханларов и др.) на западной повышенной стороне Северной Советской площади, гостевого дома и дворца радости «Гюлюстан» (архитектор Н. Гаджибеков, А. Амирханов, рисунок 7) в нагорной части города.

В некоторых случаях в Баку нашло применение решение первого этажа в виде открытой площадки. Разработанный для Франции принцип Ле Корбюзье «дома на столбах» весьма подходил для климатических условий Баку, так как обеспечивал здание дополнительной затененной площадью и сквозным проветриванием. Приподнятая на столбах часть главных фасадов зданий Главной редакции Азербайджанской энциклопедии, Хореографического училища и др. придавало их всему массивному объему легкость, связывая его с рельефом и подчеркивая главный вход.

Большое значение для образа зданий имело решение последних этажей в виде открытых галерей, где располагались рестораны, кафе, видовые площадки, что исходило из климатических условий Баку, а так же обеспечивало обозрение панорамы и бухты, особенно эффективное для объектов, раскрытых в сторону моря. Так например, на верхних этажах или крышах зданий гостиниц «Азербайджан», «Апшерон», «Карабах» и др. были предусмотрены летние террасы, кафе – мороженное и т.д.

На композицию объемов общественных зданий, а следовательно и их соотношение и приемы постановки в значительной мере повлияло и их градостроительное местоположение. Многие общественные здания, входящие в существующую застройку (часто жилую), имели меньше этажей, чем стоящие рядом другие. При этом использовался принцип поднятия зданий на стилобат, укрупнения их фасадных плоскостей, отдельных деталей и членений. При образовании перед общественным зданием или вокруг него больших площадей, так же требовалось решение фасадов в крупных членениях. Потребностью создания композиционного центра, организующего пространство, было продиктовано решение здания Дворца им. Г. Алиева (архитекторы В.Шульгин и др.,

рисунок 8) в динамичном объеме. Крупный масштаб, осевой монолитный объем, поднятый на стилобат, отвечают градостроительной задаче, поставленной здесь, зрительно связывают здание с открывающимся свободным пространством бульвара.

Градостроительное расположение ряда общественных зданий Баку способствовали самостоятельному равнозначному решению их фасадов. Так, например островное расположение вышеупомянутого дворца имени Гейдара Алиева предупредило не только его объемно-пространственное решение, авторы проекта стремились к решению архитектуры здания таким образом, чтобы все фасады в должной мере соответствовали пространству, на которое они были обращены. Главным градостроительным фактором здесь явилась крупная городская магистраль, на которую обращен объем сооружения своим главным входом.



*Рисунок 7. Дворец радости «Гюлюстан»*



*Рисунок 8. Дворца им. Гейдара Алиева*

При создании здания Института истории партии и партархива, авторы (архитекторы Ш.Зейналова и Ю.Кадымов, рисунок 9) с целью выделения объема здания, его решили в крупных членениях. Общий объем здания напоминает капитель, присущую народному зодчеству Азербайджана. Авторы не применили ни одной неоправданной декоративной детали, здесь все конструктивно осмысленно. Строгая и сдержанная художественная характеристика здания восходит к архитектурному наследию Азербайджана. Композиция фасада основана на приеме сочетания глухих плоскостей верхней части с проемами в нижних этажах. Этим создается определенный внешний эффект, не нанося ущерба функции, так как лишение естественного освещения не нарушает режима работы на последних этажах.



*Рис. 9.Институт истории партии и партархива*



*Рис.10.Метро «Элмляр Академиясы»*

Здание облицовано белым камнем-известняком, характерным для традиционных построек Апшерона. Здесь мы наблюдаем более глубокое понимание проблем традиции, когда прошлое рассмотрено как «полезный каталог», из которого можно выбрать подходящие формы, а также найдены «не внешние формы, а внутреннее родство с наследием» [3, с.17].

Значительным шагом у использования подземного пространства под сооружения общественного назначения явилось строительство метро в Баку. Потребность Баку в скоростном транспорте удовлетворялось метрополитеном, значительная часть которого была сдана в эксплуатацию в 1967-77 гг. С одной стороны, метро как транспортная артерия, имело большое значение в условиях быстрого роста Баку, с другой бакинский метрополитен представ-ляет собой архитектурное произведение, обладающее индивидуальными чер-тами. Являясь элементами своеобразного подземного города, станции метро вошли в городской ансамбль. Решение фасада здания станции метро «Элмляр Академиясы» (арх. М.Усейнов, рис. 10) в виде традиционных пластических арок различных форм, подчинено архитектурной разработке фасада главного корпуса АН Азербайджана, парадный вход которого решен в виде портика.

В архитектуре интерьеров метро наиболее ярко проявились национальные особенности азербайджанской архитектуры. Здесь применялись архитектурные приемы, отвечающие всем утилитарным требованиям транспортного сооружения и одновременно создающие художественную выразительность в той мере, какая требовалось от архитектуры об-

щественного здания. «Архитектура всех вестибюлей и станций бакинского метрополитена решена в совершенно простых и лаконичных формах, без вычурного украшательства и излишеств». [1, с.17].

Весьма привлекательно архитектурное решение интерьера станции метро «Нариманов» (архитектор М.Усейнов). Автор здесь совершенно по новому трактует традиционные для азербайджанской архитектуры элементы, и в результате архитектура интерьера станции перекликается с историческими памятниками, ассоциируясь с присущему азербайджанскому зодчеству сталактитами и изящными колоннами. Золотистые многогранные колонны из анодированных алюминиевых блоков увенчаны своеобразной капителью в виде распустившегося цветка. Легкие воздушные арки-сводики потолка увенчаны золотистым карнизом. Применение современного эффективного материала придает праздничный вид всему пространству станции метро. «Как и в других своих произведениях, автор проявил здесь большой вкус в тщательной прорисовке колонн и других деталей вестибюля» [2, с. 244]. Освещение здесь создается ритмично расставленными в плоскости потолка точечными светильниками. «В традициях азербайджанской архитектуры выполнено цветовое оформление станции» [6, с.272-273].

Авторы станции метро «Улдуз» (архитекторы Э.Касимзаде, Э.Кануков) добились своеобразного решения, отличающего архитектуру станции от ранее выстроенных. В ее оформлении применены естественные материалы и аннодированный алюминий. Своеобразно решены традиционные для местной архитектуры многогранные колонны, облицованные белым мрамором – в местах сопряжений граней колонн, на всю высоты вставлены полосы алюминия, придающим им стройность. Для архитектурного решения станции характерна цельность замысла, новизна трактовки и современная интерпретация характерных приемов национальной архитектуры.

Резюмируя вышесказанное, отметим, что все уникальные здания Баку, вне зависимости от их даты постройки, представляют собой архитектурную ценность, культурное наследие. «Народ, обладающий высокой культурой, всегда будет идти вперед, будет жить и развиваться» - говорил Гейдар Алиев. Эти ценности вечны, как и вечны имена тех, кто сохранял и создавал ценное культурное наследие народа. Для нас таким человеком был Гейдар Алиев.

## ЛИТЕРАТУРА


1. Бакинский метрополитен им. В. И. Ленина. Баку, 1970
2. Бретаницкий Л.С.,Саламзаде А.В.Архитектура Советского Азербайджана. М., 1973
3. Гидион З. Пространство, время, архитектура. М., 1984
4. Эфендизаде Р. М .Архитектура Советского Азербайджана.М.,1986
5. Əfəndizadə R. Azərbaycan memarlığı. Bakı, 2011
6. Яралов Ю.С. Национальное и интернациональное в советской архитектуре. М.,1971
7. Баку в фотографиях И.Рубенчика. http://www.ourbaku.com/index.php


**Ключевые слова:** архитектурный облик, общественное здание, фасад, национальное своеобразие, образ.

*Mehriban Mikayılova (Azərbaycan)*

**Heydər Əliyev və Bakının 1970-1980-ci illərinin ictimai binalarının memarlıq görkəmi**

H.Ə.Əliyevin Azərbaycanda rəhbərlik etdiyi 1969-1982-ci illərdə memarlıq sahəsində apardığı işlər xalqa onun tarixi yaddaşının qaytarılması, milli ruhun dirçəldilməsi kimi fundamental prinsiplərə əsaslanırdı. 1970-80-cı illərdə Bakıda fərdi layihələrin əsasında bir sıra ictimai binalar inşa edilmişdir. Məhz ictimai binaların sahəsində əldə edilən nailiyyətləri milli memarlıq məktəblərinin töhfəsi kimi qəbul etmək olar.

**Açar sözlər:** memarlıq görkəmi, ictimai bina, fasad, milli orilinallıq, obraz.

*Mehriban Mikayilova (Azerbaijan)*

**Heydar Aliyev and architectural appearance of public buildings in Baku of the 1970-1980th**

The work in the field of architecture done by Heydar Aliyev during his leadership in Azerbaijan in 1969-1982, based on such fundamental principles, as return to the people of his historical memory and an eminence of the national spirit. Great number of the public buildings was constructed in Baku

in the 1970-80th according to individual projects. These buildings defined the spatial structure and an esthetic originality of the cities.

**Keywords:** architectural appearance, public building, facade, national originality, image.

*UOT 78*

***Ariz Abdulǝliyev, dosent***
***(Azǝrbaycan)***

# HEYDӘR ӘLİYEV VӘ ÜZEYİR HACIBӘYLİ İRSİ

Üzeyir Hacıbǝyi irsinin yaşaması, öyrǝnilmǝsi, qorunması vǝ tǝbliği Azǝrbaycan musiqişünaslığının gündǝliyindǝ dayanan aktual vǝzifǝlǝrdǝn biridir. Müasir dövrdǝ, Üzeyir bǝyin tǝbirincǝ desǝk, "vǝzifǝyi-musiqiyyǝmizǝ aid mǝsǝlǝlǝr" sırasında Üzeyir Hacıbǝyli irsinin davamlı vǝ mǝqsǝdyönlü şǝkildǝ toplanılması, öyrǝnilmǝsi, qorunması, tǝhlili vǝ tǝbliği kimi çoxşaxǝli vǝzifǝlǝr vǝ problemlǝr dǝ dayanır. [1].

Musiqişünaslığın bu ümummilli vǝ humanist missiyasının uğurla hǝyata keçmǝ sindǝ, onun geniş mǝnada tǝşkilindǝ vǝ istiqamǝtlǝnmǝsindǝ, "şǝxsiyyǝt vǝ zaman" müstǝvisindǝ hǝllindǝ, müasir mǝdǝniyyǝtin aktual problemi sǝviyyǝsindǝ elmin gündǝliyinǝ daxil edilmǝsindǝ, bu vǝzifǝnin musiqi incǝsǝnǝtinin inkişafına yönǝldilmǝsindǝ Azǝrbaycanın Respublikasının Prezidenti, müasirliyin görkǝmli dövlǝt vǝ siyasǝt xadimi, ümummilli lider Heydǝr Әliyevin böyük mǝdǝni-tarixi vǝ siyasi xidmǝtlǝri olmuşdur. "Başda Üzeyir Hacıbǝyli musiqisi olmaqla, Azǝrbaycan klassik vǝ müasir musiqi ǝsǝrlǝrinin, milli bǝstǝkarlıq mǝktǝbinin, zǝngin xalq musiqisinin müxtǝlif ölkǝlǝrdǝ vǝ xalqlar arasında tǝbliği vǝ tanınması görkǝmli dövlǝt vǝ siyası xadimi Heydǝr Әliyevin mǝdǝniyyǝt siyasǝtinin ǝsas mǝqsǝdlǝrindǝn birini tǝşkil etmişdir".[2, 13].

Üzeyir Hacıbǝyli irsi ilǝ bağlı vǝzifǝlǝrin vǝ problemlǝrin hǝllindǝ dövlǝt vǝ siyasǝt xadimi, respublikanın siyasi rǝhbǝri kimi birbaşa iştirak edǝn Heydǝr Әliyev musiqi mǝdǝniyyǝti vǝ incǝsǝnǝtinin belǝ mühüm vǝ aktual mǝsǝlǝlǝrin hǝllindǝ hǝmişǝ musiqi ictimaiyyǝti, bǝstǝkar, ifaçı vǝ musiqişünaslar ilǝ, maarifçi ziyalılar vǝ ailmlǝr ilǝ birlikdǝ olmuş, onların fikir vǝ tǝkliflǝrini hǝyata keçirmiş, hǝr zaman onlarla hǝmrǝylik nümayiş etdirmişdir.

Heydǝr Әliyev bütün hǝyatı vǝ fǝaliyyǝti ǝrzindǝ Üzeyir Hacıbǝylinun musiqisini böyük zövqlǝ dinlǝmiş, ǝsǝrlǝrinǝ tamaşa etmiş, dahi bǝstǝkarın yaradıcılığını yüksǝk qiymǝtlǝndirmiş, bu şǝxsiyyǝt, yaradıcılıq vǝ musiqi ǝsǝrlǝri, onların klassik vǝ müasir musiqi mǝdǝniyyǝtindǝki dǝyǝri haqqında maraqlı fikirlǝr söylǝmiş, Ü.Hacıbǝyli irsinǝ hǝr zaman qayğı vǝ sevgi ilǝ yanaşılmasını dönǝ-dönǝ tövsiyǝ etmişdir.

Üzeyir Hacıbəylinin yaradıcılığına və irsinə davamlı diqqət və qayğı göstərilməsi, bu irsin elmi-mədəni əsaslarla qorunması, öyrənilməsi və təbliği, ona ölməz milli-mədəni dəyər kimi yanaşılması, müasir dünya mədəniyyətinin ayrılmaz hissəsi kimi dərk olunması, gənc nəsillərdə Üzeyir musiqisinə dərin maraq və sevgi yaranması – bütün bu məsələlər Heydər Əliyevin mədəniyyət və incəsənət sahəsində həyata keçirdiyi dövlət siyasətində daim aparıcı yer tutmuşdur. Bu dahi dövlət və siyasət xadiminin Ü.Hacıbəyli şəxsiyyətinə və yaradıcılığına münasibəti onun elm, təhsil, mədəniyyət və incəsənətin inkişafına istiqamətlənmiş siyasi-humanitar fəaliyyəti ilə bilavasitə bağlı olmuşdur. Heydər Əliyevin Azərbaycanın maarifçi, yaradıcı elm, təhsil, mədəniyyət və incəsənət xadimlərinə, xalqın görkəmli şəxsiyyətlərinə, onların irsinə, yaradıcılığına münasibəti, bu şəxsiyyətlərin yubileylərini rəsmi dövlət qərarı ilə həyata keçirməsi, onların irsinin təbliği üçün şərait və imkanlar yaratması, yaradıcılıqdan məişətə qədər olan problemlərini həll etməsi yalnız bir ümumi və ali məqsədə - Azərbaycan mədəniyyət və incəsənətinin davamlı inkişafına, yeniləşməsinə və tanınmasına xidmət edirdi. Azərbaycanın tarixi, yaradıcı şəxsiyyətləri ilə bağlı dövlət və hökumət səviyyəsində müxtəlif qərarlar qəbul etməsi, bu istiqamətdə tədbirlər planı hazırlanmasında şəxsən iştirakı, yüksək təltif və mükafatlar üçün SSRİ KP MK-ya rəsmi yazılı müraciət etməsi Heydər Əliyevin yaradıcı şəxsiyyətlərə, o cümlədən, musiqi xadimlərinə yüksək hörmət və ehtiramının, onların şəxsiyyətinə, fəaliyyətinə və xidmətlərinə yüksək qiymətinin ifadəsi idi. Belə mövqeyi və yanaşması ilə Heydər Əliyev, əslində, yaradıcı şəxsiyyətlərin, milli mədəniyyətin siyasi və mənəvi hamisi rolunu oynamış, eyni zamanda, bu yaradıcı insanların Azərbaycanın ictimai-mədəni həyatındakı və xalqın mdəni inkişafındakı mövqeyini daha da möhkəmləndirmiş, onların ziyalılıq və yaradıcılıq mövqelərini əlaqələndirmiş, yaradıcılıq uğurlarını yeni-yeni inkanlarla və stimullarla təmin etmiş, eyni zamanda musiqi incəsənətinin inkişafı qarşısında geniş perspektivlər açmışdır.

1969-2003-cü illərdə respublikanın ali və orta məktəblərinə, maarifçi ziyalılara, tarixi şəxsiyyətlərə, yaradıcı insanlara, nəşrlərə, mədəni dəyərlərə, alim və müəllimlərə, qədim abidələrə və tarixi hadisələrə yubileylər təşkil etməklə, bu yubileylərin Azərbaycanın elm, mədəniyyət, təhsil və incəsənət həyatında mahiyyətli hadisə olmasını təmin etməklə Heydər Əliyev SSRİ ideoloji siyasətinin ən kəsərli vaxtında və müstəqillik dönəmində Azərbaycan xalqının tarixi yaddaşını, milli özünüdərkini və şüurunu özünə qaytarmış,

milli kimliyin, xalqın entomədəni və milli-mənəvi keyfiyyətlərinin ölməməsinə, onların kommunist ideologiyası və saxta "beynəlmiləlçiliyə" adaptasiya edilməməsinə, Azərbaycan mədəniyyət və incəsənətinin dünyəvi təbliğinə nail olmuşdur. Azərbaycanın XX və XXI əsrdəki musiqi həyatı, musiqi-yaradıcılıq nailiyyətləri, musiqi tarixi, çoxsahəli inkişaf prosesləri və musiqi ictimaiyyətinin yaradıcılıq problemlərinin uğurlu həlli, nəhayət bütün bu məsələlərin musiqişünaslıqda davam edən tarixi, nəzəri, kulturoloji, sosial aspektlərdən tədqiqi və təhlili belə nəticəyə də əsas verir ki, "Heydər Əliyevin musiqi mədəniyyəti və incəsənəti sahəsindəki zəngin, maraqlı və qiymətli fəaliyyəti məntiqi olaraq müasir musiqişünaslığın da elmi maraq və tədqiqat obyektinə çevrilmişdir". [3, 100-101]. Beləliklə, Heydər Əliyevin dövlət və siyasət xadimi kimi Azərbaycan mədəniyyətinin, elminin, təhsil və incəsənətinin davamlı inkişafına, milli ziyalı yaradıcılığının təbliğinə istiqamətlənmiş mədəniyyət siyasəti və bu siyasətin humanist məqsədləri Üzeyir Hacıbəyli şəxsiyyəti və irsi ilə bağlı olan elmi məsələləri də aktuallaşdırmışdır. Müstəqillik dövrü hər sahədə olduğu kimi, musiqişünaslıq qarşısında da yeni, müasir, aktual vəzifələr, suallar qoymuşdur ki, onlardan biri də Azərbaycan musiqi mədəniyyətinin tədqiqində "Heydər Əliyev və Üzeyir Hacıbəyl irsi", "Heydər Əliyev və Azərbaycan musiqi incəsənətinin inkişafı", "Heydər Əliyev və musiqi təhsili" kimi müasir əhəmiyyətli aktual elmi mövzu və problemlərin yeni metodlarla və obyektiv yanaşmalarla araşdırılması və təhlilindən ibarətdir. İlk növbədə belə danılmaz fakta və arqumentə görə ki, Heydər Əliyevin 1969-2003-cü illərdə həyata keçirdiyi humanitar mədəniyyət siyasətinin prioritetləri Azərbaycanın musiqi mədəniyyətinin, musiqi təhsilinin, musiqi incəsənətinin, ifaçılıq sənətinin, bəstəkarlıq məktəbinin, musiqi elminin davamlı inkişafından, bu sahədə yeni nailiyyətlərin qazanılmasından, musiqidə yeni bədii, elmi və təşkilati nailiyyətlərin təbliği və tanıdılmasından, musiqi xadimlərinin əməyinin layiqincə qiymətləndirilməsindən, sənətkar və cəmiyyət arasında qarşılıqlı etimad və hörmət mühitinin yaradılmasından, Azərbaycanın musiqi-mədəni əlaqələrinin daha da genişlənməsindən, məktəblilərin və gənclərin musiqi-estetik tərbiyəsinin inkişafından ibarət olmuşdur.

Faktlara müraciət edək. 1970-ci illərdə Azərbaycanın musiqi həyatında bir çox tarixi əhəmiyyətli, inkişaf yönümlü hadisələr baş verir. Məsələn, Ü. Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının 50 illik yubileyi [4], Dövlət Konservatoriyasının yüksək mükafatla təltifi, Üzeyir Hacıbəylinin

və Müslüm Maqomayevin 90 illik yubileyi, dahi bəstəkarın ev-muzeyinin yaradılması, Şuşadakı ev-muzeyinin bərpası və təmiri, "Üzeyir Musiqi Günü"nün rəsmən təsis edilməsi, Bakıda Rusiya ədəbiyyatı və incəsənəti günləri, Qara Qarayevin yubileyi, T.Xrennikovun, D.Kabalevskinin yaradıcılıq görüşləri, Bəstəkarlar İttifaqı nəzdində "Məktəbli filarmoniyası"nın yaradılması, Bəstəkarlar İttifaqında musiqi tənqidinə, gənc bəstəkarların yaradıcılığına, ifaçılıq sənətinin problemlərinə həsr olunmuş plenumlar, Bəstəkarlar İttifaqının V və VI qurultayları, "Azərbaycanda musiqi ifaçılığının inkişafı haqqında" Azərbaycan KP MK-nın qərarı, Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin, Rauf Havıyevin yüksək dövlət mükafatları və fəxri adlarla təltif olunması, yeni simfonik, kamera, vokal və instrumental, musiqili teatr əsərlərinin yazılması, Nəsiminin yubileyi münasibətilə bəstəkarların müsabiqəsi, Bakıda müxtəlif ölkələrdən gələn musiqi kollektivlərinin və ifaçıların konsertləri, Azərbaycan musiqiçilərinin xarici ölkələrə səfərləri, "Qaya" ansamblına Dövlət musiqi kollektivi statusunun verilməsi, Müslüm Maqomayevin rəhbərliyi ilə estrada-simfonik orkestrin yaradılması, musiqi incəsənəti xadimlərinin fəxri ad və mükafatlarla təltifi, Zaqafqaziya ifaçılarının müsabiqəsi, respublikanın bölgələrində ictimai əsaslı "musiqi universitet"lərinin, "mədəniyyət universitet"lərinin yaradılması, şəhər və rayonlarda musiqi məktəbləri şəbəkəsinin çoxlu sayda artması, Azərbaycan dövlət himninin yeni redaksiyası, musiqi və musiqişünaslıq əlaqələrinin genişlənməsi və s. və i.a. kimi mütərəqqi hadisələr Azərbaycan musiqi mədəniyyəti və incəsənətinin yenilikləri, inkişaf faktlarıdır.

Heydər Əliyevin respublikanın siyasi rəhbəri və Azərbaycan mədəniyyətinin hamisi kimi həyata keçirdiyi mütərəqqi hadisələrdən biri də Üzeyir Hacıbəylinin 90 illik yubiley tədbirləridir.

Dahi bəstəkarın anadan olmasının 90 illiyinin keçirilməsi Azərbaycan KP MK Bürosunun 28 fevral, 1975-ci il tarixli iclasında (protokol N 117) müzakirə olunmuşdur. Heydər Əliyevin sədrliyi keçən Büro iclasında yubileyin keçirilməsi, yubiley komissiyasının yaradılması və tədbirlər planının təsdiq olunması haqqında rəsmi qərar çıxarılmışdır. [5]. Qərarın mətnindən göründüyü kimi, mədəniyyət naziri Zakir Bağırov, Qara Qarayev, Tofiq Quliyev, Cahangir İldırımzadə, İmran Qasımov, Y.Hüseynov, Niyazi, Mehdi Məmmədov, Şəmsi Bədəlbəyli və konservatoriyanın rektoru vəzifəsini icra edən Bilqeyis Məmmədova yubiley komissyasına seçilmiş, komissiyaya rəhbərlik Q. Qarayevə həvalə edilmişdir.

Lakin yubileyin sentyabr ayında keçirilməsi haqqında rəsmi qərar verilsə də, komissiya sədrinin və mədəniyyət nazirinin məktubu əsasında onun vaxtı noyabr ayına dəyişdirildi. Çünki sentyabr ayında Bakıda "SSRİ ədəbiyyat günləri"nə hazırlıq işləri aparılırdı. Həqiqətən, oktyabr ayında keçirilən "ədəbiyyat günləri" Azərbaycan mədəniyyəti üçün əhəmiyyətli hadisə idi. Ədəbiyyat günlərində Səməd Vurğunun ev-muzeyinin açılmasını da nəzərə alsaq, hazırlıq işlərinin çox vaxt tələb etməsi, yubileyin ümumittifaq miqyaslı olması kimi səbəblərin gerçəkliyi göz önünə gələr. Digər tərəfdən, Üzeyir bəyin "Koroğlu" operasının yeni quruluşda hazırlanması, Ümumittifaq "Melodiya" firmasına bəstəkarın əsərlərindən ibarət valların sifarişi, elmi konfranslara, konsertlərə, nəşrlərə hazırlığın aparılması, Moskvada yubiley tədbirinin təşkili və s. bu kimi hazırlıq işləri çox vaxt tələb edirdi. Məhz bu iki Ümumittifaq (SSRİ) miqyaslı tədbir üçün aparılan ciddi və geniş hazırlıq işləri cox vaxt tələb etdiyi üçün Heydər Əliyev Ü.Hacıbəylinin yubiley tədbirlərinin noyabr ayında keçirilməsi qərarına gəldi.

Yeri gəlmişkən, qeyd edək ki, 1875-ci ilin oktyabr ayında müxtəlif respublika və şəhərlərdən Ədəbiyyat günlərinə qatılan görkəmli yazıçılar, şairlər, ədəbiyyatşünaslar hər gün Dövlət Opera və Balet teatrında, Dövlət filarmoniyasında, Konservatoriyanın zalında simfonik, kamera, xalq çalğı alətlər orkestrlərinin, dövlət xorunun, professinal musiqiçilərin ifasında xarici, rus klassiklərinin, Azərbaycan bəstəkarlarnın əsərlərini, muğam və xalq mahnılarını dinləyir, opera və balet tamaşalarına baxırdılar. Bir sözlə, Bakıdakı "SSRİ xalqlarının ədəbiyyatı günləri" tanınmış ədəbiyyatçılara, şair və yazıçılara Azərbaycan musiqisi ilə də yaxından tanış olmaq imkanı verirdi.

Arxiv sənədləri əsasında bildiririk ki, Ü.Hacıbəylinin yubileyinə dair tədbirlər planına Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan KP MK Bürosunda baxılmış və bu plan müvafiq qərarla təsdiq olunmuşdur. Yubileyin tədbirlər planı Heydər Əliyevin bilavasitə təşəbbüsü və təlikləfləri əsasında hazırlanmışdır. Yubiley komissiyasının üzvləri ilə birlikdə şəxsən Heydər Əliyev də bu planın hazırlanmasına iştirak etmiş, öz təklif, düzəliş və əlavələrini bildirmişdir. Tədbirlər planına bəstəkarın əsərlərindən ibarət konsertlər, tamaşalar, təntənəli mərasim, görüşlər, konservatoriyada tələbə və müəllimlərin iştirakı ilə tədbirlər və konsertlər, şəhər və rayonlarda tədbirlər, EA Memarlıq və İncəsənət İnstitutunda ümumittifaq elmi konfrans, Moskvada təntənəli yubiley gecəsi, bağlanış konserti, yubilyarın əsərlərinin nəşri, yaradıcılığı haqqında monoqrafiya və məqalələrin yazılması, xüsusi teleradio verilişlərinin

yayımlanması, yaradıcılığını və əsərlərini əks etdirən sərgilərin təşkili və s. məsələlər daxil edilmişdi. Tədbirlər planı ilə tanış olduqda, belə nəticəyə gəlirik ki, tədbirlərin hər biri Azərbaycan musiqi incəsənətinin inkişafında, Ü.Hacıbəyli irsinin öyrənilməsi və təbliğində dəyərlidir və bu istiqamətdə mühüm əhəmiyyət kəsb edirlər.

Yubileyin geniş tədbirlər planı və onlarına icrasına cəlb edilən hökumət qurumlarının, yaradıcılıq təşkilatlarının vəzifələri haqqında məlumat verən arxiv sənədləri, yubiley tədbirlərinə dair mətbuat informasiyaları və musiqişünaslıq məqalələri belə deməyə əsas verir ki, qarşıda dayanan əsas məqsəd Ü. Hacıbəylinin yubileyini bu dahi sənətkara, şəxsiyyətə layiq olan səviyyədə həyata keçirməkdən, yubileyi yalnız Azərbaycanın deyil, bütün SSRİ-nin mədəniyyət, elm və incəsənət bayramına çevirməkdən, bəstəkarın əsərlərini yüksək peşəkar səviyyədə təbliğ etməkdən ibarət olmuşdur.

1975-ci ilin noyabrında müxtəlif respublika və şəhərlərdən, yaradıcılıq təşkilatlarından olan bəstəkarların, musiqişünasların, musiqi xadimlərinin, ifaçıların, kollektivlərin, eyni zamanda respublikaların bəstəkarlar ittifaqlarını və rəsmi hökumət qurumlarınını təmsil edən nümayəndələrin 90 illikdə iştirak etməsi Azərbaycanın musiqi həyatını daha da fəallaşdırdı, Azərbaycanın musiqi-mədəni əlaqələrinin genişlənməsinə, dahi Üzeyir musiqisinin gələcəkdə də fəal və uğurlu təbliğinə səbəb oldu. [6].

Yubileyin mərkəzində dayanan əsas hadisə Üzeyir Hacıbəylinin ev-muzeyinin yaradılması və açılışı idi. Maraqlıdır ki, respublikanın paytaxtında, Üzeyir bəyin uzun illər yaşadığı evdə onun ev-muzeyinin hələ də yaradılmaması respublikanın rəhbəri kimi də, Üzeyir musiqisini yüksək qiymətləndirən şəxsiyyət kimi də Heydər Əliyevi narahat edən mədəniyyət problemlərdən biri idi. Çünki Azərbaycana gələn rəsmi şəxslərə, qonaqlara, qasrollara və görüşlərə gələn mədəniyyət və incəsənət nümayəndələrinə, elmi tədbirlərə qatılan musiqişünaslara klassik professional musiqinin banisi haqqında yaxından, müfəssəl və mahiyyəli məlumat verən mədəniyyət obyekti yox idi. Bəstəkarın keçmiş H.Hacıyev küçəsində "monolit" kimi tanınan binadakı mənzili isə geniş muzey ekspozisiyaları üçün yararlı deyildi, digər tərəfdən, bəstəkarın bu mənzildə ömrünün çox az hissəsini yaşaması faktı da bu mənzildə muzey yaradılmasını sual altında qoyurdu. Belə ki, Ü. Hacıbəylinin yaradıcılığının mahiyyətli, böyük hissəsi, bəstəkarlıq, pedaqoji, musiqişünaslıq, ictimai, ədəbi, publisist, jurnalist fəaliyyəti, sənət dostları və yaradıcı ziyalılar ilə ünsiyyəti, məktublaşmaları, "Koroğlu", "Azərbaycan xalq musiqisinin

əsasları" üzərindəki yaradıcılıq işləri 1915-1942-ci illər ərzində məhz "Ketsxoveli, 67" ünvandakı mənzilində həyata keçmişdi. Buna baxmayaraq, bəstəkarın ev-muzeyinin, musey fondunun və eksponatlarının təşkil olunmaması, zəngin ekspozisiyalardan ibarət muzeyinin hələ də yaradılmaması Azərbaycan musiqi mədəniyyəti, Ü. Hacıbəylinin həyat və yaradıcılığı haqqında tam təsəvvürlərə, bəstəkarın yaradıcılıq irsinin və şəxsi əşyalarının toplanılmasına, qorunmasına, tədqiqi və təbliğinə müəyyən problemlər yaradırdı. Bu səbəbə görə də, respublikaya gələn qonaqlara, tədbir iştirakçılarına, incəsənət adamlarına, musiqiçilərə, turistlərə Azərbaycan KP MK-nın qərarı ilə təsdiq olunmuş siyahı üzrə maddi mədəniyyət nümunəsi kimi yalnız dahi bəstəkarın heykəli və onun adını daşıyan Dövlət Konservatoriyası nümayiş etdirilirdi.

Həhayət, Azərbaycan musiqi mədəniyyətinin bu vacib, taleyüklü tarixi problemi həll edildi: 1975-ci il, noyabrın 20-də Üzeyir Hacıbəylinin ev-muzeyinin açılışı mərasimi keçirildi. Bu təntənəli mərasim bütün respublikanın musiqi ictimaiyyəti, yaradıcı ziyalılar, Üzeyir musiqisini sevənlər, yubiley iştirakçıları tərəfindən əsil incəsənət bayramı, tarixi bir gün kimi qarşılandı. Açılış mərasiminə bəstəkarın evinə yaxın ünvanlarda yaşayan sadə insanların da könüllü qatılması bu tədbirin ictimai rəydə necə rəğbətlə və müsbət qarşılandığını bir daha təsdiqlədi.

Açılış mərasimindəki çıxışlarda Ü.Hacıbəyli şəxsiyyəti, yaradıcılığı, musiqisi, onun musiqi tarixindəki böyük xidmətləri haqqında maraqlı fikirlər bildirildi. Bu hadisənin SSRİ-nin mərkəzi siyasi dairələrində, respublikaların yaradıcılıq ittifaqlarında və mətbuat orqanlarında, hətta xarici ölkələrdə geniş əks-səda doğurması heç də səbəbsiz deyildi. Birincisi, o illərdə, respublikalarda milli mədəniyyətin görkəmli simalarına, tarixi şəxsiyyətlərinə abidə və muzey yaratmaq çətin siyasi problem olduğu qədər də, o xalqın tarixi, mədəniyyəti və milli şüuru üçün böyük əhəmiyyət kəsb edən bir məsələ idi. Bir fakt da budur ki, dövrün siyasi və ideoloji tələblərinə görə Heydər Əliyev Ü.Hacıbəylinin ev-muzeyinin yaradılması haqqında planı SSRİ-nin rəsmi siyasi mərkəsinə rəsmi şəkildə bildirməli idi. SSRİ dövlət rəhbərliyinin bir çox siyasi və ideoloji qadağalarına baxmayaraq, Heydər Əliyev bu siyasi mərkəzdən razılıq almağa nail oldu. Əldə edilən əsas, qiymətli və mahiyyətli nəticə bundan ibarətdir ki, Heydər Əliyev SOV. İKP MK-ya Ü.Hacıbəylinin ev-muzeyinin yaradılması haqqında göndərilən rəsmi məktubun müsbət həllinə nail oldu, bununla da dahi şəxsiyyətin həyat və yarcadıcılığının hüquqi ünvanı kimi ev-muzeyini yaratdı.

Ev-muzeyin təşkili, onun ekspozisiyasının, fondunun yaradılması, şəxsi əşyaların, əlyazmaların, nəşrlərin, məktubların, ədəbiyyatların, bəstəkara həsr olunan incəsənət əsərlərinin bir yerə toplanılması, bəstəkara məxsus muzey əhəmiyyətli maddi əşyaların sənədləşdirilməsi – bütün bunlar əlbəttə, çox vaxt tələb edən işlər idi. Arxiv sənədləri təsdiq edir ki, Ü.Hacıbəylinin ev-muzeyinin təşkilinə yubiley haqqında rəsmi qərar veriləndən dərhal sonra başlanıldı. Bu işə əsasən yubiley komissiyası, Mədəniyyət nazirliyi, ali və orta ixtias təhsili nazirliyi təhkim olunmuşdular. [7]. Heydər Əliyev ev-muzeyin qurulması, təşkilati məsələri ilə mütəmadi maraqlanır, ona hesabat verilirdi. Mədəniyyət nazirliyinin arxiv sənədləri təsdiq edir ki, dahi bəstəkarın ev-muzeyinin təşkili yubileydən əvvəl və sonra da davam etmiş, 1970-ci illərin sonuna qədər muzeydə təşkilatlanma işləri görülmüşdür.

Ü.Hacıbəylinin ev-muzeyinin yaradılmasına iki aspektdə münasibət bildirilməyi məqsədəuyğun hesab edirik. Birincisi, "incəsənət muzeydə". Bu aspektdən yanaşdıqda, ev-muzeyi ilk növbədə Ü.Hacıbəylinin yaradıcılığının, bioqrafiyasının, əsərlərinin hüquqi ünvanı kimi qiymətləndiririk. Digər tərəfdən, ev-muzey dahi bəstəkarın həyat və yaradıcılığına dair bütün sənədlərin, notların, əlyazmaların, məktubların, foto-sənədlərin, mətbu materialların, kitabların, elmi məqalələrin, rəylərin bu gün də qorunub-saxlandığı, nümayiş etdirildiyi mədəniyyət məkanıdır. Ev-muzey Azərbaycan musiqi mədəniyyəti və incəsənətinin faktı, ünvanı, musiqiçilərin doğma ocağı olması ilə də əhəmiyyətli və qiymətlidir. Bu muzey yaradıldığı gündən indiyə qədər Azərbaycanda XX əsr klassik professional musiqinin, bəstəkarlıq məktəbinin, musiqişünaslığın banisi Ü.Hacıbəylinin şəxsiyyəti, yaradıcılığı, musiqisi və ümumən Ü.Hacıbəyli irsi haqqında dəqiq, müfəssəl, dəyərli informasiya verir və bütün bunların təbliğində aparıcı rol oynayır.

İkinci aspekt: "muzey incəsənətdə". Bu aspektdən yanaşdırda, ilk növbədə ev-muzeyin Azərbaycan musiqi incəsənətinin, Üzeyir irsinin davamlı və məqsədli təbliği, öyrənilməsi, qorunması işində əhəmiyyətini qeyd etməliyik. Dahi bəstəkarın ev-muzeyi dünən olduğu kimi, bu gün də, sabah da Azərbaycanın musiqi həyatının, musiqi-mədəni proseslərin ən fəal iştirakçısıdır. Azərbaycanda musiqi incəsənətinin, musiqi təhsilinin, elminin, ifaçılıq sənətinin elə bir respublika, regional, beynəlxalq səviyyəli tədbiri yoxdur ki, ev-muzey orada iştirak etməsin, dahi bəstəkar yad olunmasın. Bu muzey həm də gənc nəsillərdə mədəniyyət və incəsənətimizə, yaradıcı şəxsiyyətlərimizə, milli-mədəni dəyərlərimizə, konkret isə Ü.Hacıbəyli şəxsiyyətinə və yaradıcı-

lığına yüksək vətəndaşlıq, peşəkarlıq münasibətləri tərbiyə edir. Ev-muzeyi hər bir azərbaycanlının doğma mənəvi evinə çevrilərək, Azərbaycan musiqi incəsənətinin tanınması, sevilməsi, təbliği kimi missiyanı həyata keçirir.

Sonda məqaləni belə nəticə ilə tamamlamaq istəyirik ki, Ü.Hacıbəylinin musiqisinə, şəxsiyyətinə, zəngin irsinə, xidmətlərinə son dərəcə böyük vətəndaşlıq qüruru, məsuliyyəti, sevgisi və ehtiramı ilə yanaşan Heydər Əliyev, eyni zamanda, Azərbaycan dövlətinin mədəniyyət siyasətində bu böyük şəxsiyyətin obyektiv qiymətləndirilməsi, öyrənilməsi, qorunması, təbliği və gənc nəsillərə layiqincə tanıdılması kimi böyük bir tarixi-humanist vəzifəni yüksək səviyyədə, şərəflə yerinə yetirmişdir. O, yaradıcı şəxsiyyətlərə, tarixə, mədəniyyətə, mədəni və mənəvi dəyərlərə münasibətin xalq üçün nümunəsini yaratmışdır. Ü.Hacıbəylinin ev-muzeyinin təşkilində, açılmasında birbaşa iştirak etməsi, ömrünün sonuna qədər Ü.Hacıbəyli irsinin toplanılması, qorunması və gələcək nəsillərə çatdırılmasının qayğısına qalması Heydər Əliyevin Azərbaycan musiqi mədəniyyəti və incəsənəti qarşısında ən böyük tarixi xidmətlərindən biridir.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Bəstəkarın yüksək vəzifəsi və amalı. B.:Azərnəşr, 1979. 32 s.
2. Dahi bəstəkar Ü.Hacıbəylinin anadan olmasının 110 illiyinə həsr olunmuş yubiley gecəsində Azərbaycan Respublikası Prezidenti H.Əliyevin nitqi. 18 sentyabr, 1995. // Heydər Əliyev milli mədəniyyətimizin keşiyində. II kitab. – B.: 2001. – S. 158-164.
3. Böyük dirijor və bəstəkar Niyazinin ev-muzeyinin təntənəli açılışında Azərbaycan Respublikası Prezidenti H.Əliyevin nitqi. 18 sentyabr, 1994. // Heydər Əliyev milli mədəniyyətimizin keşiyində. II kitab. – B.: 2001. – S. 186-194.
4. bduləliyev A. Üzeyir Hacıbəyli irsinin təbliği musiqişünaslığın müasir və aktual vəzifəsi kimi. // Ü. Hacıbəylinin 125 və Bakı Musiqi Akademiyasının 90 illiyinə həsr olunmuş elmi-praktik konfransın materialları. - B.: Mütərcim, 2011. - S. 220-230.
5. Abduləliyev A. Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti. – “Musiqi dünyası”, 2008, № 1-2/35, s. 4-18.
6. Абдулалиев А. Культурная миссия Гейдара Алиева как предмет современной музыкальной науки. // Наука и современность-2000: Сборник

материалов II Международной научно-практической конференции. - Новосибирск, Сибпринт, 2000. – С. 97-103.
7. Abduləliyev A. Konservatoriyanın 50 illiyi Azərbaycan musiqi mədəniyyətinin mühüm tarixi hadisəsi kimi. - “Musiqi dünyası”, 2012, N 3/52, s.113-120
8. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. - Fond 1, siyahı 62, s.v. 26, s. 242.
9. Bu barədə bax: “O sabah da bizimlə gedəcəkdir yanaşı”: Üzeyir Hacıbəyovun ev-muzeyinin təntənəli açılışı. – “Bakı”, 21 noyabr, 1975, s. 1, 3; Z. Səfərova. Elmi əsaslarla. – “Bakı”, 10 noyabr, 1975, s.3; Böyük bəstəkara həsr olunur: [Memarlıq və incəsənət institutunda Ümumittifaq elmi konfransı] – “Bakı”, 12 noyabr, 1975, s.4; Azərbaycan musiqisinin iftixarı: Moskvada Üzeyir Hacıbəyovun anadan olmasının 90 illiyinə həsr edilmiş təntənəli gecə. – “Bakı”, 1 dekabr, 1975. s.1.
10. Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivi.- Fond 501, siyahı 1, s.v. 295.

**Açar sözlər:** Heydər Əliyev, mədəniyyət siyasəti, musiqi mədəniyyətinin inkişafı, Üzeyir Hacıbəylinin musiqi irsinin qorunması və təbliği.

*Ариз Абдулалиев (Азербайджан)*

**Гейдар Алиев и наследие Узеира Гаджибейли**

В статье поставлен актуальный музыковедческий вопрос об огромной культурно-исторической миссии общенационального лидера Г.Алиева в деле сохранения, пропаганды и изучения ценнейшего музыкального наследия У.Гаджибейли. Данный вопрос рассматривается в аспектах развития азербайджанской музыкальной культуры и музыкальной пропаганды, непосредственно связанные с культурной политикой общенационального лидера.

**Ключевые слова:** Гейдар Алиев, культурная политика, развитие музыкальной культуры, сохранение и пропаганда музыкального наследия У.Гаджибейли.

***Ariz Abdulaliyev (Azerbaijan)***

**Heydar Aliyev and the heritage of Uzeyir Hajibeyli**

In this article has been investigated the issue about cultural-historic mission of H.Aliyev in preserving, propaganda and study of music heritage of U.Hajibeyli. This issue is discussed in the aspects of development of Azerbaijan musical culture and musical propaganda, directly related to the cultural policy of the national leader.

**Keywords:** Heydar Aliyev, cultural policy, development of music culture, preservation and propaganda of musical heritage of U.Hajibeyli.

*UOT 78.08:801.81*

***İradə Köçərli***
***sənətşünaslıq doktoru***
***(Azərbaycan)***

# HEYDƏR ƏLİYEV VƏ XALQ MUSİQİSİ

Çıxışımın mövzusu üzrə araşdırmalar apararkən, ilk növbədə, «Bəstəkarın yüksək borcu və vəzifəsi» adlı kitabça ilə qarşılaşdım. Bu, 1979-cu ilin 1 oktyabrında H.Əliyevin Azərbaycan bəstəkarları ilə görüşdəki çıxışının mətni idi. Çıxışı dərindən, yeni nəzərlərlə bir daha öyrəndim. Heyrətlənməmək mümkün deyildi. Öz dövrünə uyğun tərtib olunmasına baxmayaraq, bu çıxışı musiqi mədəniyyəti haqqında gələcəyə ünvanlanmış proqram – çıxış, proqram – sənəd kimi qəbul etmək olardı. Burada musiqişünas dəqiqliyi ilə Azərbaycan musiqisi, onun keçdiyi şərəfli yol tarixi inkişaf kontekstində baxılmış, musiqimizin bir sıra nəzəri, elmi, etik və estetik problemləri üzə çıxarılmış, bəstəkar və dövr, bəstəkar və millilik, ənənəvilik, novatorluq, beynəlmiləlçilik və s. məsələlər konkret, dəqiq və ümumiləşdirmə məharəti ilə təhlil edilmişdir. Burada, eyni zamanda, ifaçılıq sənəti, musiqi təhsili, ümumiyyətlə, Azərbaycan musiqisi qarşısında duran vacib vəzifələr müəyyən edilmişdir.

Ardıcıl, məntiqi və sistemli şəkildə qurulan bu çıxış bir çox mətləblərə aydınlıq gətirdi. Bir daha yəqin etdim ki, Respublikaya rəhbərlik etdiyi ilk illərdən başlayaraq, H.Əliyev bütün sahələrdə, o cümlədən musiqi mədəniyyəti sahəsində də, qarşısına görüləcək işlər üzrə proqram – ali ideyalar, böyük məqsədlər qoymuş və həmin ideyaları, məqsədləri bütün fəaliyyəti boyu ardıcıl olaraq yerinə yetirilmişdir. Bir daha əmin oldum ki, son dövrlərdə müxtəlif münasibətlərlə keçirilən tədbirlərdə heyranlıqla dinlədiyimiz çıxışların özülü hələ çox-çox əvvəllər qoyulmuşdur. Musiqi tariximizin bir çox mərhələlərini, hadisələrini doğru yola istiqamətləndirən, müəyyənləşdirən məhz H.Əliyev özü olmuşdur.

Artıq bu çıxışdan 25 ilə yaxın bir dövr keçir. Bu illər ərzində Azərbaycan öz tarixinin bəlkə də ən mürəkkəb, dramatik dövrünü yaşamışdır.

Sovetlər İttifaqının süquta doğru irəlilədiyi 80-ci illər, uğursuzluğa düçar olan "yenidənqurma", dramatizmlə dolu Qarabağ müharibəsi, faciəvi milli qarşıdurma və nəhayət, xalqımızın əsrlər boyu qəlbində həsrətlə yaşatdığı müstəqillik illəri.

Xalq öz müstəqilliyini və gələcəyini yenə Heydər Əliyevə – tanıdığı, inandığı, bu keşməkeşli illərin mübarizə yollarında daha da mətinləşmiş, güclü bir şəxsiyyətə etibar etdi. Heydər Əliyevin Azərbaycana qayıdışı daha möhtəşəm oldu. «Zəmanəmizin ən görkəmli siyasətçilərindən biri, böyük dövlət xadimi, təşkillatçı və qurucu bir şəxsiyyət kimi tanınan Heydər Əliyev həm də böyük təfəkkür sahibi, ədəbiyyat və sənət bilicisi» (1, 3) kimi daha da parlaq bir işıqla xalqın həyatına daxil oldu.

«Heydər Əliyevin Azərbaycan elmi, mədəniyyəti, bütövlükdə mənəvi həyatı barədə müxtəlif mülahizələri yalnız dünən, bu gün üçün deyil, sabah üçün də həmin sahələr üzrə mütəxəssislərin müraciət edəcəyi, faydalanacağı metodoloji-ideoloji əhəmiyyətə malik fikirlərdir. Buna görə də həmin mülahizələrin sistemə salınıb öyrənilməsinə, elmi-professional baxımdan şərh edilib dəyərləndirilməsinə… böyük ehtiyac vardır. Heydər Əliyev… aktiv siyasi fəaliyyətdə olduğu, əsas hissəsini Azərbaycana rəhbərliyə sərf etdiyi otuz ildənartıq bir dövrdə Azərbaycan mədəniyyətinin inkişafında, elm və incəsənət xadimlərinin yaradıcılığının çiçəklənməsində əvəzsiz rol oynamaqla yanaşı bir nəzəriyyəçi-mütəfəkkir kimi də çıxış etmiş, heç zaman elmi dəyərini, fəlsəfi məzmununu itirməyəcək fikirlər söyləmişdir» (2, 8). «Ədəbiyyat məclisində gözəl ədəbiyyatçı, mədəniyyət tədbirlərində ilhamlı sənətşünas, siyasi həyatda usta siyasətçi və iqtisadçı kimi yüksək bilik nümayiş etdirən Heydər Əliyev ,haqqında danışdığı hər bir mövzusunun mahiyyətinə vararaq yüksək erudisiya, dərin məlumat, zəngin həyat təcrübəsinə malik olduğunu hər dəfə sübuta yetirir. Onun müxtəlif münasibətlərlə ədəbiyyat və incəsənət haqqında, yaradıcı ziyalılar barədə və xüsusilə, böyük siyasət haqda söylədiyi, öz mahiyyətinə və ümumiləşdirici qüvvəsinə görə aforizm statusu almış fikirləri dediklərimizi təsdiqləyir» (3, 38). Belə qiymətli, böyük məna kəsb edən fikirlərdən biri də budur: «Xalq gərək daim öz kökünü xatırlasın» (2, 281). Öz milli kökünə bağlı olan, xalqını dərin bir məhəbbətlə sevən, doğma dilinə dərindən yiyələnən, bu dilin bütün incəliklərini duyan və ondan mənəvi zövq alan, xalqının tarixi, mədəniyyəti, elmini əsaslı şəkildə mənimsəyən Heydər Əliyev dediyi bu sözlərə daim sadiq qalmışdır.

«Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gələcək, həmişə yaradacaq, həmişə inkişaf edəcəkdir» (3, 39). Tezis şəklində deyilmiş bu sözlər Heydər Əliyevin mədəniyyətə, incəsənətə, onun xalqın ictimai-tarixi inkişafında

tutduğu mövqeyə verdiyi böyük qiymətin təzahürüdür. Heydər Əliyev musiqi sənətinə xüsusi bir önəm verir: «Hər bir bədii əsər insanlara müsbət təsir göstərir – onların xarakterlərinin formalaşmasına, inkişaf etməsinə, mədəni səviyyəsinin artmasına böyük təsir göstərir. Amma musiqi vasitəsilə göstərilən təsir bütün o biri əsərlərin təsirindən yüksəkdir» (3, 39). Bu sözlər, həmçinin, musiqi sənəti, ayrı-ayrı əsərlər haqda söylənən, əsl musiqişünas mövqeyini xatırladan fikirlər həssas musiqi duyumuna, nəfis zövqə, musiqini intellektual səviyyədə qavrama qabiliyyətinə malik olan, dinlədiyi əsərlərin təsiri ilə ən ali hislər yaşayan və bu hisslərlə mənən zənginləşən müdrik bir insandan xəbər verir.

«Azərbaycan xalqı zəngin musiqi irsinə malikdir, biz folklor musiqisini nəzərdə tuturuq, o musiqini ki, xalq yaratmış və əsrlər, qərinələr boyu nəsildən-nəsilə ötürmüşdür. Biz professional musiqini nəzərdə tuturuq, hansı ki, Azərbaycanda, müqayisədə, yaxın dövrlərdə, əsrimizin əvvəllində yaranmışdır, lakin tarixən qısa bir müddət ərzində böyük və şərəfli yol keçmişdir və indi müasir professional incəsənətin çox yüksək bir səviyyəsində durur. Sizin yaradıcılıq fəaliyyətinizin əsası, bazası – budur. Sizin geniş istifadə etməli olduğunuz münbit material – budur» (4, 8).

Bu sözlər dünən üçün, bu gün üçün, gələcək üçün deyilmiş sözlərdir, gələcək nəsillərə verilən tapşırıq-nəsihətdir. Bəstəkarlara ünvanlanmış bu sözlər hər bir musiqi sənətkarı üçün örnək olmalı və həyat qayəsinə çevrilməlidir. Çünki məhz bu yolla istiqamətlənmə Azərbaycan musiqisinin əbədi yaşarılığına təminat verir.

«Bəstəkarın ustalığı, onun yüksək professionallizmi ondan ibarət olmalıdır ki, Azərbaycan xalq musiqisi, milli melodiyalar, Azərbaycan folkloru əsasında toplanmış sərvətləri istifadə edərək bütün janrlarda fundamental əsərlər yaratsın» (4, 17) - deyən və Azərbaycan xalq musiqi yaradıcılığını mədəni irsimizin ən zəngin qatlarından biri kimi qəbul edən, dəyərləndirən H.Əliyev bu sərvətlərdən səmərəli istifadə olunmasının vacibliyini, yeni əsərlərin milli zəmində yaranması zərurətini bir daha vurğulayır. F.Əmirovun və Niyazinin simfonik muğamlarına toxunan H.Əliyev demişdir: «Bu əsərlərin əsasında bizim qədim muğamlarımız durduğu halda, onlar nə qədər peşəkarcasına yazılmış, xalq melodiyaları necə yaradıcı surətdə istifadə olunmuş, folklor və müasirlik necə də bacarıqla, üzvi sürətdə sintezləşdirilmişdir. Fikrimizcə sizin getməli olduğunuz yol – budur. Bu zəmin əsasında əsərlər yaranarsa, onlar çox qabarıq milli formaya, milli koloritə malik olacaq, özündə Azərbaycan

musiqisinə xas olan səciyyəvi çalarları daşıyacaqdır» (4, 17) - dəqiq, aydın, müdrikcəsinə deyilmiş sözlər.

Ümumiyyətlə, «H.Əliyev sənətdən millilik, müasirlik tələb edir: təbiiliyi, doğruluğu onun əsas məziyyətlərindən sayır, təsir və gücünü yüksək qiymətləndirirdi» (5, 86).

2000-ci illərdən başlayaraq Respublikamızın musiqi həyatında xüsusi bir canlanma hiss olunur: müxtəlif musiqi festivalları, müasir musiqi, caz musiqisi, klassik musiqi və s. üzrə konsert proqramları, musiqi problemlərinə həsr olunmuş çoxsaylı konfrans və seminarlar, Azərbaycanın dahi musiqi xadimləri – bəstəkar və ifaçılarının tarixi hadisəyə çevrilən yubiley tədbirləri. Bir çox mədəni hadisələrin, eləcə də yubileylərin keçirilməsinin təşəbbüskarı, hətta təşkilatçısı da məhz H.Əliyev olmuşdur. H.Əliyev demişdir: «Bu yubileylərin keçirilməsində məqsəd həmin şəxslərin özlərinin yada salınmasından çox, xalqın elminin, mədəniyyətinin, mənəviyyatının zənginliyini nümayiş etdirməkdir və indiki nəslə, gələcək nəsillərə onlardan daha faydalı istifadə etmək üçün imkan yaratmaqdır» (2, 203). Doğrudan da, «Azərbaycanın… böyük və tarix şəxsiyyətlərinin yubileyləı ümumxalq tədbirləri» (2, 203) nə çevrilir, bütöv bir zamanı əhatə edir, respublikamızın kənd və rayonlarında, ayrı-ayrı şəhərlərinin müxtəlif təşkilat və müəssisələrində çoxlu sayda konfrans və mühazirələr, xatirə gecələri, konsert proqramları və bir çox başqa tədbirlər həyata keçirilir. Bu isə yubilyarın yaradıcılığının bir daha öyrənilməsi, tədqiqi və təbliğinə, beləliklə də, mədəniyyətimizin inkişafına xidmət edən hadisələrə çevrilir.

«Dədə-Qorqud» - 1300 yubileyinin xatırlamaq yerinə düşərdi. Xalqımızın mədəni həyatında tarixi, ictimai-siyasi hadisəyə çevrilən, qorqudşünaslıq elminin inkişafında sıçrayışa səbəb olan bu yubiley münasibətilə H.Əliyev aşağıdakı sözləri söyləmişdir: «Yeni ilə, yeni minilliyə biz Qorqud bayrağı altında, Qorqud övladları kimi, Qorqud mənəviyyatını yaşadan insanlar kimi qədəm qoyuruq» (6). Böyük məna kəsb edən bu fikri, bir azərbaycanlı olaraq, böyük fəxrlə, tariximizi, elmimizi, mədəniyyətimizi qorumağa, irəliyə doğru aparmağa borclu ondan gənc nəsillərə örnək, çağırış kimi qəbul etmək olar.

Qorqud kimi müdrik, ölməz və əbədi!

Yubiley tədbirlərində H.Əliyevin parlaq çıxışlarını vurğulamamaq mümkün deyil. Son dövrlər, demək olar ki, yazılı mətndən imtina edən və şifahi nitqə üstünlük verən H.Əliyev mövzu ətrafında zəngin bilik, erudisiya, çevik təfəkkür tərzi, fenomental yaddaş nümayiş etdirirdi. O, çıxış zamanı məqa-

mın, şəraitin diqtə etdiyi bir anda dəqiq, «düz yerinə düşən», ağıllı, elmi cəhətdən əsaslandırılmış, heyrətamiz fikirlər söyləyir, keçmişin və bu günün tarixi hadisələrini qeyri-adi bir dəqiqliklə xatırlayır, ən mürəkkəb fikirləri belə sadə və aydın bir dildə çatdıra bilirdi. «H.Əliyev konkret məsələlər üzərində düşünə-düşünə danışmağı, danışa-danışa nəticə çıxarmağı və müdrik ümumiləşdirmələr verməyi xoşlayır. Şifahi nitqin sonsuz improvizasiya imkanını onun qədər məntiqli bir şəkildə idarə edən natiqə çox az-az hallarda təsadüf olunur» (2, 225).

Son illərdə respublikamızda Aşıq Ələskərin, C.Qaryağdı oğlunun, Bülbülün, Xan Şuşinskinin və başqalarının təntənəli yubiley tədbirləri keçirilmiş, görkəmli xanəndə və ifaçılara dövlət orden və medalları təqdim edilmiş, fəxri adlar, fərdi təqaüdlər verilmişdir. Heydər Əliyev özü bu haqda demişdir: «İncəsənətə, mədəniyyətə hörmət, qayğı hər bir siyasi rəhbərin borcudur. Mən sənət haqqında, sənətkar haqqında bir qərar qəbul edəndə fikirləşirdim ki, bu qərar xalqın mədəni inkişafına nə dərəcədə təsir göstərə bilər. Mədəniyyətin tərəqqisinə təsiri necə olar. İstərdim ki, xalqın mədəni tərəqqisi yüksək olsun, mədəniyyəti inkişaf etsin.

Mən incəsənətin müxtəlif sahələrində çalışan mədəniyyət xadimlərini öz işlərmə görə qiymətləndirməyi üstün tuturam. Sənət adamlarına yaratdıqları heykələ, memarlıq abidəsinə, bəstələdiyi musiqiyə, oynadıqları rollardakı ifa tərzinə görə qiymət vermək lazımdır» (7). Heydər Əliyevin sənət meyarı – budur.

2003-cü ildə MEA Rəyasət Heyətinin qərarı ilə yeni bir institut – Folklor İnstitutu yaradılmışdır. Nizami adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən «Folklor sarayı» Elmi Mərkəzinə MEA-nın müstəqil institutu statusu verilmişdir. İnstitutun direktoru H.İsmayılov bu hadisəni belə qiymətləndirmişdir: «MDB məkanında müstəqil Folklor İnstitutun yaradılması ilk hadisədir. Bunu ölkə başçısının xalqının, dövlətinin kökünə, milli mənəvi dünyamıza daha bir ehtiramı kimi qəbul etməliyik. Möhtərəm prezidentimiz Heydər Əliyevin təşəbbüsü, diqqət və qayğısı ilə formalaşmış «Folklor sarayı» Elmi-Mədəni Mərkəzin mövcudluğu faktı Azərbaycan xalqının mənəvi ehtiyatlarının demokratik cəmiyyət və dövlət quruculuğu işinə səfərbər edilməsinin real təzahürüdür. Humanitar İnstitutların genişləndirilməsi və fəaliyyətinin yaxşılaşdırılması istiqamətində görülən işlər də bunu bir daha təsdiqləyir… Ölkə başçısının bu addımı xalqının və dövlətinin milli mənəvi sərvətlərinə ən böyük məhəbbətinin, qayğısının təzahürüdür» (8). Yeniyaradı-

lan bu Folklor İnstitutu Azərbaycan ədəbi elminin inkişafında – folklorumuzun toplanması, nəşri, tədbiqi və təbliğində, eyni zamanda, qorunmasında da böyük rol oynayır.

Biz Heydər Əliyevin musiqi mədəniyyəti, xüsusilə, xalq musiqi yaradıcılığının inkişaf etdirilməsi, təbliği yolunda göstərdiyi xidmətlərin cuzi bir hissəsini bir çıxış çərçivəsində əhatə etməyə çalışırıq. Çıxışımı yenə də Heydər Əliyevin sözləri ilə bitirmək istərdim: «Xalqını, onun ədəbiyyatını, mədəniyyətini, incəsənətini, dilini sevən hər bir şəxs, harada olursa olsun, xalqının ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin, dilinin inkişafına, millətinin tərəqqisinə çalışmalıdır» (7). Bütün ömrünü Azərbaycan xalqının tərəqqisinə həsr edən Ulu öndərin həyat səlnaməsi hər birimiz üçün örnək, nümunə olmalıdır.

**ƏDƏBİYYAT**

1. Aforizmlər. 1997, səh. 3.
2. N.Xudiyev. Heydər Əliyev və Azərbaycan dili. 1997, səh. 8
3. Ü.Talıbzadə. Heydər Əliyev və musiqi. Bax.: Heydər Əliyev və Azərbaycan incəsənəti. 2000, səh. 38.
4. H.Əliyev. Bəstəkarın yüksək borcu və vəzifələri. 1979. səh. 8.
5. İ.Kərimov. Azərbaycan teatrı və incəsənətinin inkişafında H.Əliyevin rolu. Bax.: H.Əliyev və Azərbaycan incəsənəti. 2000, səh. 86.
6. «Xalq» qəzeti 10 aprel 2003.
7. H.Əliyev və Azərbaycan incəsənəti. 2000.
8. «Xalq» qəzeti. 5 aprel 2003, səh. 6.

**Açar sözlər:** Heydər Əliyev, xalq musiqisi, kitabça, musiqi mədəniyyəti, sosial-siyasi fəallıq.

***Ирада Кочарли (Азербайджан)***

**Гейдар Алиев и народная музыка**

Автор статьи привлекает внимание читателей к брошюре «Высокий долг и предназначение композитора» Г.Алиева, оценивает эту брошюру как программный документ о музыкальном искусстве, имеющий перспективное значение. В статье особо отмечается, что основные положения этой брошюры стали главными для последующей общественно-по-

литической деятельности Г.Алиева, в его отношении к народной музыки и вообще к музыкальному искусству Азербайджана.

**Ключевые слова:** Гейдар Алиев, народная музыка, брошюра, музыкальное искусство, общественно-политическая деятельность.

***Irada Kocharli (Azerbaijan)***

**Heydar Aliyev and folk music**

The author of the article draws the readers` attention to Heydar Aliyev`s brochure "Composer's high debt and destination" published in 1979, estimates this brochure as a program document about music art having prospective significance. In the article there is especially noted that main principles of this brochure became basic for further social-political activity of Heydar Aliyev, in his treatment to folk music and generally to music art of Azerbaijan.

**Keywords:** Heydar Aliyev, folk music, brochure, music culture, social-political activity.

*UOT 7.067*

***Aygün Abbasova***
***(Azərbaycan)***

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN SƏNƏT ADAMLARI

Azərbaycan qədim tarixə və mədəniyyətə malikdir. Azərbaycan mədəniyyətinin yüksək dəyərləndirilməsində Ulu Öndər Heydər Əliyevin özünəməxsus və xüsusi rolu olmuşdur. Ulu Öndər Heydər Əliyev xalqımızın inkişafı üçün önəmli olan bütün fəaliyyət sahələrinə həmişə ciddi diqqət yetirən bir siyasətçi olmuşdur. Bir dövlət rəhbəri kimi Heydər Əliyev daim mədəniyyət xadimlərinin qayğısına qalmışdır.

Bildiyimiz kimi milli mədəniyyətimizin fəaliyyəti və inkişafıüçün mədəniyyət və incəsənət xadimlərinin əməyi böyük olmuşdur. Azərbaycan mədəniyyəti və incəsənətini dünyaya tanıdan mədəniyyət xadimlərimiz mohtərəm Prezident Ulu Öndər Heydər Əliyev tərəfindən istər dövlət mükafatları, istər şöhrət ordenləri, istərsə də fərdi təqaüdlər və s. kimi müxtəlif mükafatlarla qiymətləndirilmişdir. Ulu Öndər Heydər Əliyev İncəsənətimizin və mədəniyyətimizin yalnız keçmişini və buğününü deyil, eyni zamanda gələcəyini də fikirləşirdi. Azərbaycanda mədəniyyət və incənətin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz ölkəyə rəhbərliyinin bütün dövrlərində bu sahəyə böyük diqqət və qayğı göstərmiş və yüksəldilməsinə mühüm önəm vermişdir. Dahi şəxsiyyət Azərbaycanda rəhbərliyə başladığı ilk günlərdən incəsənətin inkişafına mane olan amilləri aradan qaldırmaq üçün ciddi mübarizə tədbirlərinə başlamış, ölkəmizin mədəniyyətlə bağlı problemlərini həll etmişdir.

Azərbaycan mədəniyyətinin inkişafında misilsiz xidmətləri olan möhtərəm Prezidentimiz cənab Heydər Əliyev sənətçilərlə görüşlərinin birində demişdir ki, "Biz xalqımızın tarixi, keçmişi ilə, əldə etdiyi nailiyyətlərlə həmişə fəxr edirik. Bu sahədə xalqımızın tarixindəən görkəmli yeri mədəniyyət, incəsənət vəədəbiyyat tutur. Çoxəsrlik tariximizdə məhz mədəniyyət, ədəbiyyat, incəsənət xalqımızı çətin yollarla bu günə gətirib çıxarıbdır və xalqımızın mənəviyyatını, zənginliyini dünyaya nümayiş etdirib, dünya xalqlarına çatdırıbdır. Keçmişdə də, indi də xalqımız, respublikamız ən çox öz mədəniyyəti, ədəbiyyatı, öz intellektual səviyyəsi ilə dünyada tanınır."

O, Ü.Hacıbəyov, Q.Qarayev, F.Əmirov, A.Zeynallı və s. kimi Azərbaycan musiqi korifeylərinin adlarının əbədiləşdirilməsi, böyük dramaturq İlyas Əfəndiyev, Yazıçı Hüseyn İbrahimov, dahi Azərbaycan şairi Məhəmməd Füzulinin, xalq şairləri Xəlil Rza Ulutürk, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Qabil, Mirvarid Dilbazi və s kimi xalq şair və yazıçılarımızın xatirəsini yad edib, yubileylərinin keçirilməsini təşkil eləmişdir. Mən bugün teatrda və kinoda olan sənət adamlarına olan qayğısından sohbət etmək istərdim. Çünki Ulu Öndər milli mədəni dəyərlərin qorunub saxlanılması sahəsində böyük işlər aparmışdır. Bu xidmətlərə mən Ulu Öndərin hər il mədəniyyət işçilərinin bayramlarında onları təbrik etməsi onlara olan diqqətin bariz sübutu olmasını qeyd etmək istərdim. Bu baxımdan mənim də diqqətimi cəlb edən bir qısa məktubu, 1995-ci ildə teatr xadimlərini teatr günü münasibəti ilə təbrikini nəzərəçatdırmaq istəyirəm:

"Azərbaycan Respublikasının teatr xadimlərinə. Əziz teatr xadimləri! Sizi Azərbaycan Milli Teatr günü münasibətiləürəkdən təbrik edirəm. Azərbaycanın teatr xadimləri bütün mütərəqqi fikirli ziyalılarla birlikdə həmişə milli azadlıq hərəkatımızın ön cərgəsində getmiş, xalqın ağır günlərində ona mənəvi dayaq olmuşlar, bu gün də qədim mədəniyyətimizin dünyaya tanıdılmasında böyük işlər görürlər. Bu əlamətdar gündə milli teatrımızın çiçəklənməsi, daha da inkişaf etdirilməsi naminə sizin hamınıza cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti. 8 mart 1995-ci il".

Ulu Öndər Heydər Əliyev respublikamızın Prezidenti olan illərdə bir çox şairlərimizlə görüşmüş, yaradıcılıq gecələrində iştirak etmiş, konsertlərə və tamaşalara getmiş və mədəniyyət xadimlərinə yüksək qiymət vermişdir. Məsələn onlardan biri 1995-ci ildə böyük Azərbaycan şairi və dramaturqu, Azərbaycan teatr tarixində misilsiz dram əsərləri yaradan Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı müşavirə keçirilməsi haqqında qərar vermişdir. Bu müşavirədə Ulu Öndər Heydər Əliyev mədəniyyətimizlə, ədəbiyyatımızla bağlı olan Azərbaycan xalqının böyük şairi, yazıçısı, dramaturqu, filosofu Hüseyn Cavidin xatirəsi yad etmişdir. Onun bu müşavirədə dramaturqa verdiyi qiymət aşağıdakı sözlərdən aydın görünür: "Bilirsiniz ki, Hüseyn Cavidin həyatı, yaradıcılığı Azərbaycan üçün nə qədər dəyərli, əhəmiyyətli olub, onun qoyduğu əbədi, mənəvi irs bizim üçün nə qədər əhəmiyyətli və gərəklidir. Eyni zamanda onun həyatı faciəli olubdur. Ancaq bu faciəli dövrlər onun yaratdıqlarını Azərbaycan xalqının qəlbindən çıxara bilməyib, yaşadıbdır". Ulu Öndər 1995-ci ildə Azərbaycanın xalq artisti

Amaliya Pənahovanın 50 illik yubiley gecəsini təşkil etmişdir. Bu məclisdə o mədəniyyətimizin və incəsənətimizin şəxsən özü tərəfindən heç vaxt unudulmamasını qeyd edib, mənəvi əsasların xalqa incəsənət vasitəsi ilə aşılanmasını qeyd etmişdir.

Ulu Öndər xalq artisti Amaliya Pənahovanın rəhbərlik etdiyi Bədiyyə teatrının onilliyi iləəlaqədar analoqu olmayan bir fərmanla teatrın iyirmi üç sənətkarına yüksək fəxri adlar vermişdir. Teatr xadimlərinə böyük inam və məhəbbətini biruzə verən, onların əməyini yüksək qiymətləndirən, işlərini fədakarlıq, cəfakeşlik işi adlandıran hörmətli Prezidentimiz söyləmişdir ki, "teatr xadimləri, teatrda işləyən hər bir şəxs fəadakarlıq edir. İndi teatrda işləmək asan məsələ deyil. Mən bunu yaxşı bilirəm. Salonda otururuq, üç saata yaxın davam edən tamaşa bizə bir saniyə kimi gəlir. Mən belə təsəvvür edirəm, elə bilirəm ki, başqa tamaşaçılar da bu fikirdədirlər. Ancaq hər bir aktyor hər hansı bir obrazı ifa etmək üçün nə qədər enerji sərf edir. Oxuyan da, çalan da, söz deyən də, rol ifa edən də. Mən yenə deyirəm, teatr xadimləri, incəsənət sahəsindəçalışan adamlar ən fədakar insanlardırlar. Hər biriniz xalqımız üçün qiymətli insanlarsınız. Çox böyük iş görürsüz. Ümidvaram ki, siz və sizdən sonra gələnlər mədəniyyətimizi daim irəliyə aparacaqlar".

Teatr və mədəniyyətimizin gözəl bilicisi, xalqımızın fəxri və iftixarı Azərbaycanın Prezidenti Heydər Əliyev mədəniyyətimizin əbədiliyi və inkişafı uğrunda böyük işlər görmüşdür. Heydər Əliyev incəsənətimizə istər mənəvi, istərsə də maddi baxımdan həmişəüstünlük verib, diqqət mərkəzində saxlamışdır. Buna mədəniyyət xadimlərinin əmək haqlarının artırılması, bir çox teatr binalarının əsaslı təmiri xüsusi nümunədir. Buna Opera və Balet Teatrı, Gənc Tamaşaçılar Teatrı, Milli Dram Teatrı və Musiqili Komediya teatrının binasının əsaslı təmiri və son avadanlıqlarla təmin olunması, Sumqayıtda, Ağdamda teatrlar bərpa edilməsi, Lənkəranda yenidən teatr açılması Ulu Öndər Heydər Əliyevin mədəniyyət sahəsində həyata keçirdiyi tədbirlərdəndir. O, mədəniyyət xadimlərinə göstərilən dövlət qayğısı ilə bağlı bir çox fikirlər söyləmişdir. O demişdir: «Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir. Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər. Azərbaycan mədəniyyəti öz mil-

liliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır. Xalqımız zəngin mədəniyyətə malikdir."

Ulu Öndər mədəniyyət və incəsənət xadimlərinə qarşıçox diqqətli idi. Xalq artistləri və mədəniyyət işçilərinə göndərdiyi məktubları, ad günlərində etdiyi təbrikləri qeyd etmək istərdim. Xalq artisti Nəsibə xanım Zeynalovaya 1997-ci ildə anadan olmasının 80 illiyi münasibətilə təbrik etmişdir. Onun Milli Teatrımızın inkişafında böyük xidmətləri ilə seçilən nadir sənətkar kimi Azərbaycan komediya teatr tarixinəəbədi daxil olduğunu qeyd etmişdir. H.Əliyev orijinal üslubda yaddaqalan obrazlar yaratmaqla tamaşaçıların böyük məhəbbətini qazanmış mahir gülüş ustası Nəsibə xanım Zeynalovaya həmişə qayğı göstərmişdir. 1994-cü il Respublikanın xalq artisti Zəroş Həmzəyevaya göndərdiyi məktubda isə onun Azərbaycan səhnəsində yaratdığı unudulmaz qadın obrazları ilə sənətsevərlərin qəlbindəəbədi məskən salmasını, ecazkar sənəti ilə xalqının sevimli sənətkarı olmasını qeyd etmişdir. Onu yubileyi münasibəti iləürəkdən təbrik edib, səmimi arzularını bildirmişdir. Azərbaycanın xalq artisti Sofiya Hüseynovaya 1996-cı ildə yazdığı məktubunda anadan olmasının 70 illiyi münasibətilə səmimi qəlbdən təbrik etmiş, Sofiya xanımın Naxçıvan Dövlət Dram Teatrındakı yarıməsrlik fəaliyyəti dövründəçoxlu klassik və müasir səhnə surətləri yaratdığını və tamaşaçıların dərin hörmət və məhəbbətini qazanmasını qeyd etmişdir.

Teatr səhnələrində, əzəmətli konsert salonlarında Azərbaycanın görkəmli bəstəkarlarının səhnə əsərlərinin tamaşaya qoyulması, simfonik və kamera musiqisinin uğurla səsləndirilməsi bilavasitə Heydər Əliyevin dəstəyi ilə həyata keçirilirdi. Məhz onun uzaqgörənliyi sayəsində Azərbaycan incəsənəti və mədəniyyəti bütün dünyada tanınmışdır. Dünyasını dəyişən görkəmli mədəniyyət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi üçün ev muzeylərinin yaradılması, əzəmətli heykəllərinin ucaldılması, yubileylərinin qeyd edilməsi, həmçinin onların adının küçə, məktəb və mədəniyyət ocaqlarına verilməsi məhz bu dahi şəxsiyyətin adı ilə bağlıdır. Heydər Əliyev yaradıcı ziyalıların əməyini yüksək qiymətləndirirdi. Onun təsis etdiyi Prezident təqaüdünü incəsənətimizin inkişafının təmin edilməsində tarixi addım kimi dəyərləndirmək olar. Bu yüksək təqaüdlə təltif olunanlar sırasında görkəmli elm xadimləri, yazıçı və şairlərlə bərabər xalq artistləri Amalya Pənahovanın, Səyavuş Aslanın,Yaşar Nurinin, Firəngiz Şərifovanın və digərlərinin adlarınıçəkə bilərik. Teatr sənətkarlarının fəaliyyətini yüksək qiymətləndirən Ulu Öndər demişdir: "Hər bir xalqın mə-

dəniyyəti həmişə onu yüksəldir, bütün dünyada tanıdır, mənəviyyatını zənginləşdirir. Fəxr edə bilərik ki, bizim mədəniyyətimiz qədim zamanlarda da çox zəngin və yüksək olmuşdur. Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı vəəsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır. Xalqımız zəngin mədəniyyətə malikdir. Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bizim mədəniyyətimizin nə qədər dərinliyi var, yüksəkliyi var. Biz nə qədər zənginik! Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur."

Heydər Əliyev bir çox tamaşaları canlı olaraq teatr zallarından izləyirdi. Onlardan Dövlət Musiqili Komediya Teatrında Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasının yeni quruluşda ilk tamaşasına, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında xalq yazıçısıİ.Əfəndiyevin "Hökmdar və qızı", xalq yazıçısı Elçinin "Ah, Paris... Paris..." ikihissəli komediyasına, Azərbaycan Dövlət Akademik Opera teatrında Əfrasiyab Bədəlbəylinin "Qız Qalası" baletinə, Fikrət Əmirovun "Sevil" operasının yeni quruluşda ilk tamaşasına baxmış, tamaşa bitdikdən sonra hər bir tamaşanın yaradıcı kollektivi ilə görüşüb söhbət etmişdir. Eyni zamanda Respublika sarayında keçirilən "Bakılı oğlanlar" şən və hazırcavablar komandasının konsertində dəfələrlə iştirak etmiş, sonra komandanın üzvləri ilə yaxından görüşüb onlara fəaliyyətlərində uğur diləmişdir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan kino sənətinin inkişafında da xidmətləri böyükdür. Hakimiyyətdə olduğu illər ərzində müxtəlif kino festivallarında iştirak etmiş, kino işçilərinə mükafatlar vermiş, fəxri adlarla təltif etmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan kinosu gününə həsr olunmuş təntənəli mərasimdə iştirak etməsi buna nümunədir. Bu mərasimdə çıxışı zamanı Azərbaycan kinematoqrafiyasında çalışan bütün insanları, bütün kinosevərləri ürəkdən təbrik etmiş, Azərbaycan kinosunun bundan sonra daha böyük inkişaf yolu ilə gedəcəyini qeyd etmişdir. 1996-cı il MDB və Baltiya ölkələrinin "Filmfest-96" festivallar festivalının Respublika sarayında keçirilən açılış mərasimində iştirak edən Heydər Əliyev, tədbirdən sonra Festival iştirakçıları ilə yaxından görüşüb, onları təbrik etmişdir.

Görkəmli Azərbaycan yazıçısı və kinodramaturqu Maqsud İbrahimbəyovun "Gülüstan" Sarayında qeyd olunan 60 illik yubileyi gecəsində Prezidentin

şəxsən iştirakı onun nəinki kino işçilərinə, eyni zamanda Azərbaycan kinodramaturqlarına, yazarlara olan diqqətindən xəbər verir. Bundan əlavə Azərbaycan kinemotoqrafıyasında göstərdiyi fəaliyyəti ilə əlaqədar Xalq artisti Rasim Ocaqova 65 illik yubileyi münasibəti ilə, Azərbaycan kinosunun və milli teatrımızın görkəmli nümayəndəsi Xalq artisti Həsən Məmmədova 60 illik yubileyi iləəlaqədar, xalq artisti kinejissor Eldar Quliyevə 60 illik yubileyini münasibətilə təbrik məktubu göndərmişdir. Azərbaycan kinosuna yeni ab-hava gətirmiş Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi, Əməkdar incəsənət xadimi, kinorejissor Vaqif Mustafayevin anadan olmağınının 50 illiyi münasibətilə yazdığı məktubda Ulu Öndər belə yazır: “Sizin yaradıcılığınız Azərbaycan kinosu tarixinin unudulmaz səhifələrindən birini təşkil edir. Fitri istedad və bacarığınız sayəsində yaratdığınız kinofilmlərinizlə Siz Azərbaycan xalqının müasir həyatının aktual problemlərinin bədii vasitələrləəks olunmasında böyük xidmətlər göstərmisiniz. Kinonun geniş imkanlarından bəhrələnərək yaratdığınız obrazlar öz həyatiliyi ilə səciyyələnir. Sizin mahir rejissor və ssenarist kimi formalaşdırdığınız dəst-xəttiniz əsərlərinizə baxan tamaşaçının gözüönündə sanki şəxsiyyətinizi canlandırır. İnanıram ki, Siz ömrünüzü həsr etdiyiniz Azərbaycan kinosunun inkişafı, çiçəklənməsi naminə bundan sonra da var gücünüzü səfərbər edəcəksiniz.”

Bütün həyatı boyu elm, mədəniyyət və incəsənətə daim qayğı göstərmiş Dahi rəhbər Heydər Əliyev mənim də yaddaşımda özünəməxsus izlə qalmışdır. 2003-cü Respublika gənclərinin II forumunda mən də iştirak etmişəm, və orda Ulu Öndərin 2 saat ayaq üstə nitq söylədiyinin şahidi olmuşam, mən fəxr edirəm ki Allah mənə müəyyən qədər də olsa onun səsini və nitqini yaxından eşitməyə imkan yaratdı. Allah sizə rəhmət eləsin Ulu Öndər. Sizi əmin etmək istəyirəm ki, bir Azərbaycan gənci olaraq mənə göstərilən etimadı doğruldacaq, ölkəmizdə təkmilləşmiş kadr kimi fəaliyyət göstərəcəyəm, habelə işlədiyim müddət ərzində Azərbaycançılıq ideyalarının təbliğində bütün gücümü səfərbər edəcəyəm.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev: dövlət xalq üçündür: kəlamlar, sitatlar, aforizmlər Bakı: 2008
2. Əl-Fəlah, Adil Abdulla. Heydər Əliyev və milli mənəvi dəyərlər / 2007
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası - Seçilmiş fikirləri “Mədəniyyət haqqında”
4. Ülvi Almaz. Ədəbiyyat ömrü yaşayan əbədiyyat memarı - Bakı: Nurlan, 2004

5. Deyilən söz yadigardır / tərt.: E.Z.Qaraxanlı, S.Babullaoğlu; Bakı: Azərbaycanda Atatürk Mərkəzi, 2008
6. Aforizmlər: Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin çıxışlarından seçilmiş müdrik fikirlər / bur. məsul R. Mehdiyev; tərt. Ş. Əsgərov, S. Xəlilov; Bakı: 1997
7. Ədəbiyyatın yüksək borcu və amalı: nitqlər, məruzələr, çıxışlar / tərt. V.Quliyev; Bakı: 2000

**Açar sözlər:** Heydər Əliyev, incəsənət, mədəniyyət, teatr, kino.

*Айгюн Аббасова (Азербайджан)*

**Гейдар Алиев и деятели искусства Азербайджана**

Большой знаток искусства и культуры, гордость народа, Президент Азербайджана Гейдар Алиев, проделал большую работу для развития и увековечивания нашей культуры. Гейдар Алиев высоко ценил и поддерживал наше искусство, как в нравственном, так и в материальном отношении.

**Ключевые слова:** Гейдар Алиев, искусство, культура, театр, фильм.

*Aygun Abbasova (Azerbaijan)*

**Heydar Aliyev and Azerbaijan actors of art**

The big expert on art and culture, pride of the people, the President of Azerbaijan Heydar Aliyev, did a great job over development and perpetuation of our culture. Heydar Aliyev highly appreciated and kept in the attention center our art, both with moral, and from a material aspect.

**Keywords:** Heydar Aliyev, art, culture, theatre, movie.

# MÜNDƏRİCAT

**Salamzadə Ərtegin** ........ 3
Heydər Əliyev və Azərbaycan incəsənəti

**Kərimli Vüqar** ........ 9
Heydər Əliyevin mədəni siyasəti

**Abdullayeva Rəna** ........ 15
İlham Əliyev – H.Ə.Əliyevin mədəni siyasətinin varisidir

**Məmmədova Rəna** ........ 22
Ulu öndər Heydər Əliyevin
Azərbaycan incəsənətinin inkişafında rolu

**Hüseynov İlqar** ........ 31
Heydər Əliyevin Azərbaycan mədəniyyətinin inkişafında rolu

**Məmmədkərimova Səbinə** ........ 41
Heydər Əliyev və Azərbaycanda multikulturalizm
ideallarının təkamülü

**Kasimi Sehranə** ........ 47
Dəyişən dünyada tolerantlıq və multikulturalizm

**Zeynalov Xəzər** ........ **52**
Şamaxı, Qobustan və İsmayıllı şəhərlərindəki
Heydər Əliyev mərkəzlərinin bədii-estetik tərtibatı

**Əliyeva Kübra** ........ **60**
Ümumilli Liderimiz Heydər Əliyevin obrazı
Kamil Əliyev və Tahir Məcidovun əsərlərində

**Mikayılova Mehriban** ........ **70**
Heydər Əliyev və Bakının 1970-1980-ci illərin
ictimai binaların memarlıq siması

**Abduləliyev Ariz** ........ **80**
Heydər Əliyev və Üzeyir Hacıbəyli irsi

**Köçərli İradə** ........ **91**
Heydər Əliyev və xalq musiqisi

**Abbasova Aygün** ........ **98**
Heydər Əliyev və Azərbaycanın sənət adamları

# СОДЕРЖАНИЕ

**Саламзаде Эртегин** .......... **3**
Гейдар Алиев и искусство Азербайджана

**Керимли Вугар** .......... **9**
Культурная политика Гейдара Алиева

**Абдуллаева Рена** .......... **15**
Ильхам Алиев – преемник культурной политики Г.Алиева

**Мамедова Рена** .......... **22**
Роль общенационального лидера Гейдара Алиева
в развитии искусства Азербайджана

**Гусейнов Ильгар** .......... **31**
Роль Гейдара Алиева в развитии культуры Азербайджана

**Мамедкеримова Сабина** .......... **41**
Гейдар Алиев и становление идеалов
мультикультурализма в Азербайджане

**Касими Сехрана** .......... **47**
Толерантность и мультикультурализм в изменяющемся мире

**Зейналов Хазар** .......... **52**
Художественно-эстетическое оформление центров
Гейдара Алиева в городах Шемаха, Гобустан и Исмаиллы

**Алиева Кюбра** .......... **60**
Образ общенационального лидера Гейдара Алиева
в произведениях Кямиля Алиева и Таира Меджидова

**Микаилова Мехрибан** .......... **70**
Гейдар Алиев и архитектурный облик
общественных зданий Баку 1970-1980-х годов

**Абдулалиев Ариз** .......... **80**
Гейдар Алиев и наследие Узеира Гаджибейли

**Кочарли Ирада** .......... **91**
Гейдар Алиев и народная музыка

**Аббасова Айгюн** .......... **98**
Гейдар Алиев и деятели искусства Азербайджана

## CONTENTS

**Salamzade Artegin** ........ **3**
Heydar Aliyev and art of Azerbaijan

**Karimli Vugar** ........ **9**
Heydar Aliyev`s cultural policy

**Abdullayeva Rena** ........ **15**
İlham Aliyev is successor of Heydar Aliyev's cultural policy

**Mamedova Rena** ........ **22**
The role the national leader H.Aliyev in the development
of Azerbaijan art

**Huseynov Ilgar** ........ **31**
The role of Heydar Aliyev in the development of Azerbaijan culture

**Mamedkarimova Sabina** ........ **41**
Heydar Aliyev and the formation of ideals of multiculturalism in Azerbaijan

**Gasimi Sehrana** ........ **47**
Tolerancy and multiculturalism in modifying world

**Zeynalov Khazar** ........................................ **52**
Artistic and aesthetic design of the centers
of Haydar Aliyev in the cities of Shemakha, Gobustan and Ismailly

**Kubra Aliyeva** ........................................ **60**
The character of national leader Heydar Aliyev in creativity of
Kamil Aliyev and Tahir Majidov

**Mikayilova Mehriban** ........................................ **70**
Heydar Aliyev and architectural appearance of
public buildings in Baku of the 1970-1980th

**Abdulaliyev Ariz** ........................................ **80**
Heydar Aliyev and the heritage of Uzeyir Hacibeyli

**Kocharli İrada** ........................................ **91**
Heydar Aliyev and folk music

**Abbasova Aygun** ........................................ **98**
Heydar Aliyev and Azerbaijan actors of art